# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

# ABUZƏR XƏLƏFOV

70

№ 1 2001

XÜSUSİ BURAXILIŞ



Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Dövlət Universiteti
Kitabxanaçılıq-informasiya fakültəsi

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri və təcrübi jurnal

## №1 ' 2001

**Xüsusi buraxılış**



***Professor Abuzər Xələfovun 70 illik yubileyinə həsr edilir***

**1997-ci ilin oktyabrından çıxır**

**№1 (8)**

**Bakı - 2001**

**KBT 78**
**K-73**

**Təsisçi və baş redaktor:**
**dosent Xəlil İSMAYILOV**

**Tərtibçi: baş müəllim Knyaz ASLAN**

**REDAKSİYA HEYƏTİ:**
*Professor Abuzər XƏLƏFOV*
*Professor Zöhrab ƏLİYEV*
*Professor Bayram ALLAHVERDİYEV*
*Dosent Tacəddin QULİYEV*
*Dosent Əşrəf XƏLƏFOV*
*Dosent Rasim KAZIMOV*
*Dosent Nadir İSMAYILOV*

**K-73**
Kitabxanaşünaslıq və bibilioqrafiya: elmi-nəzəri və təcrübi jurnal (xüsusi buraxılış). - B.: Bakı Universiteti nəşriyyatı, 2001, №1. - 152 s.

Redaksiyanın ünvanı. 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23, 2 saylı tədris korpusu, IV mərtəbə, kitabxanaçılıq-informasiya fakültəsi.
Telefonlar: 39-05-47; 39-08-03; 39-03-66.

*© «Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalı, 2001*

## XÜSUSİ NÖMRƏDƏKİLƏR

**Baş redaktordan**

**Vasim Məmmədəliyev**. Gözəl alim, qayğıkeş müəllim, səmimi insan

**Xəlil İsmayılov.** Görkəmli şəxsiyyət

**Zöhrab Əliyev**. Kitabxanaşünaslıq elmi məktəbinin banisi

**Tacəddin Quliyev.** Kitabxanaçılıq tarixinin ilk tədqiqatçısı

**Bayram Allahverdiyev.** Sevimli vətəndaş-alim

**Sərdar Quliyev.** Zəhmətkeş alim

**Vəli Həbiboğlu.** Öyünüləsi alim

**Zöhrab Baxşəliyev.** Professor A.A.Xələfovun elmi məktəbi

**Əsrəf Xələfov.** Nadir şəxsiyyət, fitri istedada malik tədqiqatçı, əsl pedaqoq

**Rasım Kazımov**. Abuzər Xələfov Azərbaycan kitabxanaşünaslığının Banisidir

**Sahib Rzayev**. Bir ömrün potensial imkanı

**Əli Rüstəmov.** Ustad haqqında bir neçə söz

**Mayıl Həsənov.** Görkəmli kitabxanaşünas-alim

**Aşur Əliyev**. Tədris işinin bilicisi

**Zülfəli İbrahimov.** Mənəviyyat keşikçisi

**Mehmanəli Məmmədov.** Xeyirxahlığın təntənəsi

**Leyla Gərayzadə.** Mənəvi dayaq

**Elçin Əhmədov.** Ucalıq rəmzi

**Murad Şəmsizadə.** 70 bahar

**Akif Cəfərov.** Həmişə zirvədə

**Murtuz Bağırov.** Müdrik insan

**Raifə Vəzirova.** Universitetdə ilk müəllimim

**Qəmzə Hacıyeva.** Fakültəmizin ağsaqqalı

**Sənubər Mustafayeva.** Qayğıkeş ziyalı

**Ramiz Həmidov.** İdeal insan

**Xudayar Quliyev.** Kitabxanaçılar ordusunun sərkərdəsi

**Azər Hüseynov.** Qibtə etdiyim dəyərli insan

**Dəmir Bayramov**. Fitri istedad sahibi

**Tahir Sadıqov.** Sizinlə fəxr edirik

**Seymur Şeydayev.** 70 ilin yaşantısı

**Afiqə Cəfərova**. Müqəddəsdir alimlərimiz

**Zöhrə Camalova**. Sədaqət meyarı

**Solmaz Sadıqova.** Mənalı ömür

**Hicran İsmayılova.** Fakültəmizin canlı tarixi

**Knyaz Aslan.** Ömür pillələri vəya son söz əvəzi

# BAŞ REDAKTORDAN

Əziz oxucular!

Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin 50 illik yubileyinin təntənəli şəkildə bayram edildiyi bir dövrdə –1997-ci ilin oktiyabrında ilk nömrəsi ilə sizin görüşünüzə gəlmiş «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-nəzəri və təcrübi jurnalının xüsusi buraxılışı qarşısındadır. Əlamətdar haldır ki, bu xüsusi buraxılış kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcılarından biri, Azərbaycan kitabxanaşünaslıq elminin banisi, görkəmli alim Abuzər Xələfovun anadan olmasının 70 illiyinə həsr edilir.

Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov həm respublikamızda, həm də ölkəmizdən kənarda çox yaxşı tanınır. Onun Azərbaycanda kitabxana işinin tarixinə, kitabxanaşünaslıq elminin nəzəri və təcrübi problemlərinə, ali kitabxanaçılıq təhsilinə və s. məsələlərə dair çoxsaylı əsərləri mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir və bu gün də kitabxanaşünaslıq elmi ictimaiyyətinin tez-tez müraciət etdiyi dəyərli tədqiqatlarındandır.

Professor Abuzər Xələfovun zəngin elmi-pedaqoji və ictimai fəaliyyəti nəsillərə örnəkdir və öyrənilməyə layiqdir. O, respublikamızdakı müxtəlif tipli və növlü kitabxanalarda fəaliyyət göstərən 5 min nəfərdən artıq kitabxanaçı-bibiloqrafın sevimli müəllimi, bütövlükdə mədəni-maarif işçilərinin ağsaqqalı, kitabxanaşünas-bibiloqraf alimlərin ustadı kimi çox böyük hörmətə layiqdir.

Elm və təhsil sahəsindəki xidmətlərinə görə Azərbaycan kitabxanaşünasları arasında ilkin olaraq müstəqil dövlətimizin «Şöhrət» ordeninə layiq görülməsi professor Abuzər Xələfovun nüfuzunun ucalığını sübuta yetirir.

Fədakar alim, qeyrətli vətəndaş, cəfakeş ziyalı, mahir pedaqoq kimi çox yaxşı tanınan Abuzər müəllim haqqında bu xüsusi buraxılışda onun dostlarının və tələbələrinin ürək sözləri toplanmışdır. İnanıram ki, jurnalımızın bu nömrəsi oxucularımız tərəfindən maraqla qarşılanacaqdır.

*Vasim MƏMMƏDƏLİYEV*
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*müxbir üzvü, əməkdar elm xadimi,*
*filologiya elmləri doktoru, professor*

# GÖZƏL ALİM, QAYĞIKEŞ MÜƏLLİM, SƏMİMİ İNSAN

Abuzər müəllimi mən 1959-cü ildən tanıyıram. O zaman mən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsinin birinci kurs tələbəsi, Abuzər Xələfov isə fakültəmizin kitabxanaçılıq şöbəsinin müəllimi idi. Tələbələrlə daim təmasda olan, onların qayğıları ilə yaşayan, ehtiyacları ilə maraqlanan, imkan daxilində onlara köməklik göstərən Abuzər müəllim hələ o vaxtlar gənclər arasında böyük hörmət qazanmışdı.

Fakültəmizin adlı-sanlı yaşlı müəllimlərinin zəhmindən çəkinən tələbələrin bir çoxu, necə deyərlər, öz dərdlərini Abuzər müəllimə söyləyər, çətin işlərini onun köməyi ilə həll edərdilər. O zaman hələ çox gənc olan Abüzər müəllim özünün sadəliyi, qayğıkeşliyi, canıyananlığı, həssaslığı və səmimiliyi sayəsində bir ağsaqqal mövqeyində idi.

1962-ci ildə Abuzər müəllimin təşəbbüsü və fəal iştirakı ilə kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevriləndən sonra bu zəhmətkeş insanın elmi-pedaqoji və təşkilatçılıq fəaliyyəti üçün sözün həqiqi mənasında geniş meydan açıldı. Kitabxana işi sahəsində respublikamızda ilk elmlər namizədi və doktoru olan Abuzər müəllim qısa bir müddətdə bu fakültəni o zamankı SSRİ miqyasında tanınan və etiraf olunan aparıcı tədris müəssisələrindən birinə çevirdi. Cəsarətlə demək olar ki, Azərbaycanda kitabxanaşünaslığın bir elm kimi formalaşması, inkişafı və tərəqqisi, BDU-nun kitabxanaşünaslıq-informasiya fakültəsinin bu gün MDB məkanında ciddi bir elm və tədris müəssisəsi kimi tanınması məhz Abuzər müəllimin adı ilə bağlıdır.

Abuzər müəllim həm də dinimizin qayda-qanunlarını gözəl bilən, onlara riayət edən bir insandır. Abuzər müəllim dinin yarısı olan insafı heç bir zaman əldən verməyən mömin bir müsəlmandır. Mən fakültəmizlə, ümumən universitetlə bağlı bir çox prinsipial məsələlərdə dəfələrlə bunun şahidi olmuşam.

Allahın evini - müqəddəs Kəbəni ziyarət etmiş Abuzər müəllim bir hacı kimi respublika miqyasında keçirilən dini tədbir və mərasimlərdə yaxından iştirak edir, özünün ibrətamiz söhbətləri, gözəl məsləhətləri ilə gəncliyimiz arasında inam, vətənpərvərlik hisslərinin qüvvətlənməsi işində fəal rol oynayır.

2001-ci ilin əvvəllərində mənə Abuzər müəllimlə birlikdə qədim İraq torpağını, Kərbəlada müqəddəs İmam Hüseyn məqbərəsini ziyarət etmək nəsib oldu. Səfər zamanı mən özüm üçün Abuzər müəllimin daha bir müsbət keyfiyyətini - gözəl yol yoldaşı olmasını kəşf etdim.

Abuzər müəllim dostluqda çox möhkəm, pis gündə adamın arxasında duran, bu yolda heç bir çətinlikdən qorxub çəkinməyən mərd bir insandır. Elə bu keyfiyyətlərinə görə də Abuzər müəllim onu tanıyanlar arasında özünə böyük hörmət və ehtiram qazanmışdır. Çətin gündə fikirləşirsən, nə yaxşı ki, Abuzər müəllim kimi bir dostun var və o, sənə bu çətinlikdə həyan durar.

Yetmiş yaşın kürəyini ləyaqətlə yerə vurmuş Abuzər müəllim bu gün ömrünün kamillik çağını yaşayır. Mən bu gözəl alimi, qayğıkeş müəllimi və səmimi insanı anadan olmasının yetmiş illiyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı, şəxsi həyatında və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

*Xəlil İSMAYILOV*
***BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, pedaqoji elmlər namizədi, dosent***

# GÖRKƏMLİ ŞƏXSİYYƏT

Azərbaycanda və keçmiş SSRİ-də kitabxanaçı kadrların hazırlanmasından söhbət düşəndə böyük alim, cəfakeş təhsil işçisi, özünün mübarizliyi, hər hansı bir məsələnin həllində inadkarlığı ilə seçilən, 5000 nəfərdən çox yetirməsi olan professor Abuzər Alı oğlu Xələfov yada düşür. Hamı bir ağızla deyir: Azərbaycanda kitabxanaçılıq məktəbinin yaradıcısı, kitabxanaşünas alimlərin müəllimi, sözün əsl mənasında təhsilin təşkilatçısı professor Abuzər Xələfovdan söhbət gedir. 70 yaşı bu il tamamlanan Abuzər müəllimin taleyinə və bəxtinə olduqca ağır, çətin və mürəkkəb bir sahənin cəfakeşi olmaq alın yazısı kimi yazılıbmış. Bu gün də çox böyük həvəslə, sənətə vurğunluqla, yorulmadan, bu ixtisasın fədaisi kimi çalışması onun yetirmələrində çox böyük həvəs, inam hissi yaradır və ondan gələcəyə ümidlə baxmağı öyrənirlər.

Onda bu sahəyə maraq və həvəs 1950-ci ildə - 18 yaşında sənədlərini filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə verdikdən sonra yaranıb. Abuzər Xələfovun Azərbaycanda kitabxanaşünas-biblioqraf kadrların hazırlanmasında ilkin düşüncələri də həmin illərdə baş qaldırıb. Həmin dövr müharibədən sonrakı illərə düşdüyündən çox ciddi çətinliklər, sosial gərginlik olduğuna baxmayaraq sürətlə quruculuq işləri həyata keçirilirdi. O cümlədən təhsil sahəsində də bu irəliləyiş özünü qabarıq şəkildə büruzə verirdi. Həmin dövrdə təhsilə, oxumağa, elmin yüksək zirvələrinə yüksəlməyə böyük həvəs vardı. Xüsusilə bu həvəs, bu canlanma Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində daha güclü idi. Professor A.Xələfovun özünün dediyi kimi, o dövrdə çox məşhur və sanballı ziyalılar – Əli Sultanlı, Cəfər

Xəndan, M.C.Cəfərov, Məmməd Arif Dadaşzadə, F.M.Qasımzadə, M.C.Paşayev, M.H.Təhmasib, H.Arif kimi görkəmli alimlər məhz filologiya fakültəsində çalışırdılar. Bu alimlər - yüksək ixtisasa, zəngin mənəviyyata malik olan alovlu vətənpərvərlər, görkəmli şəxsiyyətlər kadr hazırlığına, elmin tərəqqisi prosesinə güclü təkan verir, tələbə gənclərin yoluna işıq salır, onların savadlı mütəxəssis, əsl vətəndaş, parlaq ziyalı kimi yetişməsi üçün təminat verirdilər.

Hörmətli Abuzər müəllimin fikrinə əsaslanmaqla demək olar ki, bu günədək yüksəkixtisaslı kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında, xüsusilə özünün bugünkü yüksək zirvəyə ucalmasında görkəmli müəllimlərinin olduqca böyük zəhməti və əməkləri olmuşdur.

Təsadüfi deyildir ki, Abuzər müəllim bu görkəmli şəxsiyyətlərin adını həmişə fəxrlə çəkir, qürur hissi ilə yad edir. Elə bil Abuzər müəllim o görkəmli şəxsiyyətlərin yüksək ixtisaslı, peşəkar mütəxəssislərin yetişdirilməsində nəzərdə tutduqları arzularını bu günədək yerinə yetirməyi öz üzərinə götürmüşdür. Abuzər müəllim 50 ilə yaxındır ki, bu şərəfli və olduqca məsuliyyətli işi yorulmadan, müəllimlərinin adına layiq yerinə yetirir. Əlbəttə, yarım əsr bir insan ömrüdür. Bu ömrü şərəflə yaşayanda o, ikiqat sevindiricidir. 1997-ci ildə Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin 50 illik yubileyi keçiriləndə həmin sevinc hissi Abuzər müəllimin baxışlarından aydın oxunurdu. Bu sevinc adi sevinc hissi deyil, ağır zəhmətin, narahat günlərin, mübahisəli və ziddiyyətli anlar keçirmiş bir insanın öz yetirmələrinə baxaraq fərəh duyduğu alnı açıq, üzü ağ, əsl ustad baxışı idi. Bir anlığa Azərbaycanda kitabxanaçı kadrların hazırlanmasına tarixi nəzər salmaqla Abuzər müəllimin kadr hazırlığındakı gərgin fəaliyyətini ardıcıllıqla izləyək.

1947-1948-ci tədris ilində universitetin filologiya fakültəsində kitabxanaçılıq şöbəsi yaradılır və ilkin olaraq 20 nəfər kitabxanaçılıq ixtisasına qəbul olunur.



1950-ci ildə Abuzər müəllim universitetə daxil olarkən şöbədə 3 kurs var idi. O, dördüncü qəbul ilində daxil olmuşdu. 1955-ci ildə o, universiteti bitirərkən kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə cəmi bir kafedra var idi. O zaman kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında cəmi 3 nəfər müəllim çalışırdı (Ə.H.Qəhrəmanov, H.Tağıyev, M.Səmədova). Onlar kitabxanaşünaslıq və biblioqrafiya fənlərindən dərs deməklə yanaşı fakültənin və ixtisasın ilk özülünü yaradanlar idilər. Onların əməyi yüksək qiymətləndirilir və fəaliyyətləri həmişə hörmətlə yad edilir. Lakin qeyd etməliyik ki, onların heç biri ixtisasçı deyildi. Ona görə də bu sahənin mütəxəssisə ciddi ehtiyacı vardı. Belə mütəxəssis şöbənin öz məzunlarının içindən bacarıqlı gənclərin seçilməsi yolu ilə həyata keçirilə bilərdi.

Elə buna görə də universitet rəhbərliyi 1955-ci ildə Abuzər Xələfovun fəallığını, universiteti fərqlənmə diplomu ilə bitirdiyini və təşkilatçılıq keyfiyyətlərini nəzərə almaqla birbaşa kafedrada müəllim saxlamışdı.

Şöbənin fəaliyyət göstərdiyi və Abuzər müəllimin gənc müəllim kimi işlədiyi 1955-1962-ci illər olduqca maraqlı, dəyişkən və onun üçün uğurlu illər olmuşdur. Belə ki, 1958-ci ilə qədər filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən şöbə 1958-ci ildə şərqşünaslıq fakültəsi yaradılarkən onun nəzdində 1962-ci ilədək şöbə kimi kadr hazırlığını davam etdirir. Gənc Abuzər müəllim qısa bir müddətdə kadr hazırlığının bütün sirlərini öyrənməyə daha dərindən maraq göstərir, tədris planlarına və tədris proseslərinə daha dərindən nüfuz etməklə bu sahənin əsl sahibi kimi konkret addımlar atmağa başlayır.

O, tədris və kadr hazırlığı işi ilə maraqlanmaqla yanaşı, özünün elmi-tədqiqat işi ilə də daha ciddi məşğul olur. Nəticə etibarilə sahənin ilk mütəxəssisi kimi formalaşmağa başlayır və 1962-ci ildə respublikamızda kitabxanaşünaslıq və biblioqrafiya sahəsində ilk namizədlik dissertasiyasını müdafiə edir. Tarix elmləri namizədi alimlik adını qazanır.

Məhz bu dövrdən başlayaraq müstəqil kitabxanaçılıq fakültəsinin yaradılmasına dair fikir formalaşmağa başlayır. Bu addımı atmağa şərait və imkan yaranır.

Əgər 1947-1962-ci illərdə yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında görkəmli yazıçı Süleyman Rəhimovun, universitetin rektoru A.Qarayevin, Ə.Abdullayevin, H.Tağıyevin, Ə.Qəhrəmanovun, M.Səmədovanın, Ş.Mehdiyevin xüsusi xidmətləri göstərilirsə, artıq 1962-ci ildən kitabxanaçılıq fakültəsinin yaranması, bu sahə üzrə kadr hazırlığı, elmi kadrların yetişdirilməsi bu günədək Abuzər müəllimin adı ilə birbaşa bağlıdır. Abuzər müəllim 1962-ci ilin oktyabr ayından yeni yaradılmış kitabxanaçılıq fakültəsinin dekanı təyin edilmişdir.

Fakültənin yaradılması və kitabxanaşünas-biblioqraf alimin, sözün əsl mənasında, sahənin öz mütəxəssisinin dekan təyin edilməsi kadr hazırlığında ciddi dönüş yaratdı.

Qeyd etmək lazımdır ki, 1960-cı ilin məlumatına əsasən, kitabxana işçilərinin cəmi 10%-nin ali kitabxanaçılıq təhsili vardı. Bu çatışmazlığı aradan qaldırmaq üçün olduqca konkret əməli addımlar atmaq, ilk növbədə qəbul planını artırmaq və yeni şöbələr açmaq tələb olunurdu. Bu məqsədlə fakültənin gənc dekanı Abuzər Xələfov kadr hazırlığının yeni istiqamətlərini müəyyənləşdirmək məqsədilə əməli tədbirlər görməyə başladı. A.Xələfovun universitet rəhbərliyi ilə ardıcıl olaraq apardığı danışıqlar, təhsil nazirliyi qarşısında məsələ qaldırması öz nəticəsini verdi. 1963-cü ildə kitabxanaçılıq fakültəsinin axşam şöbəsi yaradıldı. Axşam şöbəsinin yaradılması Bakı və Sumqayıt şəhər kitabxanalarında çalışan kitabxana işçilərinin ali kitabxanaçılıq təhsili almalarına güclü təkan verdi. Bu şöbəyə hər il əvvəllər 25 nəfər, sonralar isə 50 nəfər qəbul aparılırdı. Fakültədə yaradılan axşam təhsil sistemi xeyli müddət - təxminən 30 ilə qədər davam etdi. Bu illər ərzində 1200 nəfərə yaxın mütəxəssis hazırlanmasında axşam şöbəsinin fəaliyyət göstərməsinin çox böyük əhəmiyyəti oldu.



1963-cü ildə fakültənin həyatında ikinci yeni bir mühüm hadisə baş verdi. Abuzər müəllimi uzun müddət düşündürən fikirlərdən biri də kitabın xalq arasında yayılmasında və təbliğində kitabxanalarla yanaşı kitab ticarəti müəssisələri üçün kadr hazırlığına başlamaq idi. O, bu məqsədlə çox qapılar açmalı oldu. Bir çox dövlət məmurları ilə görüşüb məsələnin mahiyyətini izah etdi. Göstərilən cəhdlər xoşbəxtlikdən hədər getmədi. Kitabxanaçılıq fakültəsinin nəzdində faktiki olaraq yeni bir sahə üzrə kadr hazırlığının əsası qoyuldu. Bu dövrdə respublikamızda ilk dəfə olaraq bu peşə yönümündə kadr hazırlığına başlanılırdı. Ona görə də bunun nə dərəcədə çətin olduğu təhsil sistemində çalışan və tədrislə məşğul olan mütəxəssislər üçün aydındır. O dövrdə bütün bu çətinliklərin hamısının ağırlığı Abuzər müəllimin üzərinə düşürdü. Məlum olduğu kimi, hələ o dövrdə bir kitabxanaşünaslıq və biblioqrafiya kafedrası fəaliyyət göstərirdi. Burada da tədris prosesini dərindən bilən püxtələşmiş, yetkin kitabxanaşünas alim və mütəxəssislər yox idi. O vaxt mərkəz Moskvada olduğundan bütün bu məsələlərin onlarla razılaşdırılmasında da çox ciddi problemlər yaranırdı. Bütün bunlara baxmayaraq 1963-cü ildə fakültədə kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi yaradıldı. 1963-1964-cü tədris ilindən kitabşünaslıq şöbəsinin axşam və qiyabi bölmələrinə, 1968-1969-cu tədris ilindən isə gündüz bölməsinə qəbul aparıldı. Bu şöbə təxminən 20 ilə yaxın fəaliyyət göstərdi. Təəssüf hissi ilə demək olar ki, 70-ci illərin ortalarında bəzi dövlət məmurlarının laqeyd və qərəzli mövqeyi ucbatından şöbənin fəaliyyəti dayandırıldı. Lakin Abuzər müəllimi bu məsələ daim narahat etdiyindən o, yenidən 90-cı illərin əvvəllərində bu ixtisasın bərpa olunması məqsədilə yuxarı təşkilatlara üz tutmalı oldu. Uzun yazışma və müraciətlərdən sonra Abuzər müəllimin şəxsi təşəbbüsü ilə kitabxanaşünaslıq və kitab ticarətinin təşkili ixtisası 1990-1991-ci tədris ilində yenidən bərpa edildi. Nəhayət, 1995-96-cı tədris ilindən başlayaraq kitabşünaslığın yeni bir istiqaməti üzrə «Kitabşünaslıq, nəşriyyat işi və redaktət-

mə» ixtisası üzrə kadr hazırlığına başlanıldı. Hazırda bu ixtisas üzrə 100 nəfər tələbə təhsil alır. Bu tələbələrin ixtisas fənlərinin tədrisi ilə 1993-cü ildə yaradılmış «Kitabşünaslıq, nəşriyyat işi və redaktəetmə» kafedrasının müəllimləri məşğul olurlar.

Kitabxanaçı-biblioqraf kadrların yetişdirilməsində 70-80-cı illər daha yaddaqalan bir dövrdür. Bu illər professor A.Xələfovun rəhbərliyi ilə kadr hazırlığında və elmi kadrların yetişdirilməsində xüsusi dönüş kimi yadda qalır. Belə ki, 70-80-ci illərdə fakültədə tələbə qəbulu demək olar ki, iki dəfə artmışdı. 1969-cu ildə əyani şöbəyə tələbə qəbulu 50 nəfər idisə, 1981-ci ildə 100 nəfərə çatmışdı. Qiyabi və axşam şöbəsində tələbələrin sayı iki dəfə artmışdı. Artıq 1987-ci ildə fakültənin gündüz, axşam və qiyabi şöbələrində tələbələrin ümumi sayı 1128 nəfərə çatdırılmışdı. Gündüz şöbəsində 480, axşam şöbəsində 126, qiyabi şöbədə isə 522 tələbə təhsil alırdı. O dövr üçün bu çox böyük rəqəm hesab olunurdu və bu yüksəlişin əldə olunmasında fakültənin dekanı, professor Abuzər Xələfovun gərgin zəhməti və əməyi olmuşdur. Fakültənin kollektivi onun kadr hazırlığındakı əməyini, narahatçılığını həmişə qiymətləndirmişdir.

70-80-cı illərdə Abuzər müəllim elmi kadrların hazırlanması sahəsində də gərgin fəaliyyət göstərmişdir. Bu illərdə fakültədə Abuzər müəllim müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş, 8 nəfər onun rəhbərliyi və yaxından köməyi sayəsində namizədlik işi müdafiə etmişdir. Kitabxanaşünas alimlərin yetişdirilməsi fakültədə kadr hazırlığına, yeni kafedra və laboratoriyaların açılmasına şərait yaratmaqla respublikamızda milli kitabxanaşünas-biblioqraf kadrların hazırlanmasına olduqca müsbət təsir göstərmişdir.

80-ci illərin ortalarında artıq kitabxanaçılıq fakültəsi universitetdə formalaşmış, yetkin kadrlara malik, kadr hazırlığında səriştəli bir kollektivə çevrilmişdir. Bu dövrdə



Abuzər müəllimin şəxsi təşəbbüsü ilə yeni tədris laboratoriyalarının yaradılmasına səy göstərildi. Bu laboratoriyaların yaradılması tədris prosesinin təşkilində, praktik və laboratoriya dərslərinin aparılmasında olduqca əhəmiyyətli idi. Ona görə də Abuzər müəllim bu təşəbbüslə universitet rektorluğu, sonra isə Təhsil Nazirliyi qarşısında məsələ qaldırdı. Ciddi cəhdlər göstərməklə müxtəlif səviyyələrdə aparılan danışıqlar öz nəticəsini verdi. 1986-1987-ci tədris ilində Ali və Orta İxtisas Təhsili Nazirliyinin əmri ilə kitabxanaçılıq fakültəsinin nəzdində eyni vaxtda üç tədris laboratoriyası fəaliyyətə başladı. «Kitabxana işinin təşkili və idarə olunması», «Kitabxana fondu və kataloqları», «Biblioqrafik məlumat axtarış sistemləri» laboratoriyaları bu gün də tədris prosesinin aparılmasında, laboratoriya praktik dərslərinin tədrisində xüsusilə əhəmiyyətlidir.

Abuzər müəllim 1955-ci ildən bu günədək kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında həmişə yaxından iştirak etmişdir. Əlbəttə, 25 il dekan olduğu dövrdə kadr hazırlığı ilə birbaşa əlaqəli olmaqla aparıcı rol oynamışdır. O, tədris planlarının, proqramlarının, qəbul planlarının hazırlanmasında iştirak etmişdir. Hələ SSRİ dövründə tədris planlarının tərtibi və hazırlanmasında Abuzər müəllim həmişə xalqımızın və respublikamızın layiqli təmsilçisi, tədrisi dərindən bilən səriştəli ali məktəb işçisi kimi iştirak etmişdir. Məhz Abuzər müəllimin şəxsiyyəti, bu sahənin alimi kimi hörməti, mübarizliyi, istənilən səviyyələrdə birbaşa sözünü deməsi sayəsində kitabxanaçılıq fakültəsi universitetdə formalaşmışdır. İttifaq tərkibində olduğumuz dövrdə ilk dəfə Bakı Dövlət Universitetinin nəzdində kitabxanaçılıq fakültəsi yaradılmışdır. Uzun illərdən sonra məlum oldu ki, Vilnüs Universiteti istisna olmaqla keçmiş SSRİ-nin digər respublikalarında və bütövlükdə Rusiyanın bütün regionlarında kitabxanaçı kadrlar mədəniyyət institutlarında hazırlanır. Əlbəttə, respublikamızda təhsilin bayraqdarı olan Bakı Dövlət Universitetində kitabxanaçı kadrların ha-

zırlanması olduqca əhəmiyyətlidir. Lakin kitabxanaçılıq fakültəsinin məhz universitetdə formalaşması və fəaliyyəti hamı tərəfindən birmənalı qarşılanmamış, müxtəlif illərdə fakültənin incəsənət institutuna verilməsi fikirləri də səslənmişdir. Həmin anlarda Abuzər müəllim həmişə elmi cəhətdən sübut etməklə yanaşı, dünya ölkələrində kitabxanaçı kadrların hazırlanmasını nümunə gətirməklə təsirli çıxışları ilə əsassız fikirləri cəsarətlə rədd etmişdir. Doğrudan da dövlət müstəqilliyimiz əldə olunduqdan və xarici ölkələrlə əlaqələr yarandıqdan sonra bir daha məlum olmuşdur ki, aparıcı, inkişaf etmiş ölkələrdə ixtisaslı kitabxanaçı kadrlar məhz universitetlərdə hazırlanır. Universitetdə fundamental şəkildə kitabxanaçılıq fakültəsinin formalaşması bilavasitə Abuzər müəllimin adı ilə bağlıdır. Bu gün demək olar ki, o, fakültəmizin yaradıcısı və sözün əsl mənasında, onun memarı olmaqla yanaşı, həm də 50 ildən çox fəaliyyət göstərən kitabxanaçılıq fakültəsinin canlı tarixidir.

Abuzər müəllimin taleyində bir çox cəhətlər ardıcıl olaraq birincidir. Bir çox məsələlərdə o, birinci təşəbbüsdə olanlardandır. Fakültənin ilk dekanı, sahə üzrə ilk elmlər namizədi və doktoru, ixtisas üzrə ilk kafedra müdiri və s. Əlbəttə, birinci təşəbbüsdə bulunmaq çox da asan iş deyil. Lakin Abuzər müəllim həmişə birinciliyi əldən vermədən hər bir yeniliyi və yeni məsələləri uğurla başa vurmuşdur. Kitabxanaçı kadrların yeni bakalavr və magistr pillələrinin hazırlanmasında da Abuzər müəllimin dəsti-xətti, yaxından iştirakı daim diqqət mərkəzində olmuşdur. İlk bakalavr və magistr tədris planlarının hazırlanması Abuzər müəllimin rəhbərliyi və iştirakı ilə həyata keçirilmişdir. Təhsilin yeni pilləsinin həyata keçirilməsində bütün ağırlıqlar səriştəli təşkilatçı kimi onun üzərinə düşür. Bu sahədə onun aparıcı rolu və mövqeyi həmişə hiss olunur. Təkcə fakültəmizdə yox, universitetdə də bütövlükdə təhsil sistemində Abuzər müəllimin göstərişinə və məsləhətlərinə həmişə qulaq asılıb. Ona görə də istər əvvəlki, istərsə də indiki təhsil qanununun hazırlanmasında Abuzər müəllim aparıcı mütəxəssis kimi



iştirak edir və bütün təhsil işçiləri onunla həmişə hesablaşırlar.

Təhsilin indiki formasının, yəni bakalavr, magistr, aspirantura və doktorantura pillələri üzrə kadr hazırlığında Abuzər müəllim aparıcı rol oynayır. Faktik olaraq hər dövrdə pillənin hamısında Abuzər müəllimin xeyir-duası olmadan keçinmək olmaz. Abuzər müəllim bakalavr hazırlığı üzrə həmişə attestasiya komissiyasının sədri, magistratura üzrə elmi şuranın sədri, aspirant və doktorların rəhbəri kimi bütün pillələrdə aparıcı rolu olan bir alim kimi tanınır. Xüsusilə magistr hazırlığına o, daha çox diqqət yetirir və həmişə deyir ki, onlar bizim elmi davamçılarımız olacaqlar, onlara həmişə qayğı və diqqət olmalıdır. Elmi kadrların hazırlanmasında, fakültəmizin və sahənin elmi potensialının möhkəmlənməsində Abuzər müəllimin xüsusi xidmətləri vardır. Bu gün Azərbaycanda çalışan kitabxanaçılıq və biblioqrafiya ixtisası üzrə elmi kadrlar əsasən Abuzər müəllimin rəhbərliyi ilə hazırlanmaqdadır. Həmçinin keçmiş SSRİ-də kitabxanaşünas-biblioqraf kadrların hazırlanmasında opponent kimi dəfələrlə iştirak etmişdir.

Bu gün fəxrlə deyə bilərik ki, fakültədə çalışan alimlərin böyük əksəriyyəti Abuzər müəllimin rəhbərliyi ilə alimlik dərəcəsinə yüksəlmişlər.

Kitabxanaçılıq fakültəsinin kollektivi fəxr edir ki, onun Abuzər müəllim kimi lideri, sözün əsl mənasında, qabaqda gedən ziyalısı, ustad müəllimi vardır.

70 illik yubileyini qeyd etdiyimiz professor Abuzər Alı oğlu Azərbaycanda kitabxanaçı kadrların hazırlanması işində təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı, idarəçilik səriştəsi baxımından təkcə universitetdə deyil, respublikamızda və MDB məkanında yüksək nüfuz və hörmət qazanmışdır. Bu gün respublikamızın hər yerində müxtəlif idarə, müəssisə və təşkilatlarda Abuzər müəllimin çoxlu yetirmələri çalışırlar. 1963-cü ildən etibarən bu günədək, yəni 1963-2000-ci illərdə beş min nəfər yüksək ixtisaslı kitabxanaçı biblioqraf kadrları hazırlanmışdır ki, bunların hamısı Abuzər

müəllimin yetirmələridirlər. Bunların içərisində görkəmli alimlər, şairlər, jurnalistlər dövlət adamları, vəzifəli kitabxana işçiləri vardır.

Respublikamızın geniş kitabxana ictimaiyyəti, məzunlarımız və tələbələrimiz adından kitab mədəniyyətimizin ağsaqqalı, görkəmli alim, kitabxana işinin yorulmaz tədqiqatçısı, əməkdar mədəniyyət işçisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biri professor Abuzər Alı oğlu Xələfovu ömrünün kamillik və yetkin çağı - şərəfli 70 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirik!

*Zöhrab ƏLİYEV*
*BDU-nun biblioqrafiyaşünaslıq kafedrasının müdiri, Azərbaycanın əməkdar mədəniyyət işçisi, professor*

# KİTABXANAŞÜNASLIQ ELMİ MƏKTƏBİNİN BANİSİ

Azərbaycanda kitabxanaşünaslıq məktəbinin yaradılması, formalaşması, kitabxanaşünaslığın elm kimi status əldə etməsi bilavasitə professor A.A.Xələfovun fəaliyyəti ilə bağlı olmuşdur. Şərqin belə bir kəlamını xatırlamaq yerinə düşər: "Hər şey yoldan başlayır". Ancaq yolun başlanğıcında mütləq açıq-aydın məramın olmalıdır: bu yolla hara gedirsən və məqsədin nədir. Abuzər müəllimin tutduğu yol Azərbaycanda kitabxanaşünaslığın və ali kitabxanaçılıq təhsilinin yaradılması, kiçik cığırdan onun geniş magistrala çevrilməsi yoludur. Bu yol şərəfli olduğu qədər, həm də məsuliyyətli və çətin yol idi. Məhz ona görə də Abuzər müəllimi hələ 50-ci illərin sonlarından etibarən belə bir sual düşündürürdü: Nə etməli? Necə etməli? O, qarşısına qoyduğu məqsədi həyata keçirmək üçün yüksək elmi potensiala malik monolit kollektivin formalaşmasını əsas vəzifə hesab edirdi. Bunun üçün o, Azərbaycan xalqının görkəmli aydınlarının BDU-nun filologiya fakültəsi yanında yaradılmasına nail olduqları kitabxanaçılıq şöbəsinin müstəqil fakültəyə çevrilməsini özünün başlıca strateji vəzifələrindən biri kimi görürdü.

Deməli, ilk növbədə kitabxana və biblioqrafiya işi sahələrinin elmi əsaslarının yaradılması, paralel olaraq professional elmi-pedaqoji kadrların hazırlanması lazım idi.

Abuzər müəllim özü bu sahədə ilk nümunə göstərdi və çoxəsrlik Azərbaycan kitabxanaçılıq işinin tarixinə həsr etdiyi ilk məqalələrindən namizədlik və doktorluq dissertasiyalarının müdafiəsinə qədər şərəfli bir yol keçdi. Professor

A.Xələfov özü bu münasibətlə sonralar yazırdı: "Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq indeksi üzrə ilk doktorluq dissertasiyasının müdafiəsi kitabxanaşünaslığın yüksək elmi zirvəyə qalxmasında gələcək inkişaf perspektivlərinin və elmlər sistemində özünə yer tutmasının sübutu idi".

O, ali kitabxanaçılıq təhsilinin məzunlarından ibarət pedaqoji kollektiv yaratmağa başladı. Gərgin və keşməkeşli mübarizəsi, qətiyyəti və prinsipiallığı nəticəsində universitetdə 1962-ci ildə müstəqil kitabxanaçılıq fakültəsi yaratdı. Mübaliğəsiz demək olar ki, professor A.Xələfov universitetdə müəllim kimi işlədiyi 1955-ci ildən bu günə kimi bütün həyatını, elmi-pedaqoji, ictimai fəaliyyətini məhz bu kollektivin yaranması və formalaşmasına həsr etmişdir. Burada M.Pişəvərinin dediyi müdrik sözlər yada düşür: "Ən yüksək mənəviyyat özünü kollektivin xeyrinə fəda etməkdir". Doğrudan da Abuzər müəllim gördüyü işlərin miqyası, onun çoxşaxəliliyi, sistemliliyi, ardıcıllığı, mübarizəsi bu sözləri tamamilə ona şamil etməyə bizə əsas verir.

Azərbaycan kitabxanaşünaslığının inkişafında XX əsrin ikinci yarısı haqlı olaraq professor A.Xələfov mərhələsi kimi səciyyələndirilir. Bu fikir təkcə professor A.Xələfovun əldə etdiyi şəxsi elmi-pedaqoji nailiyyətlərlə, yalnız onun yaradıcılıq laboratoriyasında kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın xalqımızın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi ilk dəfə məhz onun tərəfindən geniş tədqiq olunması ilə deyil, eyni zamanda öz monolitliyi, elmi səviyyəsi və dinamik inkişafı ilə seçilən Abuzər Xələfov məktəbinin yaranması ilə bilavasitə əlaqədardır. Bu elmi məktəb özündə üç nəsli birləşdirir. Bu məktəb son 40 ildə çox böyük inkişaf yolu keçmişdir. Professor A.Xələfov yaratdığı məktəb üçün kadrlar seçərkən həmişə belə bir sınanmış prinsipi əldə rəhbər tutmuşdur:

"Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmlərini talantsız peşəkarlardan, peşəkar olmayan talantlardan qo-



rumaq". O, məhz bu yolla gedərək məqsədinə nail olmuşdur.

Professor A.Xələfovun elmi məktəbini təmsil edən görkəmli alimlər həm də Azərbaycanda ali kitabxanaçılıq təhsilinin inkişafına qiymətli töhfələr vermiş şəxslərdir. Bu məktəbin nümayəndələri arasında onun ilk aspirantı olmuş, hazırda BDU-nun kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent Tacəddin Fərhad oğlu Quliyev, mərhum tarix elmləri namizədi, dosent Elman Mahmud oğlu Bədəlov, mərhum tarix elmləri namizədi, dosent Hacı Balay oğlu Həsənov, pedaqoji elmlər namizədi, dosent, hazırda fakültənin dekanı və doktorluq dissertasiyasını başa çatdırmış Xəlil İsmayıl oğlu İsmayılov, tarix elmlər namizədi, dosent Almaz Nüsrət qızı Abbasova, tarix elmləri namizədi, dosent, dekan müavini Zöhrab İsa oğlu Baxşəliyev, tarix elmləri namizədi, dosent Mayıl Mikayıl oğlu Həsənov, pedaqoji elmlər namizədi Mehmanəli Əkbər oğlu Məmmədov, pedaqoji elmlər namizədi Elçin Yusif oğlu Əhmədov, tarix elmləri namizədi Əlizadə Şamil oğlu Nəcəfov və b. kitabxanaşünaslıq və kitabşünaslığın ayrı-ayrı problemləri üzrə ilk elmi-tədqiqat işləri yazmış alimlərdir.

Professor A.Xələfovun yaratdığı elmi məktəbin ilk nümayəndələrindən biri dosent T.F.Quliyevdir. O, Abuzər müəllimin ilk aspirantı olmuş, "Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1941-ci illər)" mövzusunda namizədlik dissertasiyasını 1968-ci ildə müvəffəqiyyətlə müdafiə edərək alimlik dərəcəsi almışdır. Onun yaradıcılıq yolu öyrənilməmiş bir sahənin araşdırılmasından, həmkarlar ittifaqları kitabxanalarının XX əsrdə keçdiyi inkişaf yolunun tədqiq edilib ümumiləşdirilməsindən ibarət olmuşdur.

Professor Abuzər Xələfovun yaradıcılıq laboratoriyasında əhaliyə kitabxana xidməti sisteminin təşkili və onun müasir problemləri həmişə mühüm yer tutmuşdur.

Bu baxımdan professor A.Xələfovun rəhbərliyi ilə başa çatdırılmış mərhum Elman Bədəlovun "Sosializmin tək-

milləşməsi dövründə Azərbaycan SSR-də kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970-ci illər)" mövzusunda 1976-cı ildə müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyası, onun nəticələri, tövsiyələri elmi-təcrübi baxımdan çox böyük əhəmiyyətə malik olmuşdur. İlk dəfə olaraq bu tədqiqat işində sosioloji metodlardan istifadə edilmiş, kənd kitabxanalarının sosial institutlar sistemində, mövcud informasiya məkanında yeri kompleks şəkildə araşdırılmışdır. Tədqiqat əsasında Azərbaycanın ayrı-ayrı coğrafi, iqtisadi rayonlarında əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsinə dair ciddi elmi tövsiyələr hazırlanaraq, əməli fəaliyyətə tətbiq olunmuşdur.

Azərbaycanda kitabxanaşünaslıq məktəbinin perspektivli nümayəndələrindən biri də pedaqoji elmlər namizədi, dosent Xəlil İsmayılovdur. Kitabxanaşünaslıq məktəbinin orta nəslinə mənsub olan X.İsmayılov professor A.Xələfovun rəhbərliyi ilə əyani aspirantura təhsili yolunu keçmiş, "Azərbaycan partiya kitabxanaları Sovet hakimiyyəti illərində (tarixi, müasir vəziyyəti, inkişaf perspektivləri)" mövzusunda namizədlik dissertasiyasını 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin elmi şurasında müvəffəqiyyətlə müdafiə etmişdir. Qeyd etmək yerinə düşər ki, X.İsmayılov professor A.Xələfovun rəhbərliyi ilə xarici ölkədə müdafiə edən ilk aspirant olmuşdur. Dosent X.İsmayılov hazırda professor A.Xələfovun bilavasitə rəhbərliyi altında doktorluq dissertasiyasını da başa çatdırmış və müzakirə üçün kitabxanaşünaslıq kafedrasına təqdim etmişdir. Onun tədqiqat işi Azərbaycan Respublikasında kitabxanaların metodiki təminat sisteminin inkişaf tarixinə həsr olunmuşdur.

Professor A.Xələfovun yaratdığı elmi məktəbin xüsusiyyətlərindən biri də onun kitabxanaşünaslığın bütün problemlərini əhatə edə bilməsidir. Bu baxımdan 80-ci illərdə kitabxanaşünaslığın aktual problemlərindən biri olan kitabxanalarda ayrı-ayrı sahələr üzrə ədəbiyyatın təbliği ilə əlaqədar iş təcrübələrinin öyrənilməsi, əsaslandırılmış tövsiyələrin hazırlanması və praktikada tətbiq edilməsi olmuşdur. Belə maraqlı tədqiqatlardan birinin müəllifi M.Həsənov 1984-cü ildə professor A.Xələfovun rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi almışdır.



Azərbaycan kitabxana-informasiya ehtiyatları sistemində neft sənayesi elmi-texniki kitabxanalarının mühüm yer tutması, onların zəngin iş təcrübəsinə malik olması, həmin kitabxanaların inkişafı və müasir vəziyyətinin müstəqil tədqiqat obyekti kimi öyrənilməsi zərurətinə gətirib çıxarmışdır. Buna görə də professor A.Xələfovun rəhbərliyi altında əyani aspirant Baxşəliyev Zöhrab İsa oğlu "Azərbaycan neft sənayesinin elmi-texniki kitabxanaları: tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda 1989-cu ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, bu sahədə o, hazırda doktorluq dissertasiyası işini davam etdirir.

90-cı illərdə professor A.Xələfovun bilavasitə rəhbərliyi ilə Azərbaycan milli kitabxanaşünaslığının inkişafına qiymətli töhfə olan 5 dissertasiya işini müvəffəqiyyətlə müdafiə edilmişdir.

Bu baxımdan Abbasova Almaz Nüsrət qızının apardığı çoxillik tədqiqatların nəticəsi kimi 1990-cı ildə BDU-nun tarix fakültəsinin ixtisaslaşdırılmış müdafiə şurasında müvəffəqiyyətlə müdafiə etdiyi "M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişafı və təkmilləşdirilməsi perspektivləri (1959-1985-ci illər)" mövzusundakı dissertasiya işini xüsusi qeyd etmək lazımdır.

Dissertasiya işinin başlıca əhəmiyyəti onun respublikamızın baş kitabxanasının tarixinə həsr edilməsi ilə izah oluna bilər. A.Abbasova Azərbaycanda kitabxanaşünaslıq üzrə ilk alimlik dərəcəsi almış qadın ziyalılarımızdan birincisidir. Dissertasiya işinin mövzusu isə Azərbaycan kitabxana-məktəbi üçün yenilik idi. İlk dəfə olaraq konkret kitabxana işi tarixi, fəaliyyətinin zənginləşdirilməsi problemləri dissertasiya işi səviyyəsində işlənmişdir.

Professor A.Xələfovun rəhbərliyi ilə 1991-ci ildə müdafiə edilən namizədlik dissertasiyası "Naxçıvan MSSR-də kitabxana işi (1920-1985-ci illər)" mövzusuna həsr olunmuşdur. Onun müəllifi professor A.Xələfovun aspirantı Aşur Müseyib oğlu Əliyev olmuşdur. A.Əliyev apardığı tədqiqat nəticəsində Naxçıvan MR-də kitabxana işinin tarixi mənzərəsini yaratmağa müvəffəq olmuşdur.

Azərbaycan kitabxanaşünaslıq məktəbinin milli dövlət quruculuğuna, Azərbaycan kitabxanaşünaslığının ideya-nəzəri əsaslarının möhkəmlənməsinə verdiyi töhfələr üzərində ayrıca dayanmaq və həmin dövrü xüsusi bir mərhələ kimi qiymətləndirmək lazımdır. Bu dövr Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, dünyəvi, demokratik dövlət quruculuğuna başladığı son on ildir.

Bu dövrdə professor A.Xələfovun rəhbərliyi ilə Azərbaycan kitabxanaşünaslıq məktəbinin üçüncü - yeni nəsli formalaşmışdır.

Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, son bir neçə ayda professor A.Xələfovun rəhbərliyi ilə üç namizədlik dissertasiyası müvəffəqiyyətlə müdafiə edilmiş, bir neçə dissertant və aspirant isə müdafiəyə hazırlaşır.

Belə maraqlı işlərdən biri Azərbaycanda KAA, onun yaranması və inkişafına həsr edilmiş və 2000-ci ilin dekabr ayında müdafiə edilmişdir. Onun müəllifi prof. A.Xələfovun aspirantı olmuş, hazırda "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının baş müəllimi Məmmədov Mehmanəli Əkbər oğludur. Dissertasiya işinin ən mühüm yeniliyi onun kitabxanaşünaslıqda ilk dəfə olaraq problem səviyyəli məsələyə - kitabxana xidmətinin bir formasına həsr olunmuşdur. Kitabxanaçılıq məktəbinin ən cavan perspektivli nümayəndələrindən biri olan Əhmədov Elçin Yusif oğlu isə respublikanın uşaq kitabxanalarına xidmət edən kitabxanaların tarixini öyrənmiş, bu sahədə müvafiq kitabxanaların fəaliyyətini təkmilləşdirmənin yollarını müəyyən etmişdir. O, dissertasiya işini professor A.Xələfovun rəhbərliyi ilə 2000-ci ilin



dekabr ayında müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

Azərbaycan kitabxanaşünaslıq məktəbinin əldə etdiyi ən qiymətli sonuncu uğurlardan biri professor A.Xələfovun aspirantı Nəcəfov Əlizadə Şamil oğlunun 2001-ci ilin aprel ayında müvəffəqiyyətlə müdafiə etdiyi "Azərbaycan Respublikası DQMV-də kitabxana işinin tarixinə" həsr edilmiş dissertasiya işidir. İlk dəfə olaraq müəllif Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağda kitabxana işinin inkişaf tarixini kompleks şəkildə öyrənmişdir. Onun əldə etdiyi nəticələr, onların dünyada yayılması xalqımızın haqq işi uğrunda mübarizəsində qüdrətli silahlardan biri ola bilər.

Professor A.Xələfovun yaratdığı məktəb bu gün özünün çiçəklənən dövrünü yaşayır. Bu məktəbin uğurlarının başlıca səbəbkarı, əlbəttə, professor A.Xələfovdur. Ümumiyyətlə, Azərbaycan kitabxanaşünaslığının və biblioqrafiyaşünaslığın sahəsində elə bir ciddi elmi hadisə yoxdur ki, burada Abuzər müəllimin rolu, dəsti-xətti olmasın. Bu məktəb Abuzər müəllimin simasında yalnız respublikada deyil, onun hüdudlarından kənarda da məşhurdur. Dünyanın ən qabaqcıl kitabxanaşünaslıq məktəbi hesab olunan Rusiya kitabxanaşünaslarının, Gürcüstan, Özbəkistan, Litva kitabxanaşünaslarının prof. A.Xələfovun müstəsna xidmətləri olduğunu iftixar hissi ilə qeyd edə bilərik. Məhz bunun nəticəsidir ki, Azərbaycan kitabxanaşünaslıq məktəbinin formalaşmasında rus alimlərinin əməyini xüsusi minnətdarlıqla yad etmək lazımdır. Bu əlaqələrin yaranması, müasir səviyyəyə yüksəlməsi məhz professor A.Xələfovun 50 ilə yaxın gördüyü nəhəng işlərin nəticəsidir.

Abuzər müəllimin gördüyü nəhəng işləri düşünən zaman həmişə qulağımıza uzaqdan, çox uzaqlardan bir səs gəlir. Bu ulu əcdadlarımızın səsidir. Sanki onlar əsrlər boyu ulu mədəniyyətimizin bir parçası kimi yaratdıqları "ağ saçlı" kitab və kitabxanalar haqqında gələcək nəsillərə obyektiv kerçəklikləri çatdıran, ali kitabxanaçılıq təhsilinin nəzəriyyəsini və təcrübəsini yaradan görkəmli bir alimə - ustad

müəllimə, müdrik insana bununla minnətdarlıqlarını bildirirlər. Çünki, hər öyrənmək istəyən müəllim deyil, kimdən ki, öyrənirlər əsl müəllim odur.

*Bir müdrik kəlam var: "Yüksək mövqelər böyük* adamları daha böyük, kiçik adamları daha kiçik edir". Doğrudan da Abuzər müəllimin şəxsiyyəti o qədər böyük və əzəmətlidir ki, onun mövqeləri yüksəldikcə, həmişə gözümüzdə böyüyür, zirvələrə yüksəlir.

Biz əminik ki, illər, əsrlər keçəcək Azərbaycan kitabxanaşünaslığının tarixini tədqiq edən gənc bir alim böyük sevgi və sayğı ilə professor Abuzər Xələfovun yaradıcı elmi məktəbindən ürək dolusu söz açacaq, onun əvəzsiz xidmətlərini, tarixi şəxsiyyət olduğunu yüksək qiymətləndirəcək.

Biz də bu minnətdarlığa qoşulur, Azərbaycan kitabxanaçılıq məktəbi və təhsilinin banisi professor Abuzər Xələfova 70 illik yubileyiniz mübarək olsun, Sizə cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq; deyirik.

Azərbaycan kitabxanaşünaslığının inkişaf tarixinin öyrənilməsi göstərir ki, bu sahədə əsaslı elmi-tədqiqat işləri ümumidən xüsusiyə doğru getmiş, tədqiqat obyektlərinin tarixi, inkişafı, müasir vəziyyəti və perspektivləri kompleks tədqiq edilmişdir. Bu da Azərbaycan kitabxanaşünaslıq məktəbinin banisinin yaradıcılıq xüsusiyyətlərindən biridir.

*Tacəddin QULİYEV*
***Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent***

# KİTABXANAÇILIQ TARİXİNİN İLK TƏDQİQATÇISI

Həyatda o insanlar görkəmli şəxsiyyət zirvəsinə yüksələ bilirlər ki, onlar böyük zəhmət, fədakarlıq, ardıcıl, məqsədyönlü fəaliyyət göstərirlər. Bu, yaradıcı işlə məşğul olan, xüsusilə, həyatını elmə həsr edən adamlar üçün daha çətin və əziyyətli olsa da, çox şərəflidir.

Belə şəxsiyyətlərdən biri uzun illərdən bəri eyni kollektivdə çiyin-çiyinə işlədiyim, duz-çörək kəsdiyim, yoldaşlıq və sədaqətlə dostluq etdiyim, kitabxanaşünaslıq kafedrasının müdiri, Birləşmiş Millətlər Təşkilatı (BMT) yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, tarix elmləri doktoru, professor, əməkdar mədəniyyət işçisi, «Şöhrət» ordenli Hacı Abuzər Alı oğlu Xələfovdur.

A.Xələfovun bəxtinə ağlı-qaralı, acılı-şirinli tale payı düşüb. Çətinlikləri də çox olub, uğurları da: xoşbəxtlikdən uğurların, nailiyyətlərin sayı çətinliklərin, əzab-əziyyətlərin sayından qat-qat üstündür.

Aydındır ki, hər bir elmin inkişafı öz taleyini məhz həmin elmə həsr edən istedadlı mütəxəssislərin səmərəli fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Respublikamızda kitabxanaşünaslığın humanitar bir elm kimi müasir inkişaf səviyyəsinə nəzər saldıqda dediklərimizin canlı şahidi oluruq və istər-istəməz bu sahədə işgüzar fəaliyyət göstərən, gecə-gündüz çalışan və əmək sərf edən professor Abuzər Xələfov ilk növbədə yada düşür.

A.Xələfov hələ tələbəlik illərində bu yolda axtarışlar aparmağa böyük həvəs göstərirdi. O, fakültə tələbə elmi cəmiyyətinin (TEC) iclaslarında, ADU-nun və respublika

ali məktəbləri üzrə təşkil olunan elmi konfranslarda dəfələrlə müxtəlif mövzularda, xüsusilə respublikanın qədim kitabxanalarının tarixi və fəaliyyətləri haqqında məruzələrlə çıxış edirdi. Elə həmin illərdə də gənc tədqiqatçının gələcək fəaliyyətinin istiqaməti müəyyənləşmiş və o, ilk dəfə olaraq Azərbaycanda kitabxanaçılıq işinin tarixini, onların iş proseslərini öyrənib tədqiq etməyi və ümumiləşdirməyi qarşıya məqsəd qoymuşdur.

A.Xələfovun bu məqsədi 1955-ci ildə ADU-nu bitirdikdən və onun kitabxanaşünaslıq kafedrası üzrə müəllim saxlanmasından sonra reallaşdı. Belə ki, o, ixtisas fənlərindən mühazirələr deməyə hazırlaşmaqla yanaşı, gələcək tədqiqatçılıq obyekti və mövzusu haqqında da fikirləşirdi və nəhayət, görkəmli tarixçi alim, Azərbaycan EA müxbir üzvü Z.İbrahimovun elmi rəhbərliyi altında «Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ci illər)» mövzusunda namizədlik dissertasiyasını 1961-ci ildə Azərbaycan EA Tarix İnstitutunun elmi şurasında müvəffəqiyyətlə müdafiə etmiş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Həmin dövrdə Azərbaycanda kitabxanaçılıq işinin tarixi ilk dəfə olaraq A.Xələfov tərəfindən tədqiq olunmuş və dərindən öyrənilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, bu dissertasiya Azərbaycanın tarixində kitabxanaçılığa dair müdafiə edilən ilk dissertasiya kimi çox qiymətli idi. Alimin 1960-cı ildə çap etdirdiyi «Sovet Azərbaycanında kitabxana işinin tarixindən» adlı monoqrafiyası həmin dissertasiyanın məzmununu özündə əks etdirən ilk elmi əsərdir.

A.Xələfov sonralar öz elmi tədqiqat işini davam etdirərək, nəinki Azərbaycanda, hətta SSRİ-də kitabxanaşünaslıq sahəsində ilk doktorluq dissertasiyası yazdı və onu 1975-ci ildə müdafiə etdi. O, «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» mövzusunda müdafiə etdiyi bu doktorluq dissertasiyası ilə o dövrlərdə respublikamızda kitabxanaşünaslıq sahəsində elmi-tədqiqat işləri aparılmasının vacibliyini sübut etməklə yanaşı, bu barədə olan mübahisələrə birdəfəlik son qoydu. Bununla da Azərbaycanda ilk dəfə kitabxanaşünaslıq sahəsində ilk fundamental elmi tədqiqatların əsasını qoydu və bu sahədə özünün elmi məktəbini yaratmağa müvəffəq oldu.

Elmi yaradıcılıq diapazonu geniş və çoxsaylı olan professor A.Xələfovun Azərbaycanda kitabxanaçılıq işinin tarixindən bəhs edən və müxtəlif dövrlərdə nəşr edilən əsərlərinin çap olunma xronologiyasına görə yox, tarixin inkişaf etmə xronologiyasına uyğun qısa xülasəsini verməklə alimin bu sahədə nə qədər böyük əmək qoyduğunu və zəhmət çəkdiyini qismən də olsa oxucularımıza çatdırmağı özümüzə borc bilirik.

Professor A.Xələfov kitabxana işinin tarixinə və nəzəriyyəsinə dair bir sıra dəyərli tədqiqat əsərlərinin, monoqrafiyaların, elmi məqalələrin müəllifidir. Ən qədim dövrlərdən indiyə qədər Azərbaycanda kitabxana tarixinin tədqiqi də alimin gərgin və məhsuldar elmi əməyinin bəhrəsi hesab edilməlidir.

Təsadüfi deyil ki, A.Xələfovun kitabxana işinin tarixinə, nəzəriyyəsinə və metodikasına dair çap etdirdiyi 10-dan çox əsərin 4-ü fundamental monoqrafiyadır. Onun onlarla elmi məqaləsi Azərbaycanda kitabxanaçılıq işinin tarixinə həsr edilmişdir ki, həmin əsərlər hazırda geniş kitabxana ictimaiyyətinin müntəzəm istifadə etdiyi vəsaitlər sırasına daxildir.

XX əsrin 60-70-ci illərində mədəniyyətin bütün sahələri kimi, respublikamızda kitabxanaların yaranma tarixi, xüsusilə XIX əsr və XX əsrin əvvəlləri tədqiq edilmiş, həmçinin sovet dövrünə aid fundamental əsərlər yazılmışdır. Lakin Azərbaycanda kitabxana işinin tarixi qədim dövrlərdən XVIII əsrin sonlarınadək tam tədqiq olunub öyrənilməmişdir. Halbuki bu dövrün öyrənilməsinə olduqca böyük ehtiyac vardı.

Bu boşluğu qismən doldurmaq məqsədilə respublikanın kitabxanaşünas alimlərindən professor A.Xələfovun yazmış olduğu və «Bilik» cəmiyyəti tərəfindən «Mühazirə-

Müəllif qədim Albaniya dövlətində əlifbanı, kitabçılığın, kitabxanaların yaranması və inkişaf etməsini, ərəb işğalı dövründə Azərbaycanda islamın qəbul edilməsi nəticəsində məscidlərin və onların nəzdində dini kitabların yaranmasını, dini kitablarla yanaşı dünyəvi ədəbiyyatın toplanması, mühafizə edilməsi, nəsildən-nəslə çatdırılmasında bu kitabxanaların böyük əhəmiyyətini göstərmişdir.

Professor A.Xələfov dini kitabxanaların yaranıb inkişaf etmə tarixi ilə yanaşı, haqlı olaraq orta əsrlərdə Azərbaycanda başqa kitabxanaların da yarandığını elmi faktlarla sübut edərək qeyd edir ki, orta əsrdə Azərbaycanda kitabxana işi əsasən üç istiqamətdə inkişaf edirdi: 1) hökmdarlar tərəfindən təşkil edilən saray kitabxanaları; 2) məscid, mədrəsə və məktəb kitabxanaları və 3) şəxsi kitabxanalar.

Kitabda haqlı olaraq göstərilir ki, hökmdarlar tərəfindən təşkil edilən saray kitabxanaları fondunun tərkibinin müxtəlifliyinə və zənginliyinə görə daha fərqli olmuşdur. Belə ki, «hökmdarlar öz saray kitabxanalarını zənginləşdirmək üçün ölkə daxilində və xarici ölkələrdə olan ən nadir kitabları belə əldə etməyə çalışırdılar. Dövrün ayrı-ayrı alimləri, şairləri tərəfindən hökmdarlara bəxş edilən və hədiyyə kimi gətirilən kitablar da saray kitabxanalarında saxlanılırdı». Onu da əlavə etmək olar ki, saray kitabxanalarının zənginləşdirilməsi üçün ayrı-ayrı hökmdarlar çoxlu pul vəsaiti xərclənməsinə xəsislik etmirdilər və saraylarda yaradılmış emalatxanalarda kitabların üzünün köçürülüb çoxaldılması vasitəsilə saray kitabxanalarının fondu müntəzəm artırdı.

Müəllif göstərir ki, Gəncə sarayında, Şirvanşahlar sarayında, Qarabağ, Şəki və Quba xanlıqlarında, Təbrizdə, Bərdədə və başqa şəhərlərdə zəngin fondu olan kitabxanalar olmuşdur.

Kitabda ilk dəfə Azərbaycanın orta əsr kitabxanalarının tarixi haqqında bəhs olunaraq, ilk Azərbaycan kitabxanası haqqında oxucuya məlumat verilir və bu məlumat özünəqədərki tarixi təxminən 400 il qabaqlayır. Həmədanda IX əsrin əvvəllərində təşkil olunmuş Azərbaycan kitabxanası, heç şübhəsiz ki, ən qədim kitabxana olmamışdır, lakin mötəbər mənbələrə əsaslanaraq bu məlumatın üzə çıxarılması və onun tarixi və yaşayışşünaslıq baxımından deyil, məhz kitabxana tarixi baxımından işlənməsi müəllifin xidmətidir.

Azərbaycan kitabının və dünyanın ən görkəmli alim, şair və yazıçılarının əsərlərinin qorunub saxlanmasında və nəsildən-nəslə çatdırılmasında xüsusi əhəmiyyəti olan şəxsi kitabxanaların yaranma tarixinə kitabda geniş yer verilmişdir.

Kitabda böyük Nizaminin, Xaqaninin, görkəmli alimlərdən Bəhmənyar ibn Mərzanın, Xətib Təbrizinin, Qətran Təbrizinin, şairlərdən Saib Təbrizinin, Qövsi Təbrizinin, Nişat Şirvaninin, Ağa Məsih Şirvaninin, Molla Pənah Vaqifin və başqalarının zəngin şəxsi kitabxanaları olduğu göstərilmişdir.

Kitabda Azərbaycan xalqının ərəb işğalından azad edildikdən sonra, xüsusilə XII-XVIII əsrlərdə elm və mədəniyyətin, sənətkarlığın geniş inkişaf etməsilə əlaqədar kitabçılığın, kitabxanaların, o cümlədən elmi kitabxanaların yaradılması və inkişaf etməsi tarixi geniş verilmişdir. Bu dövrdə Azərbaycanda, xüsusilə Təbrizdə, Gəncədə, Bakıda, Bərdədə, Şamaxıda, Şabranda, Beyləqanda, Naxçıvanda, Ərdəbildə və başqa şəhərlərdə xəttatlığın, kitabçılığın, Təbrizdə və Marağada isə elmi mərkəzlərin və onların elmi kitabxanalarının yaranıb inkişaf etməsinə dair çoxlu qiymətli faktlar gətirilmişdir.

Kitabda Azərbaycanda və eləcə də bütün Şərqdə böyük şöhrət tapmış görkəmli alim Nəsirəddin Tusinin rəhbərliyi ilə yaradılmış Marağa rəsədxanası və onun üzərində olan elmi kitabxana haqqında geniş məlumat verilmişdir.

Şah İsmayılın hakimiyyəti dövründə Azərbaycan mədəniyyətinin, ədəbiyyat və incəsənətin, sənətkarlığın, kitabçılığın, kitabxanaların inkişaf etdirilməsi sahəsində görülən işlər şərh edilmiş və bilavasitə şahın göstərişi ilə Təbriz sa-

rayında yaradılmış kitabxananın və Ərdəbil şəhərində Şeyx Səfi məqbərəsində təşkil edilmiş kitabxananın və başqa kitabxanaların tarixi də kitabda öz əksini tapmışdır.

Professor A.Xələfovun ikinci fundamental kitabı ADU nəşriyyatı tərəfindən 1960-cı ildə nəşr edilən «Azərbaycanda kitabxana işinin tarixindən» (1870-1920) adlanır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf tarixindən bəhs edən bu əsərin giriş hissəsində qədim dünya, Rusiya və Azərbaycan kitabxanaları haqqında da qısa məlumat verilir.

Müəllif haqlı olaraq XIX əsrin sonunda Azərbaycanda mədəniyyətin inkişafını Bakı neft sənayesinin tərəqqisi ilə əlaqəli şəkildə izah edir.

XIX əsrin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər Azərbaycan xalqının mədəniyyətində də öz əksini tapırdı.

XIX əsrin ikinci yarısında, xüsusilə 70-80-ci illərdə inkişaf etməkdə olan yeni mədəniyyətin xarakterik xüsusiyyətləri, demokratik-maarifçilik ideyalarını təbliğ edən ədəbi məktəbin inkişafı, Azərbaycan mətbuatı və teatrının əsasının qoyulması, ədəbiyyat və incəsənətdə xəlqilik ünsürlərinin qüvvətlənməsi və s. mədəni meyllərin yüksəlməsi kitaba, kitabxanaya marağı gücləndirirdi. Bütün bunların nəticəsində Azərbaycanda yeni kitabxanaların yaradılması genişlənmişdi.

Müəllif 1870-ci ildən başlayaraq 1920-ci ilə qədər Azərbaycanda kitabxana işinin tarixini, xüsusilə indiki Bakı mərkəzi şəhər kitabxanasının, görkəmli yazıçı və ictimai xadim N.Nərimanovun təşəbbüsü ilə 1894-cü ildə açılan və sonralar mühüm mədəni-maarif ocağına çevrilən, qısa vaxt ərzində zəhmətkeş kütlələrin və ziyalıların böyük hörmətini qazanan və Azərbaycanın mədəni həyatında böyük hadisə kimi qarşılanan ilk kütləvi kitabxana-qiraətxananın, XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanın qəzalarında: Gəncədə, Şamaxıda, Şuşada, Ordubadda, Nuxada,



Naxçıvanda, Göyçayda, Zaqatalada, Ağdamda və Bakının kəndlərində: Balaxanıda, Sabunçuda, Maştağada, Bayılda, Pirşağıda və digərlərində ayrı-ayrı görkəmli elm, maarif xadimləri, müxtəlif mədəni cəmiyyətlər və ictimai təşkilatlar tərəfindən yaradılmış kitabxanalar, onların kitab fondları, tərkibi, oxucuları və s. haqqında geniş məlumat vermişdir. Müəllifin qeyd etdiyi kimi bu əsəri göstərilən dövrə aid mükəmməl kitabxana tarixi hesab etmək olmazdı. Lakin müəllifin bu ilk təşəbbüsü «gələcəkdə respublikamızda mükəmməl kitabxana tarixi yaratmağın» əsas, ilk, özü də sanballı addımları oldu.

Əsərdə 1905-1907-ci illər inqilabi dövründə Bakıda və onun ətraf rayonlarında fəhlə kitabxanalarının təşkilindən və onların fəaliyyətindən, fəhlələr arasında inqilabi ideyaların təbliğində bu kitabxanaların böyük rolu olduğundan bəhs edilir. Həmin dövrdə Azərbaycanın bir sıra qəzalarında və başqa yerlərdə təşkil olunmuş kitabxanaların tarixinə dair maraqlı məlumatlar verilir. Müəllif Şamaxıda kitabxananın açılmasında Azərbaycanın görkəmli şairləri M.Ə.Sabir və Abbas Səhətin böyük xidmətləri olduğunu xüsusi işıqlandırmışdır.

Bakı şəhərində indi fəaliyyət göstərən Sabir adına mərkəzi şəhər kitabxanasının 1919-cu ilin mart ayında Xəzər sahili istehlak ittifaqı paylarının üzvlük haqqı hesabına yaradıldığı göstərilir. Kitabda verilən məlumatlar 20-ci ildən əvvəl Azərbaycanda kitabxana işinin acınacaqlı vəziyyətini dəlillərlə sübut edir. Müəllif haqlı olaraq göstərir ki, Azərbaycanda kitabxana işi 20-ci illərdən sonra qaydaya düşmüşdür.

A.Xələfov bu əsəri yazmaq üçün bir sıra arxiv materialı və mətbuat üzərində ciddi elmi axtarışlar aparmışdır. İstifadə olunan mənbələrin, gətirilən faktların və rəqəmlərin zənginliyi göstərir ki, əsər uzun illərin zəhməti nəticəsində meydana çıxmışdır.

Professor A.Xələfovun bu əsəri Azərbaycanda kitabxana işinin tədqiq edilib öyrənilməsi sahəsində ilk addımdır.

Azərbaycanda kitabxanaçılıq özünün inkişaf təşəkkülünü məhz XX əsrdə tapmışdır.

Elmin başqa sahələrinə nisbətən respublikamızda kitabxanaçılıq işi 60-cı illərədək tədqiqat obyekti olmamışdır. Ayrı-ayrı kitabxanaların fəaliyyəti haqqında dövri mətbuatın səhifələrində ara-sıra verilmiş məqalələri nəzərə almasaq, heç bir kitab, kitabça nəşr edilməmişdir.

Azərbaycanda kitabxanaların tarixinin tədqiqi professor A.Xələfovun adı ilə bağlıdır. Belə ki, o, kitabxana tarixini özünə tədqiqat obyekti seçmiş, 50-ci illərin sonlarından və 60-cı illərdən kitabxana işinin tarixinə həsr olunmuş ilk elmi məqalələri ilə mətbuatda çıxış etməyə başlamışdır.

A.Xələfovun «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər)» adlı fundamental monoqrafiyasında 1918-1920-ci illərdə yaradılmış Azərbaycan Demokratik Respublikasının 23 ay ərzində gərgin fəaliyyəti nəticəsində əldə etdiyi demokratik ideyaların inkişafına XI Ordu tərəfindən son qoyulması, Azərbaycan Sovet Respublikasının qurulması, totalitar rejimin yaradılması nəticəsində Azərbaycan milli mədəniyyətinin, milli adət və ənənələrin kobudcasına qarşısının alınması, vahid rəhbərliyin, senzura sisteminin yaranması, milli sərvət olan kitabların seçilməsinə və sovet cəmiyyətinin ruhuna uyğun gəlməyən kitabların oxunmasına və kitabxanalarda saxlanmasına qadağalar qoyulması və s. ilə yanaşı mədəni quruculuq sahəsində yeni islahatların keçirilməsinə, yeni məktəblərin, kitabxanaların, qiraətxana və qiraət komalarının, klub və mədəniyyət evlərinin, muzeylərin, savad öyrədən kursların, nəşriyyatların yaradılmasına ciddi səy göstərilməsi geniş təhlil edilmişdir.

İki fəsildən ibarət olan bu kitabın birinci fəslində 1920-1926-cı illərdə mədəni quruculuq işlərinin həyata keçirilməsində görülən ilk dövlət tədbirlərindən, bu tədbirlərin nəticəsində yeni məktəblərin təşkil edilməsi, savadsızlığın ləğvi, yeni əlifbanın qəbulu, mütəxəssis kadrların hazırlanması, yeni nəşriyyatların yaradılması, kitab nəşrinə, xüsusilə dərsliklərin nəşrinə başlanması, yeni kitabxana, qiraətxana və qiraət komalarının yaradılması, onların fondlarının komplektləşdirilməsi sahəsində görülən ilk tədbirlər, bu dövrdə dövlət kitabxana şəbəkəsinin, idarə və təşkilatların, elmi və texniki kitabxanalar şəbəkəsinin, respublika dövlət kitabxanasının yaranıb inkişaf etməsi geniş şərh edilmişdir.

Müəllif ikinci fəsildə göstərir ki, əvvəlki illərdə mədəni quruculuq sahəsində başlanmış bütün işlər: savadsızlığın ləğv edilməsi, kitab nəşrinin, məktəb şəbəkələrinin və mədəni-maarif müəssisələrinin genişlənməsi 1926-1932-ci illərdə də qarşıda duran mühüm vəzifələr idi. Alim haqlı olaraq göstərir ki, bu mühüm vəzifələrə nail olmaq üçün ilk növbədə ölkənin xalq təsərrüfatını hərtərəfli inkişaf etdirmək, təsnifatın bütün sahələrini sənayeləşdirmək, əmək məhsuldarlığını yüksəltmək, sənayedə texnikanı tətbiq etmək, ağır sənayeni hərtəfərli inkişaf etdirmək, fəhlələlrin mədəni səviyyəsini yüksəltmək, texniki bilikləri artırmaq lazım idi.

Respublikada yeddi il ərzində bu sahədə görülmüş bütün işləri alim zəngin arxiv və çap materialları əsasında ümumiləşdirmiş və xalq təsərrüfatının, iqtisadiyyatın inkişafında, respublikanın maddi-texniki bazasının möhkəmləndirilməsində əldə edilmiş nailiyyətləri faktlarla göstərmişdir. Cəmiyyətin inkişafında iqtisadiyyatın mühüm rolunu göstərən alim təhsilin, elmin, mədəniyyətin bütün sahələrinin, o cümlədən kitab və kitabxanaların da böyük rol oynadığını göstərmişdir. Respublikada kitabxana şəbəkələrinin geniş inkişaf tarixi ilk dəfə olaraq A.Xələfov tərəfindən bu monoqrafiyada geniş təhlil edilmişdir.

A.Xələfovun daha bir fundamental monoqrafiyası-«Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» 1974-cü ildə çapdan çıxmışdır.

Əsərdə Azərbaycanda kitabxana işinə rəhbərliyin elmi əsasları, təcrübi metodları izah edilmiş, dövlət və hökumətin

kitabxana işinə qayğısı konkret faktlarla göstərilmiş, kitabda bəhs edilən dövrün bütün mərhələlərində respublikanın şəhər, kənd və rayonlarında müxtəlif tipli kitabxanaların (elmi, texniki, kütləvi və s.) oxuculara xidmətinin qabaqcıl forma və metodları geniş təhlil edilmişdir.

Kitabda Böyük Vətən müharibəsi dövründə kitabxana işinin çoxsahəli fəaliyyəti haqqında geniş məlumat verilir. Müəllif göstərir ki, müharibə həyatımızın bütün sahələrində olduğu kimi, kitabxanaların işində də ciddi çətinliklər yaratmışdır. Bütün bunlara baxmayaraq, müharibənin ağır illərində belə kitabxanalar əhali arasında ideya – tərbiyə, vətənpərvərlik işinin genişləndirilməsində mühüm işlər görmüşdür. Respublikanın kitabxanalarında söhbətlər keçirilir, məruzə və mühazirələr oxunur, görüşlər təşkil edilir, adamlarda qələbəyə inam hissi gücləndirilirdi. Fəalların qüvvəsinə arxalanan kitabxana işçiləri, eyni zamanda elmi nailiyyətləri və qabaqcıl təcrübənin təbliğini də unutmurdular. Müəllif kitabxanalarda müxtəlif mövzulara həsr edilmiş çoxlu söhbətlər aparıldığını, sərgilər təşkil edildiyini, icmallar keçirildiyini və s. bu kimi kütləvi tədbirlərin keçirildiyini faktlarla təhlil edir.

Müəllif monoqrafiyada müharibədən sonra xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi ilə yanaşı, respublikada kitabxanaçılığın da inkişaf etdirilməsi sahəsində görülən işləri təhlil etmiş və zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində kitabxanaların rolunu faktlarla göstərmişdir. Əsərdə müharibədən sonra kitabxanaların sayının artmasına, onların fondlarının daha sürətlə zənginləşməsinə, oxucuların və onlara kitab verilişinin durmadan artmasına və sairə nailiyyətlərə dair çoxlu faktlar verməklə müəllif belə qərara gəlir ki, kitabxana şəbəkəsi və onun fondu nə qədər geniş olarsa, əhalinin kitabxanaya cəlb edilməsi bir o qədər asan və çox olar.

A.Xələfovun adını çəkdiyimiz və çəkmədiymiz sanballı əsərləri qədim dövrlərdən bu günə qədər Azərbaycanda ki-



tabxana işinin çoxəsirlik tarixini, nəzərəiyyəsini və təcrübəsini öyrənməklə onun inkişaf perspektivlərini də müəyyənləşdirir.

Alimin 60-cı illərdən bu günə qədər yazdığı onlarla elmi məqalələrdə Azərbaycanda kitabxanaların inkişaf tarixinin elmi təhlili verilmiş, uzun illər ərzində respublikada bu sahə üzrə əldə edilmiş qabaqcıl təcrübə ümumiləşdirilmiş, müasir şəraitdə kitabxanaların fəaliyyətinin ən münasib problemləri təhlil edilmiş, çap əsərlərindən ictimai istifadənin təşkilini təkmilləşdirmək üçün tövsiyələr və təkliflər irəli sürülmüşdür.

Beləliklə qəti demək olar ki, professor A.Xələfov Azərbaycanda kitabxana işi tarixinin ilk tədqiqatçısıdır. Kitabxanaşünaslıq elminin ilk yaradıcısıdır. Azərbaycanda kitabxana işi tarixi üzrə ilk dərsliklərin, milli kitabxanaşünaslıq dərsliyi və proqramının ilk yaradıcısıdır.

Professor A.Xələfov respublikamızda kitabxanaçılıq təhsilinin təşkilatçılarından biridir. Abuzər müəllimin hazırladığı minlərlə yüksəkixtisaslı kitabxanaşünas-biblioqraf kadrları hazırda respublikamızın müxtəlif guşələrində fəaliyyət göstərən kitabxanalarda, digər mədəniyyət ocaqlarında, habelə ayrı-ayrı rəhbər vəzifələrdə uğurla çalışırlar.

Kitabxanaçılıq fakültəsində çalışan bütün müəllim-alimlər, laborantlar onun yetişdirmələridir.

Professor A.Xələfov bacarıqlı təşkilatçı, yüksək mütəxəssis, ustad, ağsaqqal kimi bütün universitet kollektivinin böyük hörmətini qazanmışdır.

A.Xələfov həm də yaxşı dost və xeyirxah insandır, sözünə bütövdür, təmənnasız, bir «çox sağ ol»a insanların köməyinə çatır, xüsusilə yaratdığı kollektivin hər birinin fərq qoymadan qayğısına qalır. Kollektivdə elə bir adam yoxdur ki, onun hər hansı probleminin yerinə yetirilməsində yardımçı olmasın. Kollektivin hər bir üzvünün sevincini öz sevinci, dərdini öz dərdi kimi qəbul edir və ona əlindən gələn köməkliyi əsirgəmir və demək olar ki, hamısını da müvəffə-

qiyyətlə başa vurur. Elə ona görə də çalışdığı bu kollektiv onu özünün ümid yeri, qayğıkeşi, səmimi dostu və ağsaqqalı hesab edir. Tələbələrin həyat yolunu işıqlandırmaq üçün nə gecə, nə gündüz bilən Abuzər müəllim hər tələbəyə həm müəllim, həm də atadır. Tələbkar olsa da, heç kəsi incitmir. Onların hər bir probleminə qayğı və diqqətlə yanaşır, çalışır ki, onların hər bir arzu və istəyi müvəffəqiyyətlə həyata keçsin.

Mən 40 ildir bunların şahidiyəm. Ona görə də böyük məsuliyyət hissi ilə onları qələmə alıb bir daha təsdiq etməyi özümə borc bildim.

Bu günlər ömrünün yetmişinci pilləsinə qədəm qoyan Abuzər müəllim onu tanıyanların nəzərində müdrik ağsaqqal zirvəsindədir. Onun dəyərli məsləhətləri, faydalı tövsiyələri bundan sonra hələ neçə-neçə gəncin qolundan tutacaq. Bir də inanırıq ki, professor A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafı naminə hələ neçə-neçə illər səmərəli fəaliyyət göstərəcək, öz zəngin elmi-pedaqoji təcrübəsinə əsaslanaraq, kitabxana ictimaiyyətini yeni-yeni elmi əsərləri ilə sevindirəcəkdir.

*Bayram ALLAHVERDİYEV*
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

# SEVİMLİ VƏTƏNDAŞ - ALİM

40 ildən çoxdur ki, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki Abuzər Alı oğlu Xələfovu təkcə müəllim həmkarım kimi yox, dünənki və bugünkü ağsaqqal, nəsillərin fəal və layiqli davamçısı sayır, ürəkdən, candan, səmimi qəlbdən salamlayıb alqışlayıram.

Abuzər Xələfov nəinki 45 ildən çox işlədiyi Bakı Dövlət Universitetində, habelə respublikamızda və onun hüdudlarından kənarda da hörmət-izzətə malikdir.

Bu hörmətin səbəbləri çoxdur. Ən başlıcası Abuzər müəllimin öz kökü üstündə boy atmasıdır. Göyçə mahalının möhtərəm, tanınmış, əsilli-köklü sakini Alı kişinin oğludur. Səfalı dağların qoynunda yerləşən orta məktəbi yüksək müvəffəqiyyətlə başa çatdıran Abuzər Alı oğlu Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirdiyinə, əməksevərliyinə, doğma universitetin ictimai işlərində fəal iştirak etdiyinə görə 1955-ci ildə universitetdə müəllim vəzifəsində ilhamla işləməyə başlayır. Tezliklə elmi-tədqiqat işi sahəsində də məşhurlaşır. Namizədlik və doktorluq dissertasiyası üçün materiallar, faktlar, məxəzlər toplayır. Faktlar təsdiq edir ki, gənc kitabxanaşünas vaxtının çox hissəsini tədris və elmi fəaliyyətə həsr etmişdir. Bu işlərin səmərəsi çox əhəmiyyətlidir. A.Xələfovun namizədlik dissertasiyası «Azərbaycanda kitabxana işinin tarixi (1920-1932-ci illər)» (1961), doktorluq dissertasiyası «Azərbaycanda kitabxana

işinin tarixi (1933-1959-cu illər)» (1975) mövzusuna həsr edilib.

A.Xələfov namizədlik və doktorluq dissertasiyasını çox böyük uğurla müdafiə edib. Hər iki əsəri istər elmi rəhbər və məsləhətçi, rəsmi opponentlər, istərsə də elmi şura üzvləri (namizədlik üzrə elmi rəhbər - Azərbaycan Respublikası EA-nın müxbir üzvü, professor Z.İ.İbrahimov, rəsmi opponentləri - filologiya elmləri doktoru, professor C.X.Hacıyev, tarix elmləri doktoru, professor Ş.Sadıxov və tarix elmləri doktoru, professor E.Məmmədov; doktorluq üzrə məsləhətçi - Azərbaycan EA-nın müxbir üzvü Z.İ.İbrahimov, SSRİ tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor A.Atakişiyev, rəsmi opponentlər - tarix elmləri doktoru, Azərbaycan Respublikası əməkdar elm xadimi M.Y.Vəkilov, tarix elmləri doktoru, professor Z.B.Şıxlınski, tarix elmləri doktoru əməkdar elm xadimi, professor N.A.Paşayev) yüksək qiymətləndirmiş və məmnuniyyətlə səs vermişlər. A.Xələfovun doktorluq dissertasiyası Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, akademik M.A.Dadaşzadənin və Moskva Dövlət Mədəniyyət İnstitutu kitabxanaşünaslıq kafedrasının müdiri, pedaqoji elmlər doktoru, Rusiya Federasiyasının əməkdar elm xadimi, professor K.İ.Abramovun rəyləri elmi şura iclasında böyük maraq doğurmuşdur.

Azərbaycan kitabxana işinin tarixi üzrə ilk elmlər namizədi və doktoru olan A.Xələfov Sovet tarixşünaslığına, mədəniyyət tarixi və mədəni quruculuq nəzəriyyəsinə, habelə kitabxana işi tarixinin elmi metodologiyasına əsaslanaraq Azərbaycanda böyük bir dövr ərzində (1920-1959-cu illər) əhaliyə kitabxana xidmətinin mənzərəsini öz qüdrətli qələmi, dərin zəkası, zəngin dünyagörüşü ilə açıb göstərmiş və elmi cəhətdən əsaslandırılan ümumiləşdirmələr aparmış, dünya kitabxanaşünaslığının nəzəri, tarixi və elmi problemlərinə qiymətli töhfələr əlavə etmişdir.



A.Xələfov hazırda Azərbaycan kitabxanaşünaslığı elmi fikrinin əsas yükünü çəkən, ciddi qayğıları ilə yaşayan görkəmli, həm də ilk və əsas nümayəndədir.

Abuzər müəllim bizim bir çox namizəd və doktorlarımızdan fərqlənərək öz axtarıcılıq işini və zəhmətkeş iş rejimini davam etdirir, sakitləşmir, gənclik həvəsi ilə yazıb-yaradır. İndiyədək kitabxanaşünaslığın müxtəlif sahələrinə, aktual mövzularına, Azərbaycanda kitabxana işi tarixinin əsas problemlərinə dair alimin 150-yə qədər elmi əsəri, monoqrafiyası, dərs vəsaiti, proqramı, metodik vəsaiti və s. çap edilmişdir. Bu əsərlər həm respublikamızda, həm də respublikamızdan kənarda, xüsusilə keçmiş Sovetlər İttifaqının əsas elm mərkəzində, yəni Moskvada buraxılan ixtisas jurnallarında dərc edilmişdir. Alimin «Kitabxana fondunun təşkili» (1958); «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)» (1960); «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» (1961); «Azərbaycanda kitabxana işinin tarixi (1933-1959)» (1974); «Azərbaycanda kitabxana işinin tarixindən» (1986); «Kitabxanaşünaslığa giriş» (1996); «Kitabxana işinin tarixi kursuna giriş» (1996); «Azərbaycanda ali kitabxanaçılıq təhsili» (1998); «Kitabxanaşünaslığa giriş» (2001) və s. kimi iri həcmli dərs vəsaitləri, elmi əsərləri, monoqrafiyaları respublikamızın elmi-pedaqoji ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır. A.Xələfovun bu əsərlərində Azərbaycanda kitabxanaşünaslığın dərin elmi qatları açılır, kitabxana işi tarixinin qədim və qaranlıq sahələrinə işıq salınır. Professor A.Xələfovun əsərlərinin Azərbaycan kitabxana işi tarixi dərinliklərindəki həqiqəti demək, bu tarixin daha bitkin, daha dolğun mənzərəsini yaratmaq baxımından qiyməti misilsizdir, ölçüyəgəlməzdir. Təsadüfi deyildir ki, alimin əsərləri dünya kitabxanaşünaslıq elmində ön mövqedədir.

A.A.Xələfovun kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə ali təhsilli kadrların, alimlərin hazırlanmasında da xüsusi xidməti vardır. O, magistr, aspirant və dokto-

rantlarla rəhbərliyə böyük əhəmiyyət və diqqət verir. Artıq 20-yə qədər yetirməsi dissertasiya müdafiə etmiş, elmlər namizədi alimlik dərəcəsi almışdır.

A.Xələfovun sorağı təkcə Bakıdan deyil, Moskva, Vilnüs, Kazan, Ufa, Daşkənd, Tbilisi, İstanbul, İranın Korqan şəhərlərindən, daha doğrusu, simpozium, konfrans, qurultay və s. kimi beynəlxalq məclislərdən gəlir. Alim 1980-ci ildən 1990-cı ilə qədər Moskvada fəaliyyət göstərən SSRİ-də kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə yeganə doktorluq dissertasiyası müdafiə şurasının üzvü olmuşdur. A.A.Xələfov görkəmli rus alimləri Y.N.Stolyarovun, Y.S.Zubovun və özbək alimi A.Qafurovanın, gürcü alimi Kuraşvilinin doktorluq dissertasiyasına opponentlik etmişdir. Alimin rəyi elmi şura üzvləri tərəfindən rəğbətlə qarşılanmışdır.

Abuzər Alı oğlu BDU-nun elmi, tədris və ictimai işlərində fəal iştirak edir. O, 1962-ci ildən fakültə elmi şurasının, 1970-ci ildən bu günədək tarix fakültəsinin yanında olan doktorluq və namizədlik dissertasiyası müdafiə şurasının üzvüdür.

A.A.Xələfovun ən böyük xidməti BDU-nun kitabxanaçılıq fakültəsinin yaradılması ilə əlaqədardır. O, həqiqətən kitabxanaçılıq fakültəsinin yaradıcısı və qurucusudur. Alim bütün şüurlu həyatının əsas hissəsini fakültənin və fakültə kafedrasının yaradılmasına və inkişaf etdirilməsinə həsr etmişdir.

Abuzər Alı oğlu 25 il fakültənin dekanı olmuş, 1963-cü ildən indiyədək kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsində qeyrətlə çalışmış və böyük hörmət qazanmışdır. O, 1970-1979-cu illərdə ADU-nun elmi əsərlərinin «Kitabxanaşünaslıq və biblioqrafiya» seriyasının redaktoru, 1965-1990-cı illərdə «Kitablar aləmində» jurnalı redaksiya heyətinin üzvü olmuş, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq məsələlərinin bu jurnallarda işıqlandırılmasında gərgin əmək sərf etmişdir.



Respublikamızda keçirilən istənilən tədbirlərdə kitabxanaçılıq fakültəsindən söz düşəndə Abuzər müəllim göz önünə gəlir, Abuzər müəllimdən söhbət gedəndə kitabxanaçılıq fakültəsi elmi ictimaiyyətin diqqət mərkəzinə çəkilir.

Hətta «Abuzər müəllimin fakültəsi» termini yaranmışdır. Bunu mən Abuzər müəllimin əməyinə xalqın verdiyi qiymət kimi səciyyələndirirəm.

Alimin bu ixtisası, bir sahəni necə sevməsini göstərəcəyim bir fakt bunu daha əyani şəkildə təsdiq edəcək. 1996-cı il iyun ayının əvvəlində fakültəyə gəlmişdim. Fakültədə yalnız Abuzər müəllimi öz kafedrasında gördüm, məşğul idi, hətta mənim kafedraya daxil olduğumu verdiyim salamdan sonra bildi. Mən Abuzər müəllimdən soruşdum ki, nə əcəb buradasınız? O mənə dedi: Bayram müəllim, xəbərin yoxdu, bizə tələbə qəbulunu çox azaldıblar, belə getsə fakültə bağlanar, müəllim-işçi heyətinin 50 faizi ixtisara düşər. O, Azərbaycan respublikası Nazirlər Kabinetinə ərizə ilə müraciət etdi və tələbə qəbulunu elə həmin il qaydaya saldı. Bütün zəruri problemlərin dövlət səviyyəsində həllində Abuzər müəllimin xüsusi səriştəsi vardır. Bu cür faktların sayını istənilən qədər artırmaq olar. Dediyim budur ki, professor A.A.Xələfovu heç kəslə müqayisə etmək olmaz, onu yalnız özü ilə müqayisə etmək olar. Abuzər müəllim alim, şəxsiyyət, mədəniyyət qurucusu kimi təkdir, təkrarolunmazdır.

Alimin elm, tədris, tərbiyə sahəsindəki fəaliyyəti Azərbaycan hökuməti tərəfindən yüksək qiymətləndirilmişdir. O, hələ 1969-cu ildə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi adına layiq görülmüş, 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Geniş dünyagörüşə, dərin elmi biliyə, yüksək insani keyfiyyətlərə malik olan professor A.A.Xələfovun həyat yolu çox mənalıdır, nəsillərə nümunədir.

Hörmətli Abuzər müəllim, arzum budur ki, həmişə bu biçimdə, bu qüvvədə, bu işgüzarlıqda və bu təvazökarlıqda olasınız.

İnanıram ki, Siz bundan sonra da elmin və milli təhsilin inkişafı üçün səy və bacarığınızı əsirgəməyəcəksiniz.

Sizi anadan olmağınızın 70, elmi-pedaqoji fəaliyyətinizin 45 illiyi münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, daha səmərəli və uğurlu fəaliyyət göstərməyi arzu edirəm!

*Sərdar QULİYEV*
*Pedaqoji elmlər doktoru, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti pedaqogika kafedrasının professoru*

## ZƏHMƏTKEŞ ALİM

O xalq xoşbəxt xalqdır ki, onun intellektual ziyalıları, düşünən beyinə malik şəxsləri var. Mən böyük fəxrlə deyə bilərəm ki, Bakı Dövlət Universitetində və onun hüdudlarından kənarda bir sıra görkəmli alimlərimizin özünəməxsus məktəbi var. Onlardan biri də hamımız üçün əziz olan professor Abuzər Xələfovdur.

Abuzər müəllim gözəl insan olmaqla yanaşı, həm də bacarıqlı təşkilatçı və zəhmətkeş alimdir. Onun gördüyü bütün işlər dövrümüzün tələblərinə cavab verir. Mən deyərdim ki, belə qiymətli şəxsiyyətlər həyatda ən xoşbəxt insanlardır. A.Xələfovu tanıyanlar, onu bacarıqlı insan və dəyərli alim kimi sevir. Abuzər müəllimin bu böyük nailiyyətlərini qiymətləndirərək ona «70 yaşın mübarək» deyirəm və 100-cü baharını daha böyük uğurlarla qarşılamağı arzulayıram!

*Vəli HƏBİBOĞLU*
***Azərbaycan Milli EA Beynəlxalq Münasibətlər İnstitutunun direktor müavini, fəlsəfə elmləri doktoru, professor***

## ÖYÜNÜLƏSİ ALİM

Xalqımızın ləyaqətli, işıqlı ziyalıları çoxdur. Onlar haqqında düşünəndə, fikir söyləyəndə, özləri ilə görüşüb söhbət etdikdə mənəvi cəhətdən zənginləşirik. Çünki belə ziyalılar xalqın fəxridirlər, ona daim başucalığı gətirirlər.

Təkcə respublikamızda deyil, doğma vətənimizdən çox-çox uzaqlarda tanınan belə ziyalılardan biri haqqında fikir söyləməyi özümə mənəvi borc sayıram.

Tarix elmləri doktoru, professor, əməkdar mədəniyyət işçisi Hacı Abuzər Xələfov xalqımızın, elmimizin yetişdirdiyi qiymətli ziyalılardandır. Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafı, bu sahədə milli kadrların yetişdirilməsi bilavasitə onun adı ilə bağlıdır.

Mən özümü çox xoşbəxt hesab edirəm ki, Abuzər müəllimin tələbəsi olmuşam. Təxminən otuz beş il əvvəl Abuzər müəllim mənə dərs demişdir. Həmin dövrdə respublikamızda kitabxanaçılıq fakültəsinin, eləcə də bu sahə ilə bağlı milli kadrlarla aparılan elmi tədqiqat işlərinin başında duran, Azərbaycanda kitabxana işi ilə bağlı öz məktəbini yaradan Abuzər Xələfov bütün həyatını, sağlamlığını məhz bu sahənin inkişafına həsr etmişdir.

Bir müəllim, ziyalı, şəxsiyyət, alim kimi mən onunla fəxr edirəm.

Abuzər müəllim biz tələbələrin yaddaşında saf, təmiz, sözünə bütöv, qayğıkeş, haqqın tərəfdarı, ədalətli bir insan kimi qalmışdır.

Abuzər müəllim Azərbaycan üçün minlərlə kadr yetişdirmişdir. Onun tələbələrinə hər yerdə rast gəlmək mümkündür. Bu tələbələr indi də öz sevimli müəllimlərini



böyük ehtiramla xatırlayırlar, imkan daxilində görüşüb ondan məsləhət alırlar.

Həyatda qazandığım uğurlarda sevimli müəllimim Abuzər Xələfovun böyük əməyi var. Onun atalıq qayğısı, mehriban nəvazişi, təyinat zamanı mənə göstərdiyi etimad sayəsində bu gün elmdə özümə görə müəyyən yer tutmuşam.

Əziz Abuzər müəllim, icazə verin Sizi doğum gününüz münasibətilə təbrik edim, Sizə həyatda ən böyük nemət olan cansağlığı arzulayım!

Sizin kimi ziyalılarla, ağsaqqal alimlərlə xalqımız həmişə fəxr edir.

Siz Danko kimi ürəyinizi məşəl edib Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafına işıq salmısınız, bu gün də bu işi şərəflə yerinə yetirirsiniz.

Gün o gün olsun ki, Sizi 100 illik yubileyiniz münasibətilə təbrik edək.

Sizi bağrıma basır, ən gözəl arzularımı diləyirəm!

*Zöhrab BAXŞƏLİYEV*
*Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, tarix elmləri namizədi, dosent*

# PROFESSOR A.A.XƏLƏFOVUN ELMİ MƏKTƏBİ

Aqillərimiz haqlı olaraq deyirlər ki, sənətin, peşənin pisi və yaxud yaxşısı olmur, onları işlədənlərin, öz fəaliyyətlərində necə istifadə edənlərin fərqi vardır. Bu deyim bariz nümunəsini Azərbaycanın görkəmli kitabxanaşünas alimi, bu elmin inkişafında əvəzsiz xidməti olan Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, professor A.A.Xələfovun böyük elmi uğurlarında və nailiyyətlərində öz əksini tapmışdır.

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş bir sıra mədəni ölkələrindən fərqli olaraq, Azərbaycan cəmiyyətində bir o qədər də layiq olduğu qiymətini ala bilməyən kitabxana işi və onunla məşğul olan kitabxanaşünaslıq elmi sahəsində professor A.A.Xələfovun hazırda qazandığı elmi nüfuzu digər prioritet fundamental elm sahələrində tək-tək görkəmli alimlər qazanmışlar ki, onları da barmaqla saymaq olar.

Bu böyük nailiyyətlər görkəmli alimin ağır zəhmətinin çoxtərəfli elmi, təşkilatçılıq və ictimai fəaliyyətinin, şəxsi insani keyfiyyətlərinin nəticəsində qazanılmışdır. Bütün bu elmi nailiyyətlər təkcə alimin şəxsi nüfuzunun yüksəlməsinə deyil, daha çox Azərbaycan kitabxanaşünaslıq elmi nüfuzunun yüksəlməsinə səbəb olmuş və onun dünya kitabxanaşünaslıq elminə inteqrasiyasına böyük təsiri olmuşdur. Eyni zamanda bu elmi nailiyyətlərin Azərbaycanda kitabxana işinin elmi əsaslarla inkişafına çox önəmli təsiri vardır.

Keçmiş sovet məkanında kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmi sahəsində öz elmi məktəbini yarat-



mış bir neçə alimdən biri və Azərbaycanda birinci olan görkəmli alim, professor A.A.Xələfovdur.

Məlumdur ki, kitabxanaşünaslıqda elmi məktəbin meydana gəlməsi, inkişafı, fəaliyyət göstərməsi və dağılması problemi dünya elmşünaslığında lazımi dərəcədə tədqiq edilməmişdir. Elmi məktəb haqqındakı sözlər və fikirlər yalnız ayrı-ayrı alimlərin və ali məktəblərin yubileylərinə həsr olunmuş tarixi günlərdə söylənilmişdir. Mütəxəssislərin qeyd etdiyi kimi burada başlıca çatışmayan cəhət odur ki, elmi məktəbə münasibətdə ümumiləşdirilmiş, formalaşdırılmış yanaşma nə kitabxanaşünaslıqda, nə biblioqrafiyaşünaslıqda, nə də sənəd-kommunikasiya istiqamətli başqa elmlərdə vardır. Yeri gəlmişkən qeyd edilməlidir ki, hazırda elmi məktəb anlayışına müraciət olunmasının başlıca səbəbkarı professor A.Xələfovdur. Bu 2001-ci ilin sonunda qeyd olunacaq 70 illik yubileyi ərəfəsində onun elmi məktəbi haqqında yazılan ilk məqalədir. Baxmayaraq ki, alimin elmi məktəbi keçən əsrin 50-ci illərinin sonunda meydana gəlmiş, 60-70-ci illərdə inkişaf edib formalaşmış və artıq 30 ilə yaxındır ki, çox səmərəli fəaliyyət göstərir.

Azərbaycanda kitabxana işinin və kitabxanaşünaslıq elminin inkişafında xüsusi xidməti olan professor A.Xələfovun elmi məktəbi haqqında son illərdə ayrı-ayrı məclis və yubileylərdə ara-sıra qeyd olunsa da, bu elmi məktəb yaradıcısının 50 ilə yaxın bir dövrü əhatə edən elmi, təşkilatçılıq və ictimai fəaliyyəti mütəxəssislər tərəfindən elmi cəhətdən əsaslandırılmış şəkildə geniş ictimaiyyətə çatdırılmamışdır.

Bunun da əsas səbəblərindən biri, qeyd olunduğu kimi elmi məktəbə yanaşmanın tam formalaşmış, bitkin bir meyarının olmamasıdır.

Lakin elmşünaslığın və digər elmlərin təcrübəsi göstərir ki, hazırda elmi məktəbin ən azı altı tipi vardır. Onların əsasında kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində elmi məktəbin statusunu müəyyən etmək olar. Bunlar

malik olduqları statusun yüksəlməsi ardıcıllığı ilə yerləşmişlər. Hər bir növbəti tip özündən əvvəlki tipin əsas əlamətlərini özündə cəmləşdirir. Elmi məktəb şərti olaraq elm-təhsilə və şəxsi elmə bölünür.

1.Elm-təhsil tipli məktəb, ali məktəblərdə pedaqoq-tədqiqatçıların rəhbərliyi ilə gənc tədqiqatçıların hazırlanması üçün nəzərdə tutulmuşdur. Bu hazırlıq tələbələrlə elmi-tədqiqat işinin müxtəlif forma və metodları ilə həyata keçirilir. Bu tip elmi məktəbin əhəmiyyəti çox böyükdür. Bu istedadlı tələbələr üçün elmə vəsiqə verir.

2.Elm-təhsil tipli məktəb, elmi rəhbərdən və onun tələbələrindən ibarət, aspiranturada, doktoranturada onun tələbəsi olub, dissertant yolu ilə dissertasiya müdafiə edənlərdir. Bu, müxtəlif elmlərdə o, cümlədən kitabxanaşünaslıqda nisbətən geniş yayılmış elmi məktəb anlayışıdır.

3.Elmi cəmiyyət məktəbin başçısı ilə - tanınmış alimlərin, konkret elmin hər hansı bir və ya bir neçə bölmələri üçün vacib olan konseptual ideyaların və metodoloji yanaşmanın bölüşdürülməsidir. Məktəb başçısının təsiri ilə, onun təşkilatı, rəhbərliyi altında əksər hallarda bir və ya bir neçə elm daxili problemlərin tədqiqində böyük müvəffəqiyyətlər qazanılır.

4. Elmi yeni stilli fikirlərlə, onun tarixində yeni paradiqma və yeni dövrü (mərhələ) təmin edə bilən elə bir fundamental nəzəriyyə yaratmış istedadlı alim, hamı tərəfindən qəbul edilmiş liderin başçılıq etdiyi elmi cəmiyyət.

5.Əlaqəli elmi fənlərin elmi cəmiyyəti - bu elmi məktəbin lideri - görkəmli alim tərəfindən irəli sürülmüş və işlənmiş ümumi fundamental ideyaların birləşməsi.

Bu elmi ideyalar (nəzəriyyələr) məktəb proqramının əsas məzmununu təşkil edir və əlaqəli elmi biliklər kompleksinin konseptual şəkildə yenidənqurulmasına istiqamətləndirilmişdir.

6.A.Eynşteyn, N.Bor, Ç.Darvin və digər dahi alimlərin elmi məktəbi tipli nəhəng, elmlərarası və ümumelmi



məktəblər. Onların nailiyyətləri cəmiyyətin elmi-texniki tərəqqisinə inqilabi təsir göstərir.

Professor A.A.Xələfovun elmi məktəbi üçüncü tipə uyğun gəlir və dördüncü tipə aydın şəkildə keçməyə meyllidir.

Bu alim üçün əslində dörd əsas tipin hamısı xarakterikdir. Onların arasında alimin elmi məktəbinin özəyini təşkil edən, onun elmi rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə etmiş tələbələridir. Bu günə qədər onun on bir nəfər tələbəsi namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi almışdır. Belə bir göstəriciyə kitabxanaşünaslıq elmi sahəsində keçmiş sovet məkanında yalnız bir neçə alim (professorlar K.İ.Abramov, N.Y.Stolyarov, N.K.Kartaşov, A.Y.Ayzenberq və b.) nail olmuşlar. Zaqafqaziya və Orta Asiya respublikalarının alimləri arasında belə yüksək göstərici yalnız professor A.A.Xələfova məxsusdur.

Respublikada kitabxanaşünaslıq elmi sahəsində, iki elmin qovşağında (07.00.02 və 05.25.03) tarix elmləri namizədi və (13.00.01 və 05.25.03) pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş tədqiqatçıların hamısının elmi rəhbəri professor A.A.Xələfov olmuşdur. Onun rəhbərliyi ilə H.Həsənov, T.Quliyev, E.Bədəlov, M.Həsənov, X.İsmayılov, Z.Baxşəliyev, A.Abbasova, A.Əliyev, M.Məmmədov, E.Əhmədov, Ə.Nəcəfov elmlər namizədi alimlik dərəcəsi almışlar. Hazırda onun rəhbərliyi ilə 2-3 doktorluq dissertasiyası işlənir.

Bunlarla yanaşı professor A.Xələfov təkcə respublikada deyil, keçmiş sovet məkanında kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmi sahəsində 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuş ilk və yeganə azərbaycanlı alimdir.

A.A.Xələfovun elmi məktəbinə təkcə onun rəhbərliyi ilə dissertasiya müdafiə etmiş tələbələri deyil, eyni zamanda respublikanın tanınmış kitabxanaşünas və biblioqrafiyaşü-

nas alimlərini də aid etmək olar. Bunlardan ilk öncə R.Kazımovu, Ə.Rüstəmovu, Z.Əliyevi, B.V.Allahverdiyevi, Ə.Xələfovu, N.İsmayılovu, S.Rzayevi və b.göstərmək olar.

A.A.Xələfov öz yetirmələrinin və tələbələrinin vasitəsi ilə Azərbaycan kitabxanaşünaslıq elminin elmi, nəzəri cəhətdən yüksəlməsinə və dərinləşməsinə nail olmuş, bununla da mənsub olduğu və başçılıq etdiyi elmi məktəbin statusunu daim qaldırmışdır.

Professor A.A.Xələfov ilk dəfə olaraq Azərbaycanda kitabxana işi tarixini elmi əsasda, fundamental şəkildə öyrənməklə kitabxanaşünaslığın elmi metodologiyasına və tədqiqat metodlarına ciddi şəkildə təsir edən yeni elmi ideyalar, fikirlər gətirmiş, qiymətli təklif və tövsiyələr vermişdir. Onun elmi fikir və nəzəriyyələri Azərbaycan kitabxanaşünaslıq elminin inkişafına əsaslı təsir etmiş və sovet kitabxanaşünaslığında onun layiqli yerini müəyyənləşdirmişdir.

Bu günə qədər alimin qələmindən 20-yə qədər kitab və yüzə qədər elmi məqalə çıxmışdır. Azərbaycanda kitabxana işinin inkişaf salnaməsini yaratmış bu kitab və elmi məqalələrlə professor A.Xələfov tarixi kitabxanaşünaslıq tədqiqatı məcrasında kitabxanaşünaslığın mənbə bazası sahəsində fundamental elmi işləmələrin əsasını qoymuşdur.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa edib, demokratik inkişaf yoluna qədəm qoyduğu dövrdən keçən son on ildə professor A.Xələfovun elmi yaradıcılığında və ictimai fəaliyyətində qabarıq nəzərə çarpan amil Azərbaycan kitabxanaşünaslıq elminə dünya kitabxanaşünaslıq elminin tərkib hissəsi kimi inkişafına, onun elmi metodologiyasının və metodlarının bəşəri dəyərlər əsasında formalaşmasına xüsusi diqqət yetirməsidir. Alimin bu problemlər ətrafında yazdığı son kitab və məqalələr öz yeniliyi ilə müasir dünya kitabxanaşünaslığının ümumi durumunu səciyyələndirməyə, mövcud problemlərin həlli yollarını araşdırmağa qiymətli ideyalar verir. Xüsusilə bu baxımdan



A.Xələfovun «Azərbaycanda ali kitabxanaçılıq təhsili» (Bakı, 1998. - 126 s.), «Kitabxanaşünaslığa giriş» Dərslik (3 hissədə) (Bakı, 2001. - 400 s.) kitablarını, «Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal»da (1999-cu il, 2-ci sayda) dərc edilmiş «Müasir kitabxanaların sosial funksiyaları" adlı məqaləni və b. göstərmək olar.

Professor A.A.Xələfov elmi məktəbin lideri kimi təkcə qeyd olunan kitabxanaşünas alimlər yetirməklə, yüksək fundamental elmi-tədqiqat işləri aparmaqla, yeni nəzəriyyə və elmi konsepsiyalar yaratmaqla məhdudlaşmır. O, eyni zamanda yüksək təşkilatçılıq qabiliyyətinə malik böyük ictimaiyyətçidir.

Məlumdur ki, Azərbaycanda ilk yüksəkixtisaslı kitabxanaçı kadrları hazırlayan BDU-nun kitabxanaçılıq fakültəsinin ilk dekanı (25 il) professor A.Xələfov olmuşdur. Azərbaycanda kitabxanaşünaslığın elmi mərkəzi funksiyasını yerinə yetirən alim 40 ilə yaxındır ki, kitabxanaşünaslıq kafedrasına başçılıq edir.

Keçmiş sovet təhsili sistemində beş illik təhsil planı ilə kitabxanaçı kadrların hazırlanmasına Vilnüs Dövlət Universitetindən sonra A.Xələfovun təşəbbüsü ilə BDU-nun kitabxanaçılıq fakültəsi keçmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci ilin sonunda qəbul etdiyi ilk milli "Kitabxana işi haqqında" qanunun layihəsini professor A.Xələfovun rəhbərlik etdiyi işçi qrup işləmişdir.

Azərbaycanda kitabxanaçıların ilk peşəkar birliyi - Azərbaycan Kitabxanaçılar Cəmiyyəti professor A.Xələfovun təşəbbüsü və gərgin zəhməti nəticəsində yaradılmış (1999-cu il) və hazırda onun prezidentidir.

Respublikada kitabxana işinin kompüterləşdirilməsinin elmi və planlı şəkildə aparılmasının ilk təşkilatçısı da A.Xələfovdur. Belə ki, 2000-ci ildə onun prinsipal və ardıcıl fəaliyyəti nəticəsində BDU-nun Elmi kitabxanası və kitabxanaçılıq fakültəsi nəzdində öz rəhbərliyi ilə «Kitabxana-

ların kompüterləşdirilməsi» laboratoriyası yaradılmışdır. Bütün bunlar professor A.Xələfovun təşkilatçılığı və rəhbərliyi ilə həyata keçirilmiş böyük işlərin məhdud bir göstəricisidir.

A.Xələfovu Azərbaycan kitabxana ictimaiyyətinin və kitabxanaşünaslıq elminin lideri kimi xarakterizə edən elmi təşkilatçılıq fəaliyyəti bunlarla məhdudlaşmır. Öz gündəlik elmi yaradıcılıq, elmi təşkilatçılıq, ictimai fəaliyyətinin və ən başlıcası vətəndaşlıq hissinin məsuliyyətini dərindən dərk edən alim daim öndə getməyin çətinliklərinə baxmayaraq yaşının ən müdirik çağında belə cavan həmkarlarına öz prinsipiallığı, işgüzarlığı və əzmkarlığı ilə nümunədir.

Demək olar ki, kitabxanaşünas alim kimi məşğul olduğu elm sahəsində Azərbaycanda və keçmiş sovet məkanında bir sıra birinciliklər professor A.Xələfova məxsusdur.

Belə ki, professor A.Xələfov kitabxanaşünas alim kimi Azərbaycanda ikinci dünya müharibəsi dövrü arxa cəbhədə fəal əməyinə görə "Böyük Vətən müharibəsində (1941-1945-ci illər)" rəşadətli əməyinə görə medal ilə təltif olunmuş ilk şəxsdir.

-Kitabxanaçılıq fakültəsinin ilk dekanı olmuşdur.

-Kitabxanaşünaslıq elmi sahəsində namizədlik və doktorluq dissertasiyası (doktorluq sahəsində hələ ki, yeganədir) müdafiə etmiş və professor olmuş ilk alimdir.

-Kitabxanaşünas alimlər arasında Azərbaycanda və Rusiya Federasiyasında (Sovet dövründə) ixtisaslaşdırılmış müdafiə şuralarının üzvü və rəsmi opponenti olmuş, Azərbaycan kitabxanaşünas alimləri arasında fəxri ad və "Şöhrət" ordeni almış, Azərbaycan kitabxanaşünas alimləri arasında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasına həqiqi üzv seçilmiş, kitabxanaşünas alimlər arasında Azərbaycanda və keçmiş sovet məkanında Məkkə və Kərbəla ziyarətinə getdiyi üçün Hacı, Kərbala titulu qazanmış ilk şəxsdir.



Kitabxanaşünas alim kimi A.Xələfova məxsus olan birinciliklərin sayını artırmaq da olar. Lakin bütün bunlar və digər qeyd olunan keyfiyyətlər imkan verir ki, Azərbaycanda və yaxın xarici ölkələrdə yaxşı tanınmış, kitabxanaşünaslıq sahəsində Azərbaycanda yeganə olan elmi məktəbin lideri kimi onu xarakterizə etsin, kitabxanaşünaslıq elm xadimləri və kitabxana ictimaiyyəti professor A.Xələfovun alimlik və elmi təşkilatçılıq qabiliyyətini qeyd etməklə ictimai fəaliyyətini səciyyələndirsin.

Böyük kitabxanaşünas alimin 70 illik yubileyi ərəfəsində yazılmış bu məqalənin professor A.A.Xələfovun elmi məktəbi haqqında geniş ictimaiyyətə çatdırılması istiqamətində atılmış ilk addım hesab etmək olar. Şübhəsiz ki, alimin növbəti 80, 90, 100 illik yubileylərinə qədər daha sanballı, geniş elmi məqalələr yazılacaq, elmi-tədqiqatlar aparılacaq və kitablar nəşr ediləcəkdir.

*Əşrəf XƏLƏFOV*
*pedaqoji elmlər namizədi,*
*dosent*

# NADİR ŞƏXSİYYƏT, FİTRİ İSTEDADA MALİK TƏDQİQATÇI, ƏSL PEDAQOQ

Abuzər Xələfov kitabxanaşünaslığımızda yarım əsrdir ki, fasiləsiz, aramsız fəaliyyət göstərir. Onun bu fəaliyyəti son dərəcə çoxcəhətli və əhatəlidir. Azərbaycan kitabxanaları tarixinin öyrənilməsinin ən fundamental problemləri və vəzifələri məhz onun tədqiqatlarında öz həllini tapmışdır. Bu əməyə görə müasir Azərbaycan kitabxanaşünaslıq və biblioqrafiya elminin canlı klassiki hesab edilə bilər, o, bu elm sahəsində nəinki kitabxana tarixinin problemlərinin üzərində tədqiqat aparmış, əsərlər yazmış, həm də Azərbaycan kitabşünaslığına bilavasitə rəhbərlik etmiş, onun ideya-təşkilatı vəzifələrinin müvəffəqiyyətli həllinə bütün qüvvə və bacarığı ilə təsir göstərmişdir.

İrimiqyaslı elmi-təşkilat tədbirlərində fəal çalışmışdır. O, respublikada kitabxanaçılığın istiqamətlərini və problemlərini konkretləşdirir, həlli yolları və metodologiyası işlərinə səmərəli surətdə rəhbərlik edir. Bütün fəaliyyətini qırılmaz tellərlə bağlı olduğu Azərbaycanda kitabxana tarixi materiallarının toplanmasına və tədqiqinə sərf etmişdir.

Azərbaycan kitabxanaşünaslıq elminin mötəbər alimi olan Abuzər Xələfovun fəaliyyəti yalnız fakültədəki tədqiqatçılıq əməyi ilə məhdudlaşmır. O, respublika kitabxanalarının həyatında daima fəal iştirak edən alim və ziyalıdır. İndi də ömrünün müdriklik çağında elmi və ictimai fəaliyyətdən uzaqlaşmamışdır. Yenə də eyni şövq-ilham və vətəndaşlıq ehtirası ilə çalışır, fəaliyyət göstərir, aspirant və doktorantlara rəhbərlik edir. Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın və kitabşünaslığın mühüm məsələlərinin müzakirəsində, irimiqyaslı tədbirlərin və proqramların həllinin gerçəkləşməsində fikir və mülahizələri, qənaətləri ilə yaxından iştirak edir, onların həlli yollarını axtarıb tapmasına real kömək göstərir.



Alimin bu çoxcəhətli uzunillik fəaliyyəti barədə düşünəndə bir ziyalı, bir kitabxanaşünas, müdrik şəxsiyyət kimi çox nəcib insani keyfiyyətini, seçdiyi ixtisasa bütün varlığı ilə bağlılığını, xalqımızın milli və mənəvi dəyərlərinə sədaqətini, əqidə və məslək sahibi olmasını qeyd etməyə bilmirsən. O, müsahibələrinin birində demişdir: «Kitabxana təcrübəsində bu qənaətə gəlmişəm ki, kitabxanaşünaslıqda, biblioqrafiyada tutarlı mövqe qazanmaq, ona təsir göstərmək məqamına yüksəlmək üçün, hər şeydən əvvəl möhkəm əqidə, məslək sahibi olmaq gərəkdir. Təkcə bacarıq və istedad həmişə lazımi nəticə vermir. İnsan var ki, mənəviyyatca zəngindir, emosionaldır, ümumən istedadlıdır, ancaq öz daxili zənginliyini günün tələbləri və xalqın ehtiyacları ilə əlaqələndirə bilmir. Əqidəyə, məsləkə möhkəm inam insanı fəallaşdırır, fəaliyyətini istiqamətləndirir, əmək qabiliyyətini artırır, ilhamlı bir yaradıcılığın yaranması üçün zəmin yaradır».

Doğrudan da, sadəcə sözlə Abuzər müəllim kitabxanaşünas tədqiqatçı deyildir. o, bu sənətin, bu fəaliyyətin dərin mənasını başa düşən alimdir. Onun bütün fəaliyyəti, tədqiqatları kitabxanaşünaslıq vəzifələrinə sədaqət hissi ilə aşılanmış yaradıcılıqdır.

Düz yarım əsrdir ki, Azərbaycan kitabxanaşünaslığı sahəsində yorulmadan çalışan tarix elmləri doktoru, professor Abuzər müəllim bütün fəaliyyətini milli-nəzəri fikirlə üzvi surətdə əlaqələndirərək kitabxanaşünaslığın miqyaslı təməl vəzifələrinin realizəsinə sərf etmişdir. O, istinasız olaraq bütün tədqiqatlarında milli kitabxanaşünaslığın əsas köklü problem və vəzifələrinin həllini gerçəkləşdirmişdir.

Abuzər Xələfov kitabxana tarixi proseslərini araşdırarkən, tədqiqat vəzifəsini yalnız konkret materialın ideya-tarixi mənasını göstərməklə məhdudlaşdıran alimlərdən

deyildir. Əksinə, milli kitabxanaların tarixini öyrənərkən əsərlərinin tədqiqat nəticələri və ideyaları ilə eyni səviyyədə bütövlükdə kitabxanaşünaslığı mühüm və miqyaslı nəzəri-metodoloji ümumiləşdirmələrlə zənginləşdirmişdir ki, bu nəzəri ümumiləşdirmələr öz növbəsində müasir kitabxanaşünaslıq elminin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş, onun yeni yollarını müəyyənləşdirmişdir.

O, Azərbaycan kitabxanaçılığının müxtəlif məsələlərinin tədqiqi ilə məşğul olan tarixçi kitabxanaşünasdır. Onun əsərlərində, tədqiqatlarında müasir kitabxanaşünaslıq məsələləri də geniş və əhəmiyyətli yerlərdən birini tutur. Məsələn, «Kitabxanaşünaslığa giriş» adlı ilk dərsliyini qeyd etmək olar. O, demək olar ki, bütün fəaliyyəti boyu kitabxanaşünaslığın müasir problemlərini öz yaradıcılığında dolğun əks etdirmişdir. Onun şəxsində təşkül və düşüncəli bir sənətçini də görürük. O, öz naturası etibarilə müasir universitetin həyatı ilə bağlıdır. Onunla nəfəs alır, universitet təhsili ilə yaşayır. Buna görədir ki, o, uzunillik müəllimlik fəaliyyəti dövründə heç vaxt müasir universitet təhsilinin köklü, aparıcı məsələlərinin və meyllərinin yanından sükutla keçməmiş, uzun müddət universitet partiya təşkilatının və ümumi müdafiə şurasının üzvü olmuşdur. Belə bir cəhət həqiqi pedaqoq-alimə xas mənəvi əsaslardan və keyfiyyətlərdəndir. Məhz belə tipli kitabxanaşünas bütün hallarda kitabxana, biblioqrafiya və kitabşünaslıq tarixinə müasir konseptual baxışı ifadə edir. Bir sözlə, görkəmli alim tədqiqatlarını və fəaliyyətini əsasən bu istiqamətdə aparır və son illərin hadisələri də sübut edir ki, Abuzər müəllimin bu tədqiqat və yaradıcılıq yolu düzdür, səmərəli və perspektivlidir.

S. Vurğun demişkən, «Böyük şəxsiyyətlər yaranır az-az, hər yerdə, hər zaman inci tapılmaz». Belə bir şəxsiyyət kitabxanaçılıq və biblioqrafiya məkanında da parlamışdır. Bu ixtisas üzrə ilk elmlər namizədi, ilk elmlər doktoru, professor, şöbənin fakültəyə çevrilməsinin ilk təşəbbüskarı, banisi, ilk yaradıcısı, ilk dekanı, ilk orden və medallarla təltif olunan şəxsdir.

Niyə və nəyə görə? Ona görə ki, nəcib şəxsiyyətlər kiçik, cılız hisslərlə yaşamır. Xalqın böyük amallarını həyata keçirmək üçün yaşayır və öz ətrafına belə adamları toplayır. Bu amala əks çıxanlarla mübarizə aparır. Yadımdadır, bu fakültəni bağlamaq, ayrı-ayrı fakültələrə parçalamaq istəyən səlahiyyətli şəxslərə qarşı çıxmış və onları yerində susdura bilmişdir.

Fakültədə məhz Abuzər müəllimin sayəsində uzun müddət sağlam, mənəvi əhval-ruhiyyə hökm sürmüş və indi də sürməkdədir. Nəticədə bir kafedradan ibarət olan şöbə fakültəyə çevrilmiş, hazırda dörd kafedra fəaliyyətdədir. İndi fakültənin yükünü, təəssübünü çəkən sahəvi elmlərin fədailərinin yeni gənc nəsli formalaşmaqdadır.

Abuzər müəllimin müsbət mənəvi keyfiyyətlərindən biri də kollektivi yaşatmaq və inkişaf etdirmək üçün, hər biri ilə ünsiyyətdə olmaq, dil tapmaq, qarşı-qarşıya durmağı aradan qaldırmaq hər bir işçinin öz işi dairəsində məsuliyyət hissini aşılamaq bacarığına malik olmasıdır. O deyir: «İnternet, televiziya, informasiyanın müasir vasitələri elmi fəaliyyəti xeyli yüngülləşdirir. Fəqət heç vaxt kitabın funksiyasını əvəz edə bilməz. Kitabı mütaliə etmək, səhifələrini vərəqləmək, mətn üzərində dayanıb düşünmək, fikirləşmək, biblioqrafik göstəricilərin mütaliə mədəniyyətinin formalaşmasında həqiqi rolunu, əhəmiyyətini dərk etdirmək fakültənin hər bir işçisinin müqəddəs borcudur».

Abuzər Xələfovun çoxcəhətli və uzunillik kitabxanaşünaslıq fəaliyyətinin ümumi cizgiləri belədir. Ona bu yolda yeni-yeni uğurlar arzu edirəm!

*Rasim KAZIMOV*
*pedaqoji elmlər namizədi, dosent*

# ABUZƏR XƏLƏFOV AZƏRBAYCAN KİTABXANAŞÜNASLIĞININ BANİSİDİR

Azərbaycanda kitabxanaşünaslıq fikirinin müstəqil elm sahəsi kimi formalaşıb inkişaf etməsi tarix elmləri doktoru, professor, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü Abuzər Xələfovun adı ilə bağlıdır.

Hələ 50-ci illərin sonu və 60-cı illərin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixinə dair bir neçə əsaslı elmi məqalələrin müəllifi kimi tanınmış A.A.Xələfov respublikada ilk namizədlik (1961) və ilk doktorluq dissertasiyası (1975) müdafiə etmiş və elmi ictimaiyyətə ilk dəfə olaraq Azərbaycanın zəngin kitab və kitabxana tarixinə dair qiymətli tədqiqatlar təqdim etmişdir. Bunların içərisində Abuzər Xələfovun «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)», «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» və bir sıra məqalələri 60-cı illərdə Azərbaycanda kitabxana işinin tarixinə həsr edilmiş ilk elmi-tədqiqat əsərləri kimi olduqca qiymətlidir.

*Bu əsərlərdə Azərbaycan mədəniyyət tarixinin mühüm* sahəsi olan kitab və kitabxana işinin tarixinə dair elmi ictimaiyyətə məlum olmayan tarixi fikirlər və hadisələr araşdırılmış, Azərbaycan xalqının zəngin kitab, mütaliə və kitabxana tarixinə malik olması sübut edilmişdir. Məsələn, Abuzər Xələfovun «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)» adlı monoqrafiyasında milli tarixşünaslığımızda ilk dəfə olaraq XIX əsrin axırı və XX əsrin əvvəllərində Azərbaycanda kitab və kitabxanaçılıq fəaliyyətinin inkişaf mərhələləri müəyyənləşdirilmiş, kitabxana işi sahəsində xidmətləri olan görkəmli şəxslər haqqında məlumatlar verilmişdir. Belə ki, bu əsərdə ilk dəfə olaraq Nəriman Nərimanovun XIX əsrin sonunda kitabxanaçılıq fəaliyyəti, 1994-cü ildə yaratdığı kitabxana-qiraətxana haqqında qiymətli məlumatlar verilir.



A.A.Xələfovun 60-cı illərdə apardığı tədqiqatların elmi və ictimai əhəmiyyəti bir də ondadır ki, bu əsərlərdə kitabxana işinin tarixinə dair sovet hakimiyyəti illərində qadağan edilmiş və ictimaiyyətdən gizli saxlanılan, siyasi baxımdan zərərli sayılan bəzi məqamlara aydınlıq gətirilir.

Məsələn, məlum faktdır ki, respublikamız müstəqillik əldə edənə qədər məşhur Bakı milyonçusu Zeynalabdin Tağıyev ədəbiyyatda yalnız istismarçı xalqın təbii sərvətlərini mənimsəyən mürtəce sinfin nümayəndəsi kimi təqdim edilirdi, onun xeyirxahlıq fəaliyyəti ört-basdır edilmişdi. Maraqlıdır ki, A.Xələfov o dövrdə H.Z.Tağıyevin Azərbaycanda kitabxana işi sahəsində maarifçilik fəaliyyətini aşkara çıxarıb göstərməkdən çəkinməmişdir.

A.A.Xələfovun Azərbaycanda XIX əsr və XX əsrin əvvəllərində kitabxana işinin tarixinə həsr edilmiş monoqrafiyasında M.Ə.Rəsulzadənin 1908-ci ildə «İrşad» qəzetində kitabxana işinə dair çap etdirdiyi məqaləyədə isnad etmiş və onu Azərbaycanda kitabxanaçılıq fikrinin araşdırılmasında cürətli bir addım kimi qiymətləndirmişdir.

70-ci illərdə Abüzər Xələfovun ölkədə kitabxana işinin tarixinə dair tədqiqatlarının xronoloji cədvəli daha da genişlənmiş və dərinləşmişdir.

A.A.Xələfovun 70-ci illərdə apardığı çoxşaxəli tədqiqatların nəticələri müəllifin bir sıra elmi məqalələrində ümumiləşdirilmişdir. Onun «Böyük Vətən müharibəsi illərində Azərbaycanda kitabxana işi» (1971), «Kənd kitabxanası: problemlər, təkliflər» (1972), «Müharibədən əvvəlki illərdə Azərbaycanda uşaq və məktəb kitabxanalarının inkişafı» (1972), «1959-1965-ci illərdə Azərbaycanda kitabxana işi» (1974), «Azərbaycan kütləvi kitabxanalar şəbəkəsinin inkişafı» (1975), «Azərbaycanda kitabxana işinin inkişafı» (1977), «Depozitar kitabxanalar» (1978) və b. yazı-

larında ölkədə kitabxana-biblioqrafiya və informasiya proseslərinin elmi-təhlili verilmiş, kitabxanaların əldə etdiyi mütərəqqi təcrübə ümumiləşdirilmiş, əhaliyə kitabxana xidmətində mövcud nöqsanlar və problemlər, onların həlli yolları araşdırılmışdır.

70-ci illərdə Abuzər Xələfovun elmi-tədqiqat fəaliyyətində ən əlamətdar hadisə onun 1974-cü ildə nəşr olunan «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)» adlı monoqrafiyası olmuşdur. Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişafında mərhələ sayıla bilən bu monoqrafiya müəllifin çoxillik zəngin əməyinin nəticəsi olub Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafına qiymətli bir töhfə idi.

Bu sanballı tədqiqat əsərində XX əsrin 30-cu illərinin əvvəllərindən 60-cı illərə qədər Azərbaycanda kitabxana işinin geniş mənzərəsi yaradılmış, əhaliyə kitabxana xidmətinin inkişaf qanunauyğunluqları şərh edilərək, cəmiyyətdə baş verən mühüm kitabxana proseslərinin elmi-analitik təhlili verilmişdir. Monoqrafiyada elmi dövriyyəyə ilk dəfə daxil edilən çoxlu faktik materiallar əsasında sübut edilir ki, bu dövrdə Azərbaycanda kitabxana işinin təkmilləşdirilməsi, bu işin ölkənin sosial-iqtisadi vəzifələrinə uyğunlaşdırılması, ümumilikdə respublikada elmi-texniki tərəqqinin, əhalinin mədəni-mənəvi potensialının inkişaf etməsində çox mühüm rol oynamışdır.

Haqqında bəhs etdiyimiz monoqrafiya Abuzər Xələfovun 1975-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Onu da qeyd edək ki, bu, respublikada kitabxana işi üzrə hələlik ilk və yeganə doktorluq dissertasiyasıdır.

Bundan əlavə həmin tədqiqat bu dövrdə keçmiş SSRİ-də də tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüş ilk dissertasiya əsəri idi.

Təsadüfi deyil ki, A.A.Xələfovun bu əsəri respublikanın görkəmli alimləri, o cümlədən akademiklərdən Məmməd Arif Dadaşzadə, Aslan Aslanov, Fuad Qasımzadə, professorlardan A.Atakişiyev, H.İmanov, Q.Bayramov, eləcə də keçmiş SSRİ-nin məşhur kitabxanaşünas-alimlərindən tarix elmləri doktoru, professor A.Y.Çernyak, K.İ.Abramov bir sıra nüfuzlu elmi kollektivlər tərəfindən yüksək qiymətləndirilmişdir.

80-cı illərdə Abuzər Xələfovun kitabxanaşünaslıq sahəsindəki tədqiqatlarının mövzu dairəsi daha da genişlənmişdir.

Onun 1986-cı ildə nəşr edilmiş «Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdən XVIII əsrin sonuna qədər)» adlı kitabında ilk dəfə olaraq Azərbaycanda qədim kitabxanaların yaradılmasının tarixi kökləri araşdırılmış, orta əsrlərdə Azərbaycanqda kitab və kitabxana mədəniyyətinin inkişaf yolu işıqlandırılmışdır. Bu illərdə onun çap etdirdiyi çoxsaylı məqalələrdə müasir dövrdə Azərbaycanda kitabxana işinin aktual problemləri, əhaliyə kitabxana xidmətinin vəziyyəti, kitabxanaların sosial funksiyaları, onların cəmiyyətin mədəni-mənəvi, elmi-texniki mühiti ilə əlaqəli şəkildə inkişaf etdirilməsinin ümdə vəzifələri, kitabxanaçı kadrların hazırlanması və s. məsələlər şərh edilmiş, elmi tövsiyələr əsaslandırılmışdır. Bu baxımdan onun «Azərbaycan kütləvi kitabxanalarının inkişafı» (1983), «Kitabxana işini günün tələbləri səviyyəsinə» (1986), «Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri» (1986), «Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» (1987), «Azərbaycanda kənd əhalisinə kitabxana xidmətinin təşkili» (1988), «Kitabxana işinin yenidən qurulmasında oxucularda fərdi iş mühüm amillərdindən biridir» (1988), «Azərbaycanda kitabxana işinin nailiyyətləri» (1990) kimi məqalələrində ölkədə kitabxana işinin keçdiyi yol işıqlandırılır, onun müvəffəqiyyətləri təhlil edilir, mövcud problemlər və qarşıdakı vəzifələr göstərilir. Ölkədə kitabxana şəbəkəsinin təşkilinə kitabxana fondlarının formalaşması, müxtəlif oxucu

qruplarına kitabxana xidmətinin müasir problemləri, kitabxanaların idarə olunması və onların metodik təminatı, kitabxanaçı kadrların hazırlanması kimi məsələlər bu məqalələrin əsas mövzu dairəsini təşkil edir. Müəllif respublikada kitabxana işinin müasir vəziyyətindən, ayrı-ayrı kitabxanaların fəaliyyətindən bəhs edərkən eyni zamanda mühüm nəzəri məsələlərə toxunur, yeri gəldikcə onları kitabxana təcrübəsi ilə əlaqələndirib elmi şəkildə ümumiləşdirir.

Ümumiyyətlə, kitabxana işində nəzəri müddəaları kitabxana təcrübəsi ilə vəhdətdə götürüb sistemli şəkildə əlaqələndirmək Abuzər Xələfovun elmi yaradıcılığının ən mühüm səciyyəvi xüsusiyyətlərindən biridir. Cəmiyyətdə baş verən müasir kitabxana proseslərinə tarixi yanaşmaq, təcrübi məqalələri dünya kitabxanaşünaslıq nəzəriyyəsində formalaşdırılmış nəzəri konsepsiyalarla sintezləşdirmək A.A.Xələfovun bütün əsərlərində özünü qabarıq şəkildə göstərir.

Bu baxımdan onun 90-cı illərdə yazdığı kitablar və elmi məqalələr öz orijinallığı və elmi-nəzəri yetkinliyi ilə seçilir. Müəllifin son 10 il ərzində və xüsusən Azərbaycanın müstəqillik əldə etdiyi tarixi şəraitdə yaratdığı konseptual, proqram xarakterli yazıları ölkəmizdə kitabxana işinin keyfiyyətcə yeni ümumbəşəri və milli dəyərlər əsasında inkişafı üçün nəzəri-metodiki zəmin yaratmışdır.

Belə ki, A.A.Xələfovun 1996-cı ildə nəşr etdirdiyi «Kitabxanaşünaslığa giriş» və «Kitabxana işinin tarixi kursuna giriş» adlı kitabxanalarında müasir dövrdə və yaxın gələcəkdə respublikada kitabxana işinin tarixi ənənələrə, əsrlər boyu əldə etdiyi yüksək mənəvi keyfiyyətlərə əsaslanaraq daha da təşəkkül tapmasının mühüm prinsiplər, əhaliyə kitabxana xidmətinin demokratik tələblər baxımından daha səmərəli təşkilinin aktual problemləri işıqlandırılır.

Müəllifin «Kitabxanaşünaslığa giriş» əsərində Azərbaycan kitabxanaşünaslığında ilk dəfə olaraq kitabxanaşünaslıq elminin ümumbəşəri elmlər sistemindəki yeri, mövqeyi, kitabxanaşünaslığın digər elmlərlə, o cümlədən sosiologiya, psixologiya, biblioqrafiyaşünaslıqla sistemli əlaqələri və inteqrasiya prosesləri özünün dərin və fəlsəfi təhlilini tapmışdır.

Sözsüz ki, Abuzər Xələfov tərəfindən belə çox ciddi elmşünaslıq probleminin analitik təhlili Azərbaycan kitabxanaşünaslığının 90-cı illərdə əldə etdiyi mühüm nailiyyət kimi qiymətdəndirilməlidir.

Dünya kitabxanaşünaslığında bu problemin hələ çox zəif işıqlandırıldığını nəzərə alsaq, Abuzər Xələfovun bu tədqiqatının ölkə kitabxanaşünaslığı çərçivəsindən çıxaraq daha geniş elmi-nəzəri əhəmiyyətə malik olduğunu təsdiq etməliyik.

Abuzər Xələfovun 90-cı illərdəki elmi-tədqiqat fəaliyyətində 1997-ci ildə işlədiyi «Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu nəzəriyyə və təcrübəsinin elmi əsasları» adlı məqaləsi xüsusi əhəmiyyət kəsb edir.

Məqalənin başlıca xüsusiyyəti ondan ibarətdir ki, burada müəllif Azərbaycan kitabxanaşünaslığında ilk dəfə olaraq dövlətimizin müstəqillik əldə etdiyi şəraitdə ölkədə kitabxanaşünaslıq elminin və eləcə də kitabxanaçılıq fəaliyyətinin yeni keyfiyyətlərini üzə çıxararaq qarşıda duran vəzifələri müəyyənləşdirir.

Məqalədə siyasi, ictimai və ideoloji sahədə ciddi dəyişikliklərin baş verdiyi müasir dövrdə cəmiyyətdə informasiyanın rolunun artması, insanların informasiya tələbatlarının ödənilməsi, kitabxana işinin yeni siyasi, sosial-iqtisadi, ideoloji proseslərdə formalaşmaqda olan demokratik tələblərə xidmət etməsi problemlərinə toxunulur.

Müəllif məqalədə kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji problemlərinin yenidən tədqiq edilib öyrənilməsi, elmimizin spesifik və milli xüsusiyyətləri, kitabxana işi sahəsində əldə edilmiş ənənələr nəzərə alınmaqla kitabxanaçılığın yeni mütərəqqi müddəalarındakı təcrübəsindən və

ümumbəşəri dəyərlərindən istifadə etməyi ön plana çəkərək, Azərbaycanda kitabxana işinin bünövrəsinin elmi əsaslarla yenidən nəzərdən keçirilməsi zərurətini irəli sürür.

Müasir dövrdə kitabxanaların sosial funksiyaları professor Abuzər Xələfovun xüsusi diqqət yetirdiyi kitabxanaşünaslıq sahələrindən biridir. Bir alim kimi o, cəmiyyətdə kitabxanaların fəaliyyətinin sosial institut kimi həyata keçirdikləri elm, informasiya, mədəniyyət, təhsil, tərbiyə funksiyalarının tədqiqi ilə həmişə məğul olmuş, cəmiyyətdə kitabxanalırn doğru istiqamət almasının nəzəri-metodik bazasını yaratmışdır. Bu baxımdan onun «Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının 1999-cu il 2-ci nömrəsində dərc edilmiş «Müasir kitabxanaların sosial funksiyaları» məqaləsi müasir cəmiyyətdə kitabxanaların fəaliyyətini funksional cəhətdən sistemli şəkildə təhlil etmək nöqteyi-nəzərindən olduqca qiymətlidir.

Kitabxanaşünaslığın çox ciddi və mürəkkəb problemlərindən birinə həsr olunmuş bu məqalədə müəllif kitabxana və cəmiyyət, kitabxana və informasiya, kitabxana və oxucu, kitabxana və kütləvi mütaliə problemlərini dərindən təhlil etməklə müasir cəmiyyətdə kitabxanaların yeri və sosial-ictimai rolunu müəyyənləşdirir.

Bu sanballı tədqiqat əsərində A.Xələfov dünya kitabxanaşünaslığında kitabxananın sosial-ictimai rolunu müəyyənləşdirir. O, kitabxananın funksiyaları haqqında uzun illərdən bəri formalaşmış mübahisəli elmi müddəaları təhlil edərək göstərir ki, «kitabxananı bir institut kimi cəmiyyət yaratmışdır. Onun əsas məqsədi isə cəmiyyətin intellektual, mədəni inkişafına kömək etmək, onu insanların (oxucuların) vasitəsilə təkmilləşdirməkdən ibarətdir. Kitabxanalar cəmiyyətin əsas sosial tələbatını yerinə yetirmək üçün yaradıldığından onların həyata keçirdiyi funksiyalar da sosial xarakter daşıyır».

Daim axtarışda olan Abuzər Xələfovun elmi yaradıcılığında 2001-ci il əlamətdar olmuşdur. Bu il kitabxanaçılıq təhsili tarixində ilk dəfə olaraq onun «Kitabxanaşünaslığa giriş» adlı 2 hissədən ibarət dərsliyi çap olunmuşdur. Bu əsərin meydana gəlməsi, şübhəsiz ki, istər Azərbaycan kitabxanaşünaslığı və istərsə də ölkəmizdə kitabxanaçılıq təhsili tarixində əlamətdar hadisə sayıla bilər. Çünki bu fundamental dərslikdə - monoqrafiyada Azərbaycan Respublikasının müstəqilliyi şəraitində kitabxanaşünaslıq nəzəriyyəsində ümumbəşəri və milli dəyərlərə, eləcə də dünya kitabxcanavşünaslıq nəzəriyyəsinin müstəqil ideyalarına əsaslanan kitabxanaşünaslığın müasir problemləri və metodoloji əsasları ətraflı təhlil edilərək, kitabxanaçılıq fəlsəfəsi yaradılmışdır.

2 hissə və 7 bölmədən ibarət olan bu əsərdə «Kitabxanaşünaslığa giriş» fənninin predmeti, mühüm tərkib hissələri, cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin ictimai mahiyyəti, sosial funksiyalarının ümumnəzəri problemləri sistemləşdirilmiş və ümumiləşdirilmiş bir elmi fənn kimi əks etdirilmişdir.

Burada Azərbaycan kitabxanaçılığında ilk dəfə olaraq dünya kitabxanaşünaslıq fikrinin mühüm inkişaf mərhələləri şərh edilmiş, bununla yanaşı Azərbaycanda orta əsrlərdən başlayaraq müasir dövrə qədər kitabxanaşünaslığın təşəkkülü və inkişafının mühüm mərhələləri tədqiq edilmişdir. Kitabda kitabxanaşünaslığın elmi mahiyyəti, funksiyaları, strukturu, metodologiya və metodikası, digər elm sahələri ilə əlaqəsi, kitabxanaların funksiyaları, tipologiyası və s. məsələlər dərin elmi əsaslarla işıqlandırılmışdır. Dərsliyin ən önəmli xüsusiyyətlərindən biri də kitabxanaçılıq peşəsi haqqında müəllifin düşüncələrinin və mülahizələrinin şərh edilməsidir. Burada müəllif bu nəcib peşənin mühüm xüsusiyyətlərini, cəmiyyətin mədəni-mənəvi inkişafındakı rolunu dərk etmək üçün geniş imkanlar yaradır.

Arzum budur ki, «Kitabxanaşünaslığa giriş» fənninin «Kitabxana işi haqqında təlim» adalanan III hissəsi də ya-

xın gələcəkdə nəşr edilsin və bununla da mühüm elmi fənnin kompleks tədrisinin nəzəri-metodik bazası yaradılsın.

Abuzər Xələfovun 50 illik elmi-yaradıcılıq yolu elm, mədəniyyət və kitabxana ictimaiyyətinin rəğbətini qazanan görkəmli alim-pedaqoqun keçdiyi şərəfli yoldur. Azərbaycanda kitab, kitabxana işi sahəsində nəzəri fikrin müasir nailiyyətləri, bütün mühüm və əlamətdar hadisələri onun adı ilə möhkəm bağlayır.

Hazırda Azərbaycanda Abuzər Xələfovun kitabxanaşünaslıq elmi məktəbinin formalaşması sayəsində bu məktəbin layiqli alim pedaqoqları və gənc istedadlı tədqiqatçıları uğurla fəaliyyət göstərirlər. Bu gün Azərbaycanda kitabxanaşünaslıq sahəsində fəaliyyət göstərən alim və mütəxəssislərin əksəriyyəti Abuzər Xələfovun yetirməsidir

*Sahib RZAYEV*
*Filologiya elmləri namizədi*

# BİR ÖMRÜN POTENSİAL İMKANI

Mənim bu yazım görkəmli professor Abuzər Alı oğlu Xələfov haqqında 45 illik fəal müşahidəmin yığcam salnaməsidir. 1956-cı ilin sentyabr ayı, Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinin kitabxanaçılıq şöbəsi. Birinci və ikinci kursların birləşmiş 50 nəfərlik tələbə auditoriyası. Qarşımızda 25 yaşlı cavan bir oğlan «Kitabxana işinin tarixi» fənnindən mühazirə oxuyur. Baxışlarında, hərəkətlərində ciddi inadkarlıq duyulan, mülayim şəkildə olsa da mübarizlik hissi nümayiş etdirən bu gənc elə həmin dərsdəcə kitabxanaçılıq ixtisasını seçib gələn tələbə qrupu ilə məhrəmanə bir münasibət yarada bildi. Universitet auditoriyasında dinlədiyim ilk mühazirəni oxuyan həmin gənc Abuzər müəllim idi.

Günlər, aylar keçdikcə, biz onun mühazirələrini dinlədikcə, eləcə də şöbənin ictimai həyatındakı fəaliyyətini gördükcə aydın hiss olunurdu ki, o, kitabxanaçılıq ixtisasının əsl fədakarıdır və özünün gələcək taleyini bu ixtisasın taleyində görür.

Hər bir yenilik cəmiyyətdə adətən birmənalı qarşılanmır. O dövrdə yenicə yaranmaqda olan kitabxanaçılıq ixtisası, eləcə də kitabxanaşünaslıq elmi öz inkişafı prosesində müəyyən maneələrlə qarşılaşırdı. Tələbəlik dövründə bunun şahidi oldum. Kənar ixtisas müəllimlərinin məqsədli təsiri ilə bəzən şöbənin tələbələri arasında belə müəyyən narazılıqlar baş verir, hətta universitetin rektorluğunu bu məsələyə qoşulmağa təhrik edirdilər. Belə bir şəraitdə Abuzər müəllimin gərgin fəaliyyəti, ayrı-ayrı yığıncaqlarda kitabxanaçılıq ixtisasının cəmiyyətimiz üçün, Azərbaycan xalqı üçün nə dərəcədə lazımlı olduğunu izah edən məntiqli və təkidli çıxışları da bu maneələrin qarşısını alırdı.

Abuzər müəllim belə bir fikri tez-tez vurğulayırdı: «Respublikada bu ixtisası yaşadıb, inkişaf etdirmək üçün elmi potensiala malik kadrlar lazımdır. Odur ki, biz ciddi çalışmalıyıq». Bu baxımdan Abuzər müəllim özü nümunə göstərir, ciddi şəkildə tədqiqat işləri aparırdı. İnadlı, gərgin zəhmətin bəhrəsi olaraq o, 1961-ci ildə namizədlik dissertasiyası müdafiə edərək, respublikada bu gənc sahənin ilk alimi oldu.

Məlum həqiqətdir ki, həyat yaşamaq və yaratmaq uğrunda mübarizə meydanıdır. Abuzər müəllim bizim hamımızdan daha yaxşı düşünürdü ki, başqa fakültələrin qoltuğunda kirayənişin kimi fəaliyyət göstərən bu ixtisas lazımi inkişafını tapa bilməz. Çox gərgin mübarizə nəticəsində o, kitabxanaçılıq şöbəsinin 1962-ci ildə müstəqil fakültəyə çevrilərək müstəqil mənzilə köçməsinə nail oldu. Kitabxanaşünaslığın əsaslı inkişafı da bu dövrdən başladı.

Abuzər müəllim kitabxanaçılıq fakültəsinin ilk dekanı kimi 25 il işlədi. Bu dövrdə o, həm də kitabxanaşünaslıq kafedrasına rəhbərlik edirdi. Həmin dövrdə Abuzər müəllimin nə dərəcədə gərgin fəaliyyət göstərdiyini təsəvvür etmək çətindir. Bir tərəfdən yeni yaranan fakültəni universitetin digər fakültələri səviyyəsində formalaşdırmaq, digər tərəfdən fakültənin kadr potensialını yaratmaq, ixtisasın elmi istiqamətini müəyyənləşdirərək mövcud elmlərin magistral yoluna qovuşdurmaq, fakültəyə tələbə qəbulunun münasib həcminə, eləcə də ixtisasın beşillik təhsildə qalmasına nail olmaq üçün mübarizələr. Bütün bunlar, mən deyərdim, bir adamın fəaliyyətinin imkanı xaricindədir. Lakin Abuzər müəllim öz gərgin əməyi və ağıllı fəaliyyəti ilə bu işlərin öhdəsindən gələ bilirdi. Bu illərdə Abuzər müəllim özünü ciddi nizam-intizam müdafiəçisi kimi göstərdi. Onun bu keyfiyyəti yaradıb rəhbərlik etdiyi fakültənin müəllim və tələbə heyətinə də tezliklə sirayət etdi. Fakültə bir neçə ilin ərzində formalaşaraq, universitet səviyyəsində qabaqcıllar cərgəsində dayandı. Tədrisin bütün göstəriciləri üzrə müvəffəqiyyət faizi sevindirici oldu. Fakültənin bütün fəaliyyətində Abuzər müəllimin dəst-xətti hiss olunduğu üçün artıq həm universitetdə, həm də universitetdən kənarda «Abuzər müəllimin fakültəsi» ifadəsi işlənməyə başladı.



Fakültədə elmi kadr hazırlanması Abuzər müəllimi ən çox düşündürən məsələlərdən biri idi. O, gənc müəllimlərə, aspirantlara Azərbaycan kitabxanaşünaslığının ən vacib problemlərini araşdırıb, tədqiq etməyi tapşırır, bu işdə əsl istiqamətverici kimi fəaliyyət göstərir. hazırlanmış dissertasiyaların müdafiəsi üçün malik olduğu bütün imkanları sərf edirdi və bu gün də daha böyük səriştə ilə sərf etməkdədir.

1975-ci ildə doktorluq dissertasiyası müdafiə edən Abuzər müəllim həm Azərbaycanda, həm də keçmiş ittifaq miqyasında kitabxanaşünaslıq sahəsində tanınmış bir alim kimi sayılıb seçilməyə başladı. Özü ittifaqın bir neçə tanınmış aliminin namizədlik və doktorluq dissertasiyalarına opponentlik etməklə bərabər, həm də bu sahədə görkəmli rus alimlərinin diqqətini Azərbaycana yönəltməklə onların opponentliyi və müdafiə şurası üzvlüyü sayəsində öz yetişdirmələrinin elmi ad almalarına nail ola bildi.

Fakültənin həyatında Abuzər müəllimin ən çox diqqət yetirdiyi məsələlərdən biri də tələbələr üçün dərslik və dərs vəsaitlərinin hazırlanmasıdır. O, özü isə bu sahədə xüsusi nümunə göstərir. 150-dən yuxarı elmi əsərin müəllifi olan Abuzər müəllim bu günlər respublikada kitabxanaçılıq təhsilinə qiymətli hədiyyə ola biləcək yeni bir kitab «Kitabxanaşünaslığa giriş» adlı iki hissədən ibarət dərslik çap etdirmişdir.

Abuzər müəllim həm elm və tədris sahəsində, həm də idarəçilik işində yüksək təşkilatçılıq qabiliyyətinə malik bir şəxsiyyətdir. Özünün çoxşaxəli fəaliyyəti sayəsində o, bir sıra fəxri və elmi adlara, titullara layiq görülmüşdür.

Bütün titullara və fəxri adlara nail olmaq baxımından Abuzər müəllim bu ixtisasın sahibləri cərgəsində həm sələfləri, həm də müasirləri arasında ilkdir. Azərbaycan kitab-

xanaşünasları sırasında ilk elmlər namizədi, ilk doktor, ilk professor, ilk kafedra müdiri, ilk dekan, ilk əməkdar mədəniyyət işçisi, ilk «N.Krupskaya medalı» alan, ilk «Şöhrət» ordenli, nəhayət, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının ilk müxbir və ilk həqiqi üzvü məhz Abuzər müəllimdir.

Abuzər müəllim özünün bitməz-tükənməz enerjisini gənclik ruhu ilə fakültənin ümumi inkişafına, kadr hazırlığına, bütövlükdə respublikada kitabxanaşünaslığın təşəkkül tapmasına sərf edir.

Abuzər müəllim həyatda bütöv və ardıcıl adamdır. O, bütün fəaliyyətində məqsəd aydınlığına söykənərək, proqramlaşdırılmış istiqamət götürməyi bacarır. Ona görə də qarşısına qoyduğu bütün vəzifələrin öhdəsindən gələ bilir. Bu onun böyük potensial imkanından xəbər verir.

Əvvəldə deyildiyi kimi, gənclik dövründən öz taleyini kitabxanaçılıq ixtisasının taleyində görən Abuzər müəllim bu gün demək olar ki, hər iki taleyi müsbət həll edə bilmişdir. O, kitabxanaçılıq üzrə yetkin bir kollektivi ərsəyə gətirib formalaşdırmaqla bərabər, həm də özünün xüsusi məktəbini yaratmışdır. Bunun müqabilində isə özü həm respublikamızda, həm də keçmiş ittifaqa daxil olan respublikalarda yaxşı kitabxanaşünas alim və təşkilatçı kimi tanınmışdır.

Abuzər müəllim 70 yaşının tamamlanmasını gözləyir. Onun tələbələri və dostları kimi mən də ona gələcəkdə özünün 100 yaşını böyük enerjili həyat eşqi ilə gözləməyi arzu edirəm.

*Əli RÜSTƏMOV*
***Pedaqoji elmlər namizədi, dosent***

# USTAD HAQQINDA BİR NEÇƏ SÖZ

Fars dilindən ana dilimizə keçərək vətəndaşlıq qazanmış "ustad" sözü izahlı terminlər lüğətində "Elm və ya sənət sahəsində geniş və dərin məlumatı və qabiliyyəti olan şəxs" kimi mənalandırılır. Şifahi xalq ədəbiyyatında, xüsusilə aşıq sənətində dastanlar həmişə ustadnamə ilə başlayır. Aşığın öz ustadına ehtiram və minnətdarlıq əlaməti olaraq, müəyyən qoşma və ya dastandan hikmətamiz və nəsihətamiz sözlər müəyyən saz havası ilə oxunur, yaxud söylənilir. Atalar sözündə də ustadlara aid çoxlu zərb-məsəllər vardır. Məsələn, "Ustadına kəm baxan, ruzusunu az görər", "Ustad görən şagird hər addımda yorğalar, ustad görməyəni ordan-burdan qarmalar", "Ustadına kəm baxanın gözlərindən qan damar" və s.

Bütün bu fikirlərdə "ustad" sözü həm də "müəllim", "mənəvi ata", "elm xadimi", "hami" kimi də mənalandırıla bilər. Çünki "ustad" sözü yalnız sənətdə, peşədə deyil, həm də təhsildə və elmdə də geniş məna çalarlarına malik olan sözdür. Bu müstəvidə ustad öz şagirdləri, sonra şagirdlərinin şagirdləri üçün elm, sənət, əxlaq və mənəviyyat, yəni insanlıq genologiyası yaradır. Bu genologiya bir müddətdən sonra şagirdləri ustada çevirir və bu proses uzun tarix boyu davam edir. Məsələn, Lavuazye "məktəb"ində yetişmiş "şagird"lərin xeyli hissəsi elmi genologiyaya uyğun olaraq ustadlarının talant və qabiliyyət genlərini mənimsəmiş, Nobel mükafatı almış, onların "şagird"lərinin xeyli hissəsi bu yüksək elmi mükafata layiq görülmüşdür. Bütün bunlar ustaddan baş alıb gələn və uzun tarix boyu davam edən mənəvi genlərin elmdə nəsildən-nəslə keçməsidir. Lavuazyenin altıncı "nəsli"nin nümayəndələrindən biri, 45 yaşlı

alim İ.Krabs bu yaxınlarda Nobel mükafatı almaq münasibətilə çıxışında demişdir: «Bu mükafatı mən almamışam, ulu babam Lavuaze almışdır. Mükafatı da onun adına yazın». Bu sözlər ustada, onun talant və qabiliyyətinə "yaratdığı məktəb"ə şagirdlərin dərin ehtiram və minnətdarlığının ifadəsidir. Ustad bilik, əxlaq və mənəviyyat bünövrəsini, özülünü düz qoyursa, "bina" da düz tikilir və getdikcə göydələnə çevrilir, zəlzələ və digər təbii proseslər onu uçura bilmir.

Abuzər müəllim də belə bir möhtəşəm "bina"nın özülünü qoyan, nəinki Azərbaycan, həmçinin dünya kitabxanaşünaslığında öz dəst-xətti, nüfuzu, mənəvi və elmi-etik keyfiyyətləri ilə fərqlənən ustaddır. O, öz ömrünü, gecəgündüzünü sərf edərək, uzun əzab-əziyyətlərlə kitabxanaşünaslıq "məktəbi" yaratmışdır. Bu "məktəb"də qabaqcıl, dünyəvi elm və təhsil üzvi şəkildə birləşdirilmiş, yüksək insani dəyərlərlə bəhrələnmişdir. Belə ki, kitabxanaçılıq fakültəsi onun təkbaşına gərgin əməyi sayəsində yaradılmış, kitabxanaşünas alim və müəllimlərin hamısı onun bilavasitə rəhbərliyi ilə yetişmişdir. O, həmçinin 30-35 minlik kitabxanaçılar ordusunun layiqli sərkərdəsidir. Çünki onların hamısı Abuzər müəllimin "məktəb"ində təhsil və tərbiyə almışlar. Onların əksər hissəsi bu "məktəb"in ənənələrinə sadiq qalaraq, elm, təhsil, mədəniyyət və idarəetmə sahələrində öz əməksevərliyi, istedad və qabiliyyəti, yüksək mənəvi və əxlaqi keyfiyyətləri və obyektivliyi ilə fərqlənən şəxslərdir. Minlərlə kadrları buna misal göstərmək olar. Buna görə də Azərbaycan kitabxanaçılıq işini, kitabxanaşünaslıq təhsilini və elmini uca bir binaya bənzətsək - Abuzər müəllim bu binanın həm memarı, həm də özülüdür, - desək, səhv etmərik. Biz bütün fəaliyyətimizdə, o cümlədən elm və tədris işimizdə büdrəyərkən həmişə bu "bina"nın divarlarına söykənmişik. Bu binanın memarı həmişə bizə düz yol göstərmiş, əzab-əziyyətimizi çəkmiş, hətta bir sıra hallarda bizim görməli



olduğumuz işi və bizə qarşı yönəlmiş zərbələrin yükünü öz üzərinə götürmüşdür. Bu, çox böyük fədakarlıqdır.

Abuzər müəllim istedadlı alim olmaqla yanaşı, həm də sözün əsl mənasında yüksək insani keyfiyyətlərə malik olan nadir şəxsiyyətlərdəndir. Belə adamlar haqqında el arasında "əsl kişidir", "əsl insandır" kimi dərin mənalı ifadələr işlədilir. Bu sözlərin hamısı Abuzər müəllimə yaraşır. Çünki o, yaxşı adamların etalonudur. Məsələn, o, heç vaxt bizim yolumuzda sərf etdiyi əməyi, çəkdiyi əzab və əziyyətləri qabartmamış, saysız-hesabsız yaxşılıqları heç vaxt bizim üzümüzə vurmamış, həmişə "bu mənim insanlıq borcumdur" demişdir. Lakin bilənlərimiz yaxşı bilir ki, Abuzər müəllim bizim yolumuzda şam kimi ərimişdir. O, bizim kobudluğumuza, bəzən üzə qayıtmağımıza, irili-xırdalı bütün səhvlərimizə dözmüş, onu böyüdüb xroniki ziddiyyətə çevirməmiş, fakt kimi bizə qarşı istifadə etməmişdir.

Bir hadisə heç vaxt yadımızdan çıxmaz: 70-ci illərin ortalarında cavan vaxtlarım idi. Azərbaycan Elmi-Texniki İnformasiya İnstitutundan universitetə məni Abuzər müəllim gətirmişdi. Bir tədris məsələsi ilə əlaqədar olaraq mən əsəbiləşdim, Abuzər müəllimin üstünə qışqırmağa, yerli-yersiz ağzıma gələni deməyə başladım. Abuzər müəllim sakitcə dayanıb mənə baxırdı. Qonşu otaqdan iki nəfər müəllim qışqırığı eşidib içəri girdi və məni sakitləşdirməyə çalışdı. Lakin mən özümdən çıxmışdım, "işi" davam etdirdim. Abuzər müəllim təmkinlə, çox sakit tərzdə dedi: "Eybi yoxdur, qoy qışqırsın, axırda xəcalətini də özü çəkəcəkdir, əgər insandırsa".

Mən sonralar fikirləşdim və gördüm ki, hər iki halda haqsızam, səhv etmişəm. Doğrudan da xəcalət çəkdim, "dərs"imi aldım.

Mənim və fakültəmizin digər müəllimlərinin, bəzən haqsız olsaq da, səhvlərimiz, kobudluqlarımız olub. Abuzər müəllim bütün bunlara dözmüş, bunları səbrlə, təmkinlə ara-

dan qaldırmışdır. Bu insanın ürəyi kainat boydadır. Bizim bütün acılı-şirinli, yerli-yersiz hərəkətlərimiz bu ürəyə toplanır və sonra da yoluna qoyulur. Buna görə də onun böyük ürəyi həmişə ağır zərbə və yük altında olur.

Abuzər müəllim bütün universitet kollektivi üçün də həmişə belə olmuşdur. Bu bir həqiqətdir ki, 50-ci illərdən sonra işləyən bütün rektorlar mübahisəli, ziddiyyətli və ilk nəzərdə həlledilməz görünən bütün problemləri yoluna qoymaq üçün Abuzər müəllimin köməyindən istifadə etmişdir. Çünki Abuzər müəllim obyektiv bir insan, istedadlı alim və təşkilatçı olmaqla yanaşı, tədris işinin bütün incəliklərini kamil bilən bir müəllimdir. Yaxından tanıdığım ali məktəb işçiləri içərisində tədris işini onun qədər dərindən bilən başqa bir şəxs mənə məlum deyil.

Abuzər müəllim yüksək dərəcədə qayğıkeş insandır. Tələbəlikdən bu günə kimi mən onun yüksək insani keyfiyyətini dəfələrlə duymuşam və görmüşəm. Universitet kollektivinin, o cümlədən fakültənin xeyir-şərində həmişə iştirak edir, köməksizə, dara düşənə, ehtiyacı olana təmənnasız kömək göstərir. Mən özüm də dəfələrlə bu qayğıkeşliyin şahidi olmuşam. Məsələn, 80-ci illərin əvvəllərində balaca bir mətbəx tikdirdiyim üçün onun tikinti materialına görə məni həbs etdirdilər. Abuzər müəllim respublika prokurorluğuna, Mərkəzi Komitəyə qədər hər yerə gedib çıxdı və məni həbs olunmaqdan xilas etdi.

70-ci illərin sonlarında Leninqrada dissertasiya müdafiəsinə getməli idim. Getməmişdən bir neçə gün əvvəl o, məni çağırdı və dedi ki, "uzaq yol gedirsən, bir şeyə ehtiyacın varsa, utanma, mənə de. Mən də sənin böyük qardaşın." Bu səmimi və qayğıkeş sözlər doğrudan da qardaş sözləri idi. Çətin günlərdə doğmalardan başqa, kim bu sözləri deyərdi?! Abuzər müəllim hər birimiz üçün belə qayğıkeş qardaş, mənəvi ata və ustad olmuşdur.

Bu yaxınlarda onun iki aspirantı müdafiə etməli idi. Müdafiə kiçik akt zalında saat 11-ə təyin edilmişdi. Mən



saat 10 radələrində patent işi ilə əlaqədar olaraq rektorluğa gedirdim. Gördüm ki, Abuzər müəllim akt zalının qabağındakı koridorda var-gəl edir. Salamlaşdıq. Dedim ki, müdafiəyə hələ bir saat qalır, nə tez gəlmisiniz? Dedi ki, tez gəldim ki, akt zalını açdıram, səliqə-sahmana saldıram, bir də ki, şura üzvlərindən və Moskvadan gələn qonaqlardan tez gələni olsa, onları qarşılıyam. Heç nə deməmdim. Lakin ürəyimdə ani olaraq fikirləşdim ki, İlahi, bu necə insandır, aspirantlar yuxudadır, bu isə səhər tezdən gəlib müdafiə üçün səliqə-sahman yaradır. Əlbəttə, biz hamımız xoşbəxtik ki, Abuzər müəllim kimi ağsaqqalımız, qayğıkeş mənəvi atamız vardır.

Bir sıra hallarda elmi rəhbərlər aspirantlarını doyunca işlədir, onların yazdığı məqalə və tezislərin əvvəlinə öz familiyasını qoyur və beləliklə də öz "intellektual potensialları"nı artırırlar. Abuzər müəllimin onlarca aspirant və doktorantlarının yüzlərlə əsərlərində onun familiyasının olmasını heç kəs deyə bilməz. O, özü yazır, yaradır. Kitabxanaşünaslıq sahəsində ilk monoqrafiya, ilk dərs proqramı, ilk dərslik, ilk dərs planı məhz onun şərəfli adı ilə bağlıdır. O, ahıl çağında da yorulmaq bilmir, bizim hamımız üçün yalnız insanlıq sayəsində deyil, elmi yaradıcılıq sahəsində də əyani nümunə göstərir. Son 5 ildə onun üç sanballı monoqrafik kitabının, iki dərs proqramının, beş adda məqaləsinin, üçcildlik dərsliyinin nəşr edilməsi deyilən fikri təsdiq edə bilər. Çünki o, başqalarına tələbkar olduğundan daha çox özünə qarşı tələbkardır. Tələbkarlıqla qayğıkeşliyi özündə birləşdirən müəllim isə əvəzedilməzdir, Abuzər müəllim kimi!

Abuzər müəllim həmişə keçmişlə müasirliyi və gələcəyi üzvi şəkildə əlaqələndirmək qabiliyyəti olan, fakültə kollektivini daim irəli getməyə səsləyən şəxsiyyətdir. Bu cəhətdən o, M.Qorkinin "İzergil qarı" hekayəsindəki Danko surətinin həyatda real təcəssümüdür. Danko qaranlıq meşədə yol azan və məhv olmaq təhlükəsinə məruz qalan insan kütləsini xilas etmək üçün özünü qurban verir, ürəyini çıxarıb on-

lara verir. Bu ürək məşələ dönüb yanmağa başlayır. İnsanlar bu məşəlin işığı ilə yolu tapır və ölümdən qurtulurlar. Abuzər müəllimin ürəyi də həmişə bizə məşəl olmuşdur. Onun vasitəsilə biz həyatda düzgün yol tapıb, durmadan irəliyə getmişik. Məsələn, avtomatlaşdırılmış informasiya texnologiyaları kitabxanaçılıq təhsilinə ilk dəfə 70-ci illərin əvvəllərində Abuzər müəllimin təşəbbüsü ilə tətbiq edilmişdir. O, bu fənlər kompleksini SSRİ-də ilk dəfə tətbiq edən Vilnüs Universitetinə getmiş və tədris planını onlardan gətirmişdir. Bunun nəticəsində riyazi və texniki fənlərlə yanaşı, "İnformatika" da Azərbaycanda tarixən ilk dəfə bizim fakültədə tədrisə daxil edilmişdir. Digər bir fakt: müasir şəbəkə informasiya texnologiyalarının kitabxanalar üçün perspektiv əhəmiyyətini dərindən başa düşən Abuzər müəllim ilk növbədə "İnformatika" fənlər kompleksinin yeni konsepsiyasının tədris planına daxil edilməsinə nail olmuş, bu aspektdə bizə dərs proqramı və dərslik hazırlamağı tapşırmışdır. Bütün bunlarla kifayətlənməyəcək o, respublikada ilk dəfə "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyası yaratmışdır. O, bu laboratoriyaya müvəffəqiyyətlə rəhbərlik edir. Bu laboratoriya internetlə əlaqələndirilmiş və klient-server arxitekturasında kitabxana-informasiya bazasının yaradılması probleminin həlli sahəsində əhəmiyyətli işlər görmüşdür. Elmi yeniliyi vaxtında başa düşmək və onun üçün tədris-təşkilatı və elmi zəmin hazırlamaq baxımından da Abuzər müəllim dünyanın nəhəng elm dühaları ilə bir sırada dayanmağa layiq olan adamdır. Səmimi deyirəm ki, sayılıb-seçilən Abuzər müəllim kimi dahi alimlərin gərgin elmi əməyi və ölçüyə gəlməyən istedadı sayəsində kitabxanaşünaslıq Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademik informasiya elmləri kompleksinə daxil edilmişdir. Abuzər müəllim respublikadan həmin akademiyaya həqiqi üzv seçilmiş ilk alimdir. Buna onun tam mənəvi haqqı vardır.



Orta və ali məktəb müəllimlərinin müəyyən hissəsinə xas olmayan "təmizlik", "kristallıq" ölçüləri etalon kimi sanki Abuzər müəllimin "boyuna biçilmiş", sonra həyata vəsiqə almışdır. İstər dərs dediyi minlərlə tələbələri, istər aspirantları, istər müəllimlər, istərsə də onu yaxından tanıyan bütün adamlar deyə bilməz ki, o, kimdənsə bir təmənna ummuş olsun. Onu sevməyən, irsən öz daxili aləmi qaranlığa bürünmüş şeytanabənzər bəzi adamlar da etiraf edirlər ki, Abuzər müəllim tər-təmiz, əməlisaleh adamdır. Bu keyfiyyətinə görə dəfələrlə tələbə qəbulu komissiyasına və rüşvət amili mümkün olan bir sıra ictimai işlərə rəhbərlik etmişdir. Çoxlarımızın ailələrinin, uşaqlarının və yaxın qohumlarının təhsil almasında Abuzər müəllimin yaxından köməyi olmuşdur.

Yüksək mənəvi keyfiyyətləri olan insan kimi, elmi və ictimai xadim kimi Abuzər müəllim haqqında çox danışmaq olar. Lakin bir fikri vurğulamaq istərdik ki, kitabxanaçılıq-informasiya fakültəsinin, eləcə də respublikanın böyük kitabxanaçılar ordusunun bütün ağırlığı, dərd-səri bu nəhəng şəxsiyyətin çiyinləri üstündə dayanır. Biz yalnız və yalnız bu çiyinlərin üstündə varlığımızı qoruyub saxlaya, gələcəyimizi aydın görə və pərvazlanıb aydın səmaya uça bilərik. Çünki bu kamil şəxsiyyət 70 illik ömrünün 50 ilini kitabxanaçılıq fəaliyyətinin bütün sahələrinin formalaşmasında, sürətlə inkişaf edib indiki yetkin səviyyəyə çatmasında, nəinki respublikada, həm də MDB məkanında bacarıqlı mütəxəssislərin, istedadlı alimlərin və bir çox nəsillərin yetişməsində əvəzsiz töhfələr vermişdir. O, bütün həyatı boyu özü üçün yaşamamışdır. Kimliyindən, hansı rayondan gəlməyindən asılı olmayaraq o, insanların şüurunda, ağlında və ürəyində insanlıq və kamillik çırağı yandırmışdır.

Mən ustad haqqında çox yaza bilərdim. Lakin çoxlarının fikrini, istəyini ifadə edərək demək istəyirəm: Abuzər müəllimi saysız-hesabsız xeyirxah əməlləri və yaratdığı dəyərli,

zəngin elm xəzinəsi onu əsrlərlə yaşadacaq və gələcək nəsillərin ürəyində ədəbi olaraq heykəlləşdirəcəkdir.

*Biz nadir şəxsiyyətləri qorumalıyıq, onlara sağlığında* qiymət verməliyik ki, ömürləri daha da uzansın. Çünki onlar olmasaydı, dünya boş, qaranlıq və mənasız görünərdi.

*Mayıl HƏSƏNOV*
*Tarix elmləri namizədi,*
*dosent*

# GÖRKƏMLİ KİTABXANAŞÜNAS-ALİM

Mədəniyyətimizin ən zəngin mənbələrindən birini təşkil edən kitabxana işi haqqında söhbət açmaq, söz demək həmişə bizdə qürur hissi yaradır, keçmiş irsimizin ən gözəl nümunələrini, abidələrini yada salır, xatırladır. Bu sahədə BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, görkəmli alim, əməkdar mədəniyyət işçisi, professor A.A.Xələfovun fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Belə ki, kitabxana işinin elə bir sahəsi yoxdur ki, onun haqqında öz dəyərli fikirlərini, mülahizələrini, elmi tövsiyələrini söyləməsin, dərin, hərtərəfli ümumiləşdirmələr aparmasın, fakültədə keçilən fənlərin yeniləşdirmə perspektivlərini zənginləşdirməsin, elmi potensialını, tədris keyfiyyətini təkmilləşdirməsin. Bu işgüzar şəxsiyyətin fəaliyyətini dəyərləndirmək, əsl qiymətini vermək hər bir kitabxanaşünasın, kitabxanaçının, mədəni irsimizi sevən, onu qoruyan hər bir ziyalının mühüm vəzifəsidir.

Burada mədəni irsimizin əsas tərkib hissəsini təşkil edən milyon nüsxələrlə kitabxana fondlarının yaranması, inkişafı, formalaşması, mühafizəsi, təşkili, istifadəsi, idarə edilməsi sahəsində professor A.Xələfovun apardığı tədqiqat işləri bir fondşünas kimi yüksək səviyyədə qiymətləndirilməlidir.

O, hələ qədim dövrlərdən başlayaraq son illərə qədər kitabxana fondunun geniş inkişaf xarakteristikasını vermiş, konkret nümunələr, faktlar əsasında təhlil etmiş, maraqlı elmi nəticələrə gəlmişdir. Belə bir tarixi dövrdə kitabxana fondlarının ponoramasını yaratmaq, inkişaf istiqamətlərini ümumiləşdirmək, dövrün ictimai, siyasi, mədəni hadisələri ilə əlaqəli işıqlandırmaq tədqiqatçıdan böyük zəhmət, əmək,

işgüzarlıq, müntəzəm yaradıcılıq işi və elmi axtarışlar tələb edir.

A.A.Xələfovun kitabxana fondları haqqında nəzəri və praktik fikirləri sadəcə fondların sadalanmasına əsaslanmır, xüsusən onların kitab verilişində, mütaliə işində rolunu geniş surətdə xarakterizə edir, açıqlayır.

A.A.Xələfov fondun miqdarca artım səmərəliliyini onun istifadəetmə optimallığı ilə müəyyənləşdirir və konkret faktlar əsasında təhlil edir.

A.Xələfov kitab sərvətinin cəmiyyətin mədəni həyatında tutduğu mövqeyi təhlil edir, yaranmış hər bir fondun zəruriliyini, əhəmiyyətini qeyd edir, bu sahədə çalışan kitabsevərlərin əsl zəhmətini qiymətləndirir. O, insanları kitab sərvətinin, mədəniyyətin yaradıcısı hesab etməklə yanaşı, fondların formalaşmasını cəmiyyətin inkişaf prosesinin mühüm tərkib hissəsi kimi qiymətləndirmişdir. Belə ki, kitabxana fondu yalnız cəmiyyətin mövcudluğu prosesində yaranır, inkişaf edir və insanlarda yüksək mənəvi keyfiyyətlər, əxlaqi davranışlar, elmə, biliyə, mədəniyyətə yiyələnmək vərdişləri yaradır. Məhz bu baxımdan görkəmli alim A.Xələfov tərəfindən respublikamızın kitabxanalarında toplanan milyon nüsxələrlə kitab sərvəti haqqında geniş təsəvvür yaratmaq, zəngin mədəni irsimizi oxucuların nəzərinə çatdırmaq ən mühüm nailiyyətlərdən biri hesab edilməlidir. Bu sahədə A.Xələfovun zəngin irsi, dəyərli mülahizələri, elmi ümumiləşdirmələri bir sıra qiymətli əsərlərində geniş əks olunmuşdur.

Maraqlı cəhət burasındadır ki, A.A.Xələfov öz tədqiqat işini hələ qədim dövrdə və orta əsrlərdə yaranan şəxsi kitabxanaların təhlili ilə başlamışdır. Bu dövrlərdə müəllif mövcud olan xeyli miqdarda şəxsi kitabxanaların fəaliyyətindən bəhs edərək fondun təşkilinə və idarə edilməsinə xüsusi diqqət yetirmiş, fondların yaradıcılarının (kitabdarların) fəaliyyətini yüksək qiymətləndirmişdir. Məlum olduğu kimi, o dövrdə şəxsi kitabxanalar ayrı-ayrı adamların zəhməti hesabına yaradılmışdır. Belə məşhur kitabdarlardan biri də Rəşidəddin Fəzlullah olmuşdur. A.A.Xələfov bu barədə ətraflı bəhs etmişdir. O, "Azərbaycanda kitabxana işinin tarixindən" (1986) adlı əsərində göstərir ki, görkəmli tarixçi Rəşidəddin Fəzlullah (1248-1318) Rəbi-Rəşididə şəhərində 60000 kitab və əlyazmaya malik olan böyük bir kitabxana yaratmışdır. Görkəmli kitabdar Rəşidəddin İrandan, Turandan, Misirdən, Qərbdən, Rumdan, Hindistandan və başqa ölkələrdən böyük miqdarda kitablar gətirtmişdir. Kitabxanada min cilddən yuxarı olduqca nadir nüsxələr və qiymətli əlyazmalar toplamışdır. Bu da onu göstərir ki, Rəşidəddin fondun yaranmasında, idarə edilməsində ən qiymətli əsərlərin əldə edilməsinə böyük səy göstərmişdir. Gözəl bir tədqiqatçı kimi A.A.Xələfov bu məsələləri dərindən öyrənib, təhlil edib şəxsi kitabxanaların təşkili haqqında zəngin təsəvvür yaratmışdır.

Professor A.Xələfovun Marağa rəsədxanasının kitabxanası haqqında yazıları daha çox diqqəti cəlb edir. Bu kitabxana fondunun yaradılmasının təşkili və idarə edilməsi haqqında apardığı tədqiqat işləri xeyli maraq doğurur. Tədqiqatçı alim bu kitabxana fondunun yaradılmasını, təşkilini və idarə edilməsini konkret faktlarla izah edir və bu sahədə Nəsirəddin Tusinin rolunu yüksək qiymətləndirir. Bu heç də təsadüfi deyildir. Tarixi mənbələrdə qeyd edilir ki, kitabxananın işinə Nəsirəddin Tusi özü rəhbərlik etmişdir. O, 400000 nüsxəyə malik olan kitabxana fondunun elmi əsaslar üzrə qurulmasına mühüm təsir göstərmişdir. Bu da ondan irəli gəlmişdir ki, Nəsirəddin Tusi Şərqin bir sıra böyük şəhərlərində kitabxanalarla tanış olmuş və Marağa rəsədxanasının kitabxana fondunun zənginləşməsinə, təkmilləşməsinə, elmi potensialının yüksəlməsinə ciddi təsir göstərmişdir. A.A.Xələfov kitabxana fondunun yaradılması ilə bağlı olan bu və digər xüsusiyyətləri təhlil etmiş, kitabxananın yaradıcısı, təşkilatçısı kimi Nəsirəddin Tusinin fəaliyyətini, zəhmətini yüksək qiymətləndirmişdir.

Bunlarla yanaşı A.Xələfov qədim dövrdə və orta əsrdə yaranan bir sıra kitabxana fondlarının yaradılması, təşkili, idarə edilməsi haqqında da geniş tədqiqat işi aparmış, qiymətli fikirlər söyləmiş, zəngin ümumiləşdirmələr əldə etmişdir. Bu fikirləri Təbriz kitabxanasının, Sultan Yaqubun, Şah İsmayılın kitabxana fondlarına aid etmək olar.

Professor A.A.Xələfovun kitabxana fondunun yaradılması, inkişafı və idarə edilməsi problemlərinin izahını, təşkilini və ümumiləşdirilməsini XX əsrdə apardığı tədqiqat işində daha geniş müşahidə etmək olar. Burada ictimai, dövlət kitabxana fondlarının təhlili xüsusi yer tutur. Görkəmli alimin demək olar ki, bütün əsərlərində ictimai, dövlət kitabxana fondlarının işıqlandırılması, təhlil edilməsi geniş şəkildə özünü göstərir. Belə ki, onun müxtəlif illərdə çap olunmuş «Azərbaycanda kitabxana işinin tarixindən: 1870-1929» (1960), «Azərbaycanda kitabxana işinin tarixi: 1933-1958 (1974)», «Azərbaycanda kitabxana işinin tarixindən» (Qədim dövrlərdən başlamış XVIII əsrin axırlarınadək) (1986)», «Kitabxana fondu təşkilinin bəzi məsələləri» (1958), «Sovet Azərbaycanında kitabxana işinin tarixindən» (1961) adlı sanballı əsərlərində respublikamızda fəaliyyət göstərən kitabxana fondlarının inkişafı, formalaşması və idarə edilməsi geniş təhlil olunmuş və ümumiləşdirilmişdir. Burada xüsusən bir cəhəti qeyd etmək lazımdır ki, müəllif respublikamızda bütün kitabxana şəbəkələrinin (elmi, kütləvi, xüsusi, uşaq və s.) habelə ayrı-ayrı kitabxanaların (M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, Azərbaycan Respublikası MEA Mərkəzi Elmi kitabxanası, Bakı Mərkəzi şəhər kitabxanası və s.) fondlarını tarixi baxımdan təhlil etmiş, xarakteristikasını vermiş, elmi tövsiyələrini, mülahizələrini irəli sürmüşdür.

A.A.Xələfov respublikamızda kitabxana fondlarından bəhs edərkən onları sadəcə sadalamamışdır, tarixi baxımdan dövrlər üzrə onların vəziyyətini təhlil etmiş, mühüm nəticələr çıxarmışdır. O, göstərir ki, respublikamızda kitabxana fondlarının inkişafı və formalaşması bütün dövrlərdə eyni olmamışdır. Müəllif bunları ayrı-ayrılıqda şərh etmiş və respublikamızda kitabxana fondlarının ponoramasını yaratmışdır. A.Xələfov onların həm məzmun, həm keyfiyyət, həm də miqdar etibarilə zənginləşməsi proseslərini konkret faktlar əsasında izah etmişdir. Bununla yanaşı fondların məzmunca formalaşmasını, istifadəsini bildirən bir sıra ölçü vahidləri (fondun dövriyyəsi, kitab təminatı, kitab oxunuşu və s.) haqqında maraqlı fikirlər irəli sürür və onların fondun təhlil edilməsində rolunu işıqlandırır. Xüsusən A.A.Xələfov tərəfindən milyon nüsxələrlə zəngin kitabxana fondlarının komplektləşdirmə xüsusiyyətlərinin və ədəbiyyatın seçmə prinsiplərinin geniş miqyasda şərh edilməsi və elmi şəkildə təhlil olunması maraq yaradır.

A.A.Xələfovun əsərlərində zəngin kitabxana fondlarının miqdarca, quruluşca məqsəd istiqamətinə, vəzifəsinə, təşkili prinsiplərinə görə geniş təhlil edilməsi bilavasitə mədəniyyət tarixinin öyrənilməsinin ən mühüm tərkib hissələrindən birini təşkil edir.

Professor A.Xələfovun əsərləri müasirlik baxımından çox mühüm əhəmiyyət kəsb edir və kitabxanaçı kadrların hazırlanmasında böyük əhəmiyyət daşıyır. Hazırda kitabxana fondu fənnini öyrənən yüzlərlə tələbə müntəzəm olaraq bu əsərlərə müraciət edir, oxuyur, biliklərini təkmilləşdirir və kitabxanaçı ixtisasına daha dərindən yiyələnir.

A.Xələfov respublikamızda kitabxana fondlarının təşkilini yüksək qiymətləndirir, elmi mahiyyətini, xidmət işində əhəmiyyətini açır, fondun istifadə edilməsində rolunu geniş xarakterizə edir, fondun təşkilini texniki iş hesab edənlərə qarşı çıxır və onun konkret elmi tərifini verir. O, göstərir ki, «Kitabxana fondunun təsnifi və fondda kitabların düzülüşü heç də bəzilərinin düşündüyü kimi formal texniki bir iş olmayıb, müəyyən elmi təsnifat sistemləri ilə əlaqədar olmuş, müəyyən dövrlərdə inkişaf edib təkmilləşən elmi xarakterli bir iş olmuşdur». Bu da ondan irəli

gəlir ki, heç bir kitabxanaçı fondu elmi şəkildə təşkil etmədən, onun fəal təbliğatçısı ola bilməz. Hazırkı dövrdə professor A.Xələfovun «Kitabxana fondu təşkilinin bəzi məsələləri» (1958) əsərinin yenidən çap olunmasına mühüm ehtiyac duyulur.

A.A.Xələfov kitabxana fondunun bütün məsələlərini (tərkibini, quruluşunu, komplektləşdirmə prinsiplərini, növlərini. metodlarını, mənbələrini, planlaşdırılmasını, uçotunu, işlənməsini, yoxlanmasını, mühafizəsini və s.) kompleks şəkildə şərikli müəlliflərlə (R.Kazımov, E.Bədəlov) birlikdə yazdığı «Kitabxana işçisinin məlumat kitabı» adlı əsərində hərtərəfli xarakterizə etmiş, konkret faktlar əsasında işıqlandırmış və ümumiləşdirmişdir. «Kitabxana fondu» dərsliyinin Azərbaycan dilində olmamasını nəzərə alsaq, bu kitabı yeganə dərs vəsaiti hesab etmək olar.

Tələbələr fondun formalaşması, idarə edilməsi, sistemləşdirilməsi, işlənməsi, qorunması, mühafizə edilməsi və düzülüşü haqqında ən zəngin məlumatları professor A.Xələfovun bu əsərləri əsasında əldə edir və «Kitabxana fondu» fənninin daha dərindən öyrənilməsinə nail olur.

Maraqlı problemlərdən birisi də ondan ibarətdir ki, A.Xələfovun əsərləri təkcə müasir kitabxana fondları haqqında deyil, keçmiş kitabxana fondları haqqında da ümumi təsəvvür yaradır.

Burada həmçinin tələbələr kitabxana fondlarının kitabxanaşünaslığın digər sahələri ilə (kitabxana işinin təşkili, oxuculara xidmət və s.) sıx əlaqəsini öyrənir və onun kitabxana işində oynadığı rolu kompleks şəkildə mənimsəyir.

Bütünlükdə A.A.Xələfovun əsərləri həm kitabxanaşünaslıq ixtisasına yiyələnən tələbələr üçün həm də respublikamızın kitabxanaçı ictimaiyyəti üçün mühüm əhəmiyyətə malik olub geniş mütaliə obyektini təşkil edir.

*Aşur ƏLİYEV*
*Kitabxana fondu və kataloqların təşkili kafedrasının dosenti, tarix elmləri namizədi*

# TƏDRİS İŞİNİN BİLİCİSİ

Məlumdur ki, yüksək ixtisaslı kadrların hazırlanması tədris prosesinin planauyğun, ardıcıl və məqsədyönlü təşkilindən çox asılıdır. Bilavasitə kadr hazırlığının strategiyası hesab edilən tədris planları dövrün tələblərinə, elmi tərəqqinin səviyyəsinə və bəzən də elmi proqnozlara əsaslanan bu və ya digər elmin inkişaf perspektivlərinə, ixtisasın, sənətin gələcəyinə əsaslanaraq tərtib edilir. Nəzərə almaq lazımdır ki, universitetə daxil olan tələbə 4 ildən sonra istehsalata gedəcək və 10 il işlədikdən sonra aparıcı mütəxəssis səviyyəsinə yüksələcəkdir. Bu baxımdan tədris planları, xüsusilə ixtisaslaşmaya dair planlar daha dinamik olmalı, gələcək inkişaf perspektivləri, elmi istiqamətləri nəzərdə tutmalıdır. Kitabxanaçılıq fakültəsi (şöbəsi) mövcud olduğu 50 il ərzində 7 tədris planından istifadə edilmişdir. Bu tədris planlarının hazırlanmasında, yerli şəraitə uyğunlaşdırılmasında uzun müddət dekan işləmiş professor A.A.Xələfovun xidmətləri əvəzedilməzdir.

Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor A.A.Xələfov kitabxana işinin görkəmli tarixçisi və nəzəriyyəçisi olmaqla yanaşı, respublikamızda ali kitabxanaçılıq təhsilinin, onun əsası olan tədris planlarının baş memarıdır.

Abuzər Xələfovun xalqımız qarşısında ən dəyərli xidmətlərindən biri Azərbaycan Dövlət Universitetində kitabxanaçılıq fakültəsinin yaradılması ilə bağlıdır. 1947-48-ci il tədris ilində filologiya fakültəsi nəzdində fəaliyyətə başlayan

kitabxanaçılıq şöbəsi 1962-ci ildən Abuzər müəllimin bacarığı və işgüzarlığı sayəsində müstəqil fakültəyə çevrilir.

Kitabxanaçılıq fakültəsinin ilk dekanı vəzifəsinə də məhz tarix elmləri namizədi, dosent A.Xələfov seçilir.

25 il dekan vəzifəsində işləyən A.Xələfov özünün təşəbbüskarlıq fəaliyyəti, təşkilatçılıq bacarığı və idarəçilik metodları ilə təkcə universitetimizdə deyil, habelə respublika və SSRİ məkanında böyük nüfuz qazanır, yüksək ixtisaslı milli kitabxanaşünas-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparır.

Məlumdur ki, 40-cı illərə qədər SSRİ-də kitabxanaçı kadrlar əsasən kitabxanaçılıq institutlarında və bəzi hallarda pedaqoji institutlarda hazırlanırdı. Universitetlərdə kitabxanaçı kadrlar hazırlandığından kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə universitet profilinə uyğun tədris planı yox idi. Ona görə də Bakı Dövlət Universitetinin filologiya fakültəsi yanında kitabxanaçılıq şöbəsinin 1947-ci ildə tərtib edilmiş tədris planı kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə Sovet İttifaqında ilk universitet tədris planı oldu. Bu plan filologiya fakültəsinin tədris planı əsasında tərtib edilmişdi. Kitabxanaçılıq şöbəsi bu planla 1955-ci ilə qədər işlədi. Burada kitabxanaşünaslıq və biblioqrafiya fənləri tədris planının təxminən 20-30%-ini təşkil edirdi. 1955-ci ildən SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ittifaqın bir neçə universitetində kitabxanaçılıq şöbəsinin yaranması ilə əlaqədar və kitabxanaşünas-biblioqraf kadrlara olan böyük tələbatı, kitabxanaçı sənətinin gələcək perspektivlərini nəzərə alaraq «Kitabxanaşünaslıq-biblioqraf» ixtisası üzrə ilk beşillik universitet tədris planını təsdiq etdi. Bu plan SSRİ-də kitabxanaşünas-biblioqraf kadrların hazırlanması tarixində ən mühüm rol oynamış ilk nümunəvi və mükəmməl tədris planı idi. Burada universitet təhsilinin xüsusiyyətləri nəzərə alınmış, kitabxanaşünaslıq və biblioqrafiya elmlərinin bütün sahələri öz əksini tapmışdır.



Planda ictimai və ümumtəhsil fənləri ilə yanaşı ixtisas fənlərinin tədrisinə də geniş yer verildiyindən gələcək mütəxəssislərin daha yüksək səviyyədə hazırlanması üçün şərait yaradılmışdı. Planda ilk dəfə olaraq ixtisas fənlərinə dair 15 seçmə kursun keçilməsi nəzərdə tutulmuş, ixtisas fənlərinə 1300 dərs saatı ayrılmışdı. Bu da kadr hazırlığının keyfiyyətinə olduqca müsbət təsir göstərdi. Universitetin kitabxanaçılıq fakültəsi 1964-cü ilə qədər bu plan əsasında işləmiş, sonra yeni dördillik plana keçmişdir. 1964-cü ildə ittifaq miqyasında dövlət universitetlərinin tarix, hüquq və kitabxanaçılıq fakültələri üçün dördillik təhsil müddəti müəyyənləşdirilmişdi. Həmin fakültələr dördillik planla 1968-ci ilə qədər işlədilər, sonra yenidən beşillik plana keçdilər. Kitabxanaçılıq fakültəsi üçün yeni beşillik plan tərtib edilmədiyindən o, dördillik tədris planı əsasında fəaliyyət göstərirdi.

Bu onunla əlaqədar idi ki, SSRİ Nazirlər Soveti mədəniyyət institutlarında kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə təhsil müddətini dörd il müəyyən etmişdi. Ona görə də SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi nümunəvi tədris planları təsdiq etmədi.

Yaxşı xatirimdədir (mən o vaxt həmin fakültədə oxuyurdum) dekan A.Xələfov kitabxanaçılıq fakültəsinin yeni tədris planının yaradılmasına çox ciddi səylə çalışır, müxtəlif universitet planlarını əldə edərək, günlərlə, saatlarla həmin tədris planları əsasında beşillik tədris planı hazırlayır və sübut etməyə çalışırdı ki, kitabxanaçılıq təhsili beşillik tədris planı əsasında işləməlidir. O, buna çox çətinliklə nail oldu.

O vaxt Vülnus Universitetində də kitabxanaçılıq fakültəsi fəaliyyət göstərirdi. Professor A.Xələfov Vülnüsə ezamiyyətə getdi və orada kitabxanaşünaslıq kafedrasının müdiri Sinkavçusla beşillik tədris planı üzərində ciddi səylə işlədi. Onu da qeyd edək ki, Vilnüs Universiteti üçün SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən 1969-cu ildə

təsdiq edilən tədris planı böyük əhəmiyyətə və perspektivə malik idi. Maraqlı haldır ki, hələ 1969-cu ildə bu planda öz əksini tapmış texniki fənlərin bir çoxu 1984-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən universitetlərin humanitar fakültələrinin tədris planlarına da daxil edilmişdi.

Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsi 1970-ci ildən 1984-cü ilə qədər Vilnüs Universitetinin tədris planı ilə işləmişdir.

SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən 1969-cu ildə Vilnüs Universiteti üçün «Kitabxanaşünaslıq-biblioqrafiya» ixtisası üzrə təsdiq edilmiş tədris planı yüksək ixtisaslı mütəxəssis kitabxanaçı kadrları hazırlamaq sahəsində yeni mərhələnin başlanğıcı oldu. Bu mərhələ kitabxanaların elmi məlumat funksiyaları, elmi-texniki tərəqiyə xidmət etmək vəzifələri ilə bağlı idi.

Bu tədris planının hazırlanmasına da professor A.Xələfovun geniş dünyagörüşü və müdrik əlavələri öz təsirini göstərdi. Belə ki, plan tədris prosesində tətbiq edilərkən respublikamızın yerli xüsusiyyətləri nəzərə alınmışdır. Razılıq hissi ilə qeyd etmək olar ki, bu planın fakültəmizdə müvəffəqiyyətlə tətbiqi yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrları hazırlamaq işinə olduqca müsbət təsir göstərmiş, kitabxanalarımızı öz ixtisasını dərindən bilən yüksək professional səviyyəyə, geniş və hərtərəfli dünyagörüşə malik olan yüksək ixtisaslı kitabxanaçılarla təmin etmişdir.

Bu müddətdə universitetin başqa fakültələri və mədəniyyət institutları üçün iki-üç dəfə tədris planı təsdiq edilmişdi. Kitabxanaçılıq fakültəsinin tədris planı isə 14 ildə yeniləşməmişdi. Ona görə də Azərbaycan Dövlət Universiteti və Vilnüs Dövlət Universiteti SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinə kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə beşillik tədris planlarının təsdiq olunması üçün dəfələrlə rəsmi məktubla müraciət etmişdi. Nazirlik tərəfindən



bu planlar ancaq 1984-cü ildə təsdiq olundu. Hər hansı yeni tədris planının təsdiq edilməsi professor A.Xələfovun gərgin əməyinin nəticəsi kimi qiymətləndirilməlidir. Çünki 14 ildə A.Xələfov bir neçə tədris planı hazırlayıb nazirliyə təqdim etmişdir.

Nəhayət, ADU üçün təsdiq edilmiş bu fərdi tədris planı kitabxanaçılıq fakültəsində 1984-1985-ci tədris ilində tətbiq olunmağa başlandı. Bu fərdi tədris planının təsdiq edilməsi, yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrlar hazırlanması sahəsində professor A.Xələfovun xüsusi xidməti kimi qiymətləndirilməlidir.

Yeni tədris planı öz universallığı və elmiliyi ilə fərqlənirdi. Plan tərtib edilərkən universitetlərin və mədəniyyət institutlarının tədris planlarından məharətlə istifadə edilmiş, ən yaxşı cəhətlər nəzərə alınmışdır. Keçmiş planda olan nöqsanlar düzəldilmiş, elm, mədəniyyət və texnikanın son nailiyyətləri ilə bağlı yeni fənlər plana daxil edilmişdir. Professor A.Xələfovun yüksək bacarığı sayəsində bu planda ixtisas fənlərinə daha geniş yer verilmiş, onların saatları xeyli artırılmışdır. Vilnüs Universitetinin tədris planında ixtisas fənləri üzrə 1700 saat dərs olduğu halda, yeni tədris planında Abuzər müəllim onun miqdarını 2000 saata çatdırmağa nail olmuşdur. Keçmiş plandan fərqli olaraq burada ixtisaslaşmalar ədəbiyyat komplekslərinə görə aparılmış, kitabxanaların vəzifələrinə müvafiq yeni fənlər ixtisaslaşmalara daxil edilmişdir. Bu planda 7 ixtisaslaşmanın aparılması nəzərdə tutulmuşdur.

Hər bir ixtisaslaşmanın özünün tərkibinə isə bir neçə əsas, əlavə və seçmə kursların daxil edilməsi tələbinin bu və ya digər ədəbiyyat kompleksini və komplekslə bağlı olan kitabxana işi prosesini mənimsəməsinə imkan yaradır. İxtisaslaşmalardan əlavə plana seçmə kurslarının salınması fakültəyə və kafedralara imkan verir ki, elmi-texniki tərəqqi ilə əlaqədar olaraq qarşıya çıxan yeni problemlərin öyrənilməsini təşkil etsin, yeni seçmə kurslar yaratsın. Professor

A.Xələfov yeni tədris planına bu ixtisaslaşma və seçmə kurslarını məharətlə daxil etmişdir ki, bu da kafedraların dərs yükünün xeyli artmasına səbəb olmuşdur.

Yeni tədris planında təcrübi və seminar dərsləri saatlarının artırılması, tələbələrin hazırlanması və müstəqil işləməsi üçün əlverişli şərait yaratmışdır. Yeni planda tələbələrin elmi-tədqiqat hazırlığı üçün geniş imkanlar yaradılmışdır. Belə ki, beş il müddətində yazılan kurs işləri və nəhayət təhsilin diplom işi ilə başa çatması tələbələrin elmi-tədqiqat vərdişlərini xeyli artırır, müstəqil elmi-tədqiqat işi aparmaq üçün şərait yaradır. Onu da qeyd etmək lazımdır ki, bu tədris planına diplom işlərinin salınması professor A.Xələfovun xidmətidir. Yeni tədris planında ictimai, ümumtəhsil və texniki fənlərin öyrənilməsinə də geniş yer verilmişdir.

Maraqlı faktdır ki, hələ 70-80-ci illərdə kitabxanaçılıq fakültəsi SSRİ məkanında aparıcı yer tuturdu və SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ölkədəki ali məktəblərin kitabxanaçılıq fakültələri üçün tədris proqramlarını hazırlayıb tərtib etməyi məhz Azərbaycan Universitetinin kitabxanaçılıq fakültəsinin rəhbərliyindən xahiş etmişdi.

Yüksək ixtisaslı kadr hazırlığında istehsalat təcrübəsini əsas amillərdən hesab edən professor A.Xələfov tədris planlarında ona xüsusi yer vermişdir. Tələbələr təhsil müddətində aldığı nəzəri bilikləri məhz istehsalat təcrübələri zamanı tətbiq edir və iş prosesində əməli vərdişlər qazanır. İstehsalat təcrübəsi gələcək mütəxəssisə nəzəriyyəni təcrübə ilə əlaqələndirmək vərdişi aşılayır, onu gələcək böyük əməyə, gənc mütəxəssis əməyinə hazırlayır. Kitabxanaçılıq fakültəsində istehsalat təcrübəsinin təşkili prosesinə xüsusi diqqət yetirilmir. Bu, hər şeydən əvvəl, kitabxana işi prosesinin xarakterindən irəli gəlir. Yüksək ixtisaslı gənc kitabxanaçıları elə hazırlamaq lazımdır ki, onlar təcrübi vərdişlər qazansınlar və bu vərdişləri kitabxana işi praktikasında tətbiq etməyi bacarsınlar. Məhz buna görə də kitabxanaçılıq fakültəsini tədris planında istehsalat təcrübəsinin təşkilinə geniş yer verilirdi.



Fakültənin ilk tədris planında ixtisaslaşdırmaların aparılması nəzərdə tutulmadığından istehsalat təcrübələrinin proqramlarına müvafiq olaraq kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının qərarı ilə müəyyənləşdirilirdi.

Professor A.Xələfovun rəhbərliyi ilə 1964-cü ildə fakültə yeni 4 illik tədris planı ilə işləməyə başlamışdı. Bu planda istehsalat təcrübəsinin üç ixtisaslaşma («Elmi kütləvi kitabxanalar», «Texniki kitabxanalar», «Uşaq və məktəb kitabxanaları») üzrə aparılması nəzərdə tutulmuşdu. 1970-ci ildən fakültə yeni beşillik tədris planı ilə işləməyə başladı. Bu planın hazırlanmasında professor A.Xələfovun xidməti əvəzsizdir. Bu planda 4 ixtisaslaşmanın («Elmi kitabxanalar», «Texniki kitabxanalar», «Kütləvi kitabxanalar» və «Uşaq və məktəb kitabxanaları») aparılması nəzərdə tutulmuşdur. Fakültə bu planla 1970-ci ildən 1984-cü ilə qədər işləmişdir. Bununla belə bu ixtisaslaşmalar da əvvəlki tədris planında olduğu kimi funksional xarakter daşıyır, bilavasitə kitabxanaların vəzifələrinə uyğun kadr hazırlamaq məqsədi güdür. 70-ci illərin ikinci yarısından başlayaraq Sovet İttifaqının mədəniyyət institutları üçün tərtib edilmiş tədris planlarında ədəbiyyat kompleksinə görə ixtisaslaşmalar aparıldı. Bu, tezliklə özünü doğrultdu və gələcək tədris planlarının hazırlanmasında tətbiq edilməsi məqsədəuyğun sayıldı.

Professor A.Xələfovun rəhbərliyi ilə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsi üçün 1984-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin təsdiq etdiyi fərdi beşillik tədris planında ixtisaslaşmaların ədəbiyyat kompleksi üzrə aparılması nəzərdə tutulmuşdur. Fakültənin yeni tədris planına görə 6 ixtisaslaşma («İctimai-siyasi ədəbiyyatın kitabxanüşnaslıq və biblioqrafiyası», «Bədii ədəbiyyat və incəsənət ədəbiyyatının kitabxanaşünaslığı və biblioqrafiyası», «Uşaq və gənclər ədə-

biyyatının kitabxanaşünaslığı və biblioqrafiyası», «Uşaq və gənclər ədəbiyyatının kitabxanaşünaslığı və biblioqrafiyası», «Kənd təsərrüfatı ədəbiyyatının kitabxanaşünaslığı və biblioqrafiyası», «Texniki ədəbiyyatın kitabxanaşünaslığı və biblioqrafiyası», «Elmi-təbii ədəbiyyatın kitabxanaşünaslığı və biblioqrafiyası») vardır.

Ümumiyyətlə, tədris planında istehsalat təcrübəsinə 22 həftə, 1000 saatdan artıq vaxt ayrılmışdır. Tələbələr III kursda 6 həftə, IV və V kurslarda 8 həftə istehsalat təcrübələrində olurdular. Həmin tədris planında istehsalat təcrübəsinin kurslar üzrə həftə və saatlarının artırılmasında professor A.Xələfovun böyük xidməti danılmazdır.

Professor A.Xələfovun təşəbbüsü ilə 1962-ci ildən 80-ci illərə qədər fakültənin III kurs tələbələrinin istehsalat təcrübəsinin son iki həftəsinin SSRİ-nin böyük dövlət kitabxanalarında keçirilməsinə icazə alınmışdır. Məlumdur ki, buna xeyli maliyyə vəsaiti tələb olunurdu. Hətta bu işə maneçilik törədənlər də çox idi. Lakin Abuzər müəllimin təkidilə bu məsələ rektorluq, böyük elmi şura qarşısında qaldırılmış və buna icazə alınmışdır.

Sovetlər İttifaqı dağıldıqdan və respublikamız dövlət müstəqilliyi qazandıqdan sonra Milli Məclis 1993-cu ildə Azərbaycan Respublikasının Təhsil Qanununu qəbul etdi. İlk dəfə olaraq respublikamızda Avropa təhsil sisteminə əsaslanan qanunun qəbul edilməsi ali məktəb tələbələrinin üç pillədə-bakalavr, magistr, doktor pilləsində hazırlanmasını lazım bildi. Həmin qanuna uyğun olaraq universitetdə, o cümlədən fakültəmizdə kitabxanaşünas-biblioqraf bakalavrı hazırlayan iki tədris planı tərtib və təsdiq edilmişdir. Bu tədris planları hazırlanarkən professor A.Xələfov kitabxanaşünaslıq kafedrasının müdiri kimi fəaliyyət göstərsə də bütün fakültə dekanları ona müraciət edir və Abuzər Xələfov da həmin planların tərtibində onlara məsləhətlər verirdi. Çünki bakalavr və magistr tədris planlarında dərs saatları xeyli azalırdı. Professor A.Xələfov öz professionallığı, tədris



işinin dərindən bilicisi kimi bu azalmanın qarşısını almağa qadir bir mütəxəssis kimi özünü göstərdi.

Bu planlar dördillik olduğundan istehsalat təcrübəsinə ayrılan həftələrin sayı da qismən azalmışdır. Həmçinin tədris planlarında nəzərdə tutulan, II-IV kurslarda aparılan təcrübələrin hamısının yay semestrində keçirilməsi məqsədəuyğun hesab edilmişdir ki, bu da təcrübənin vaxtını artırmağa imkan vermişdir. Təcrübənin üç kursda keçirilməsi nəzərə alınaraq hər kursda hansı xidmət növünün aparılacağı sadədən mürəkkəbə doğru məntiqi ardıcıllıq əsasında müəyyənləşdirilmişdir.

Respublikamızda kitabxanaşünaslıq elminin ağsaqqalı Abuzər Xələfov bu gün ömrünün müdrik çağlarını yaşayır. Onun 70 yaşı qeyd edilir. Alimin xalqımıza verdiyi elmi töhfələrin araşdırılması bir neçə tədqiqat əsərinin mövzusudur. İnanırıq ki, Azərbacanda deyil, həmçinin MDB məkanında, habelə beynəlxalq aləmdə yaxşı tanınan görkəmli alimimiz hələ bundan sonra Azərbaycan kitabxanaşünaslıq elmini özünün sanballı dərslik, dərs vəsaitləri və monoqrafiyaları ilə daha da zənginləşdirəcəkdir. Bu şərəfli yolda ona uzun ömür, cansağlığı arzulayırıq.

*Zülfəli İBRAHİMOV*
***Bakı Dövlət Universiteti sosiologiya və politologiya kafedrasının dosenti***

## MƏNƏVİYYAT KEŞİKÇİSİ

Azərbaycan xalqının çox hörmətli və dəyərli alimlərindən biri olan Abuzər müəllimi anadan olmasının 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və elmi-pedaqoji fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayıram!

Professor Abuzər Xələfovu mən 1965-ci ildən - o vaxtkı ADU-nun kitabxanaçılıq fakültəsinin I kursuna daxil olduğum vaxtdan tanıyıram. Bu, Abuzər müəllimin 70 illik həyat yolunun düz yarısı deməkdir. Mən o vaxt da, indi də Abuzər müəllimi özümə müəllim hesab etmişəm. Bir alim və insan kimi Abuzər müəllimdə həqiqətən öyrənməli müsbət keyfiyyətlər çoxdur. Mən alın yazısı, tale və qismətə inanan adamam. Allah-taalaya sonsuz olaraq minnətdaram ki, mənim həyat yolumun üstünə Abuzər müəllim kimi gözəl bir insan çıxarıb və onunla rastlaşdırıb. Abuzər müəllim kimi insanların müasiri olmağın özü bir xoşbəxtlikdir.

Abuzər Xələfovu müxtəlif cəhətlərdən xarakterizə etmək olar. Lakin bu qısa xatirə yazısının həcmi imkan vermədiyindən bir neçə vacib hesab etdiyimiz məqamların üzərində dayanmaq istəyirəm. Professor Abuzər Xələfov hər şeydən əvvəl yüksək ünsiyyət mədəniyyətinə malik bir şəxsiyyətdir. Abuzər müəllim eyni zamanda özünə və ətrafdakılara qarşı həddindən artıq tələbkardır. Abuzər müəllimdə yüksək tələbkarlıqla insana qayğı və humanizm üzvi vəhdət təşkil edir. Mən həyatımda Abuzər müəllim kimi qanuna əməl və hörmət edən ikinci bir adam tanımıram.

Professor A.Xələfovu elm fədaisi, universitet elminin təşkilatçılarından biri kimi tanıyırıq. Respublikada çoxminlik kitabxanaçı kadrların hazırlanmasında onun çox böyük zəhməti olmuşdur.



Bu gün həmin fakültənin bütün uğurları A.Xələfovun adı ilə bağlıdır və kollektiv Abuzər müəllimə minnətdar olmalıdır.

70 yaşı olmasına baxmayaraq, professor A.Xələfov fiziki və intellektual qüvvələrinin çiçəkləndiyi bir dövrü yaşayır. Bu gün də Abuzər müəllim elmin, maarifin, mədəniyyətin və mənəviyyatın keşiyində ayıq-sayıq dayanır. Universitetin və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələrə bir ağsaqqal alim kimi öz münasibətini bildirir. Abuzər müəllimə bu xeyirxah və gərəkli işində yeni-yeni uğurlar arzulayırıq!

***Mehmanəli MƏMMƏDOV***
***Kitabxanaçılıq-informasiya fakültəsi Həmkarlar təşkilatının sədri, pedaqoji elmlər namizədi, baş müəllim***

# XEYİRXAHLIĞIN TƏNTƏNƏSİ

Xeyirxahlıq babalardan qalıb və bu xarakterik xüsusiyyət əsl kişilərə məxsusdur. Cəmiyyətimizdə belə xeyirxah insanlardan biri də professor Abuzər Xələfovdur.

Abuzər müəllimlə mənim heç bir qohumluq əlaqəm yoxdur, hətta yerli də deyilik. Mən respublikamızın cənub zonasından, o isə əzəli türk torpaqları olan Göyçə mahalındandır. Lakin kimliyindən asılı olmayaraq insanlara qayğı məni Abuzər müəllimlə tələbəlik illərindən görüşdürüb. Mənim namizədliyimi fakültə komsomol komitəsinin katibliyinə irəli sürən və 4 il tələbə inşaat dəstəsinə rəhbər təyin edən Abuzər Xələfov 3 illik istehsalat fəaliyyətimdən sonra məni 1986-cı ildə kitabxanaçılıq fakültəsinə işə dəvət etmişdir. Həmin illərdə universitetdə işə girmək çox çətin idi. Ancaq Abuzər müəllim buna nail oldu və mənim əsl xeyirxahıma çevrildi.

Elmi işimin təsdiqi, aspiranturada təhsilim və dissertasiya işimin müdafiəsi Abuzər müəllimin rəhbərliyi ilə olub.

Fəxrlə deyə bilərəm ki, Azərbaycan Respublikasında kitabxanaşünaslıq elminin əsasını professor Abuzər Xələfov qoymuşdur. Məlum olduğu kimi, tarixdə hər bir alimə özünün məktəbini yaratmaq nəsib olmur. Belə bir şöhrətə ən qüdrətli alimlər və elmdə öz dəst-xətti olan insanlar nail olurlar. Bu xoşbəxtlik Abuzər müəllimə nəsib olmuşdur. O, respublikamızda özünün kitabxanaçılıq məktəbini yaratmış və hazırda böyük məhəbbətlə bu məktəbə başçılıq edir. Əlli ildən artıq bir müddət ərzində bu məktəbi minlərlə gənc bitirmiş və respublikamızın müxtəlif guşələrində fəaliyyət



göstərirlər. Onların əksəriyyəti respublikamızın ayrı-ayrı kitabxanalarında, müxtəlif ictimai işlərdə, mətbuat orqanlarında və dövlət işlərində çalışırlar. Milli Məclisin deputatı Zəlimxan Yaqub, görkəmli jurnalistlər Şakir Yaqubov, Əhməd İsayev, şairlər Məmməd İsmayıl, Davud Nəsib, yazıçı- Əkrəm Əylisli, Respublika Milli Kitabxanasının direktoru Leyla Qafurova və minlərlə başqa görkəmli ziyalılarımız Abuzər müəllimin tələbələri olmaqla fəxr edirlər.

Abuzər müəllim respublikamızda öz məktəbini yaratmaqla yanaşı, onun elmi potensialının qayğısına da qalmış və indiyə kimi mövcud sahədə 14 elmlər namizədi hazırlamışdır. Alim hazırda onlarla çiyin-çiyinə işləyir və bununla fəxr edir. Onu da qeyd etmək lazımdır ki, respublikamızda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri üzrə ilk elmi-tədqiqat işi də Abuzər müəllimə məxsusdur. 1961-ci ildə kitabxanaşünaslıq elmi üzrə ilk dəfə namizədlik, 1975-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etməklə Abuzər müəllim Azərbaycanın mədəniyyət tarixində əsl mədəni inqilab etmişdir. Məhz bu elmi-tədqiqat işindən sonra respublikamızın ayrı-ayrı sahəvi kitabxanalarında, o cümlədən M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında elmi-tədqiqat şöbələri yaranmağa başlamışdır. Bu şöbələr ilkin olaraq A.Xələfovun elmi tədqiqatlarına müraciət etmiş və öz işlərini bu tədqiqatlar üzərində qurmuşlar. Nəticədə, 70-80-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası başda olmaqla kitabxanaşünaslığın ayrı-ayrı sahələrinə dair müxtəlif elmi-tədqiqat işləri aparılmış və əhəmiyyətli nəticələr alınmışdır. İlk dəfə bu kitabxanalarda elmi-tədqiqat işləri ilə məşğul olan Ə.Xələfov, F.Bayramov, N.İsmayılov və başqaları hazırda kitabxanaşünas alim kimi prof. A.Xələfovla birgə çalışırlar. Onların hər biri Abuzər müəllimin rəhbərliyi ilə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın ayrı-ayrı sahələrində böyük müvəffəqiyyətlər əldə etmişlər. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1978-ci ildə

«Azərbaycan kəndində kitab və mütaliə problemləri» adı ilə apardığı elmi-tədqiqat işində professor A.Xələfovun tövsiyəsi və rəhbərliyi ilə kitabxanaçılıq fakültəsinin 55 tələbəsi bu işə cəlb edilmiş və onlar respublikamızın müxtəlif rayonlarına ezam edilməklə problemin həllində mühüm rol oynamışlar. Bu haqda istər respublika mətbuatında, istərsə də keçmiş ittifaqda geniş məlumat verilmiş və Dövlət Kitabxanasının fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Son illərə kimi Zaqafqaziya və Orta Asiya respublikalarında kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri üzrə yeganə elmlər doktoru, professor olan A.Xələfovun səsi-sədası gah Moskvadan, gah Baltikyanı respublikalardan, gah da Daşkənddən gəlirdi. Bu ölkələrdə kitabxanaşünaslıq elmləri üzrə keçirilən hər bir elmi işin müdafiəsində Abuzər müəllimin fikirləri əsas götürülürdü. Rusiyanın görkəmli alimləri K.İ.Abramov, O.Q.Korşunov, Kartaşov, Çernyak və b. Abuzər müəllimin elmi irsini yüksək qiymətləndirmiş və onunla mütəmadi əlaqə saxlamışlar. Bu əlaqələr və görüşlər indi də davam etdirilir. Belə ki, 2000 və 2001-ci illərdə Rusiyanın iki görkəmli aliminin T.F.Karatıgina və M.Y.Dvorkinanın BDU-nun kitabxanaçılıq fakültəsində keçirilən dissertasiya müdafiəsində çıxış edərək, Abuzər Xələfovun elmi irsini yüksək qiymətləndirilməsi buna əyani sübutdur. Bu elmi əlaqələri yüksək qiymətləndirən Rusiyanın «Bibliotekovedeniye» (2001-ci il, №1) və «Nauçnaya Texniçeskaya Biblioteka» (2001-ci il, №6) jurnallarının rəhbərliyi dosent Rasim Kazımov və Zöhrab Baxşəliyevin imzası ilə Rusiya-Azərbaycan mədəni əlaqələrinin inkişafında elmə və onun başında duran insanlara minnətdarlıq hissi bildiriblər.

Hazırda Abuzər müəllim böyük ruh yüksəkliyi ilə, əzmlə çalışır, yazır və yaradır. 2001-ci ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilən Abuzər müəllim 15-dən çox monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifi olmaqla yanaşı 110-dan artıq elmi



məqalənin də müəllifidir. Bununla yanaşı o, 25 il kitabxanaçılıq fakültəsinin dekanı işləmiş, 1963-cü ildən kitabxanaşünaslıq kafedrasına rəhbərlik etməklə müxtəlif ictimai işlərdə fəaliyyət göstərmiş və hazırda da bu fəaliyyəti davam etdirməklə həmişə birincilər sırasında olmuşdur. Onun fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, hələ 1969-cu ildə ona Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi fəxri adı verilmiş, 2000-ci ildə isə respublika prezidentinin fərmanı ilə professor A.Xələfov «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

Bütün bunlarla yanaşı Abuzər müəllim çox səmimi və xeyirxah bir insandır. Onun xeyirxahlığı özünü həm sözdə, həm də əməldə göstərir. Bunu onun həyatında baş verən yüzlərlə epizodlardan biri ilə göstərmək istəyirəm.

2000-ci ilin aprel ayında Ali Attestasiya Komissiyasında respublikamızda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisası üzrə birinci dəfə dissertasiya müdafiəsi üçün icazəyə nail olan Abuzər müəllim sevincini bölüşdürmək üçün bizi - iki aspirantını Sahil bağına dəvət etdi. Bizə çay qonaqlığı verən Abuzər müəllim cavanlığını xatırladı. Ona xeyirxah insanların göstərdiyi qayğıdan danışdı və bu xeyirxahlığın davam etdirilməsini bizə tövsiyə etdi. Nəhayət, «Azərneft» meydanından onu taksi ilə yola salmağa çalışsaq da, o, buna razı olmadı. Təmkinlə keçib avtobusda əyləşən bu müdrik insan: «Siz narahat olmayın, mən avtobusla gedərəm» - dedi və yola düşdü.

Mən çox şadam ki, həyatda Abuzər müəllim kimi xeyirxah insanlar var. Bu insanlar həyatda hər cür mükafata layiqdirlər. Ancaq Abuzər müəllim özünün ən böyük mükafatını boya-başa çatdırdığı tələbələri hesab edir: «Bu illər ərzində qazandığım ən böyük sərvətim mənim çoxsaylı tələbələrimdir. Tələbələrim mənim iftixarımdır. Mən onlarla öyünür, özümü böyük və zəngin mənəvi sərvətin sahibi hesab edirəm».

Bütün ömrünü BDU-nun kitabxanaçılıq fakültəsinin inkişafına sərf etmiş, elmin ən yüksək zirvəsinə qalxmış professor A.Xələfov hazırda müdriklik dövrünü yaşayır. Mən inanıram ki, bu müdriklik hələ çox gənclərin elmi işinə işıq saçacaq və yeni-yeni nailiyyətlər əldə ediləcəkdir. Bu işdə Abuzər müəllimə cansağlığı və müvəffəqiyyətlər arzulayıram!

*Leyla GƏRAYZADƏ*
*Filologiya elmləri namizədi, BDU-nun dosenti*

# MƏNƏVİ DAYAQ

Abuzər müəllimin adı çəkiləndə, onu tanıyanların gözü qarşısında ilk öncə Azərbaycanda kitabxanaşünaslığın inkişaf yolu, bu yolu, onun hüdudlarını genişləndirən bir mütəxəssis, alim, cəfakeş, elm fədaisi canlanır. Mənim üçünsə bu şəxs onu yaxından tanıdığıma görə, həm də müəllimlər müəllimi, xeyirxah və təmənnasız bir pedaqoq, mahir tərbiyəçi, əsl ziyalı, geniş qəlbli, zəngin dunyagörüşlü, öz məktəbi olan elm xadimidir. Mənalı ömrünün az qala yarım əsrini maarifə, kitabxanaşünaslığa həsr etmiş Abuzər müəllim beləcə gəlib zirvəsində dayandığı həyat yolunun 70-ci pilləsinə çatıb. Bəli, bu il dekabrın 25-də o, ömrünün 70-ci ilini qeyd edəcək.

Mən də 70 ilin enişli-yoxuşlu yollarında heç zaman büdrəməyən, öz ağlı və zəkası, iradə və mətinliyi sayəsində istədiyinə nail olan Abuzər müəllimin ömür kitabını oxucular qarşısında səhifələmək istəyirəm.

Abuzər Ali oğlu Xələfov düz 70 il əvvəl qədim Oğuz yurdunda - Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində həyata göz açmışdır. Orta məktəbi bitirəndən sonra bir müddət doğma kəndində kolxozda işləmiş, 1946-cı ildə «Böyük Vətən müharibəsi illərində (1941-1945) rəşadətli əməyinə görə» medalı ilə təltif olunmuşdur.

Sonra da onun Bakı həyatı başlayır. Ali təhsil almaq, elmin dərinliklərinə baş vurmaq həvəsilə paytaxta gələn gənc Abuzər o zamankı ADU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olur. 5 il sonra ali məktəbi müvəffəqiyyətlə başa vurur və onu elə orada müəllim kimi saxlayırlar. Gənc müəllimin qarşısında bu ali məktəbdə geniş üfüqlər açılır. Elmi biliklərə, ilk növbədə kitabxana işinə, respublikamızda onun inkişafına böyük həvəs və maraq gö-

stərən Abuzər müəllim bütövlükdə həyatını bu sahəyə həsr edir. Tükənməz enerji ilə çalışır, üzərində işləyir. 1962-ci ildə namizədlik, 1975-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə edir. 1978-ci ildən universitetin professorudur. O, 25 il kitabxanaçılıq fakültəsinin dekanı işləmişdir. 1963-cü ildən isə həm də kitabxanaşünaslıq kafedrasının müdiridir. Onu da fəxrlə qeyd etməyə dəyər ki, Abuzər müəllim keçmiş SSRİ məkanında kitabxana işinin tarixi sahəsində də ilk elmlər doktoru kimi şöhrət qazanmış və Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin əsasını qoymuşdur.

Professor A.Xələfovun respublikamızda kitabxanaların keçdiyi inkişaf yollarını araşdırmaq sahəsində gördüyü işləri sadalasaq, böyük bir siyahı alınar. Təkcə onu demək kifayətdir ki, Abuzər müəllim 130-dan çox elmi əsərin, dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir. Əsərləri Azərbaycan və rus dillərində çap olunmuşdur. O, eyni zamanda 40-a qədər dərslik və dərs vəsaitinin, tədris-metodik materiallarının tərtibçisi, müəllifi və redaktoru olmuşdur. Azərbaycan Ensiklopediyasının elmi məsləhətçisidir. O, hələ 1984-cü ildə SSRİ Ali və Orta İxtisas Nazirliyi tərəfindən təsdiq edilmiş ölkə universitetlərinin kitabxanaçılıq fakültələri üçün tərtib edilmiş tədris planının müəllifidir. Pedaqoji fəaliyyəti ərzində professor A.Xələfov hazırda respublikamızın kitabxanalarında fəaliyyət göstərən 5 mindən artıq yüksək ixtisaslı kitabxanaçılar ordusunun müəllimi olmuşdur.

Professor A.Xələfov elmi-pedaqoji fəaliyyətlə yanaşı, fəal ictimaiyyətçi kimi də tanınır. 50 ildən çoxdur ki, istər universitetdə, istərsə də respublikada və keçmiş SSRİ məkanında elm, təhsil, kitab və kitabxana işi ilə bağlı müxtəlif məsul vəzifələrdə fəallıq göstərmişdir.

Onun 50 ilə yaxın elmi, pedaqoji fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1969-cu ildə «Əməkdar mədəniyyət işçisi» fəxri adına, daha sonra «İşdə əla müvəffəqiyyətlərə görə» döş nişanı, «N.Krupskaya medalı»,



BDU-nun 80 illiyi bayramında respublika prezidentinin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

Mən də Abuzər müəllimin qayğı və xeyirxahlığını daim üzərimdə hiss edən 5 mindən çox tələbədən biriyəm. İlk dəfə bu nəzakətli və mehriban, həlim və sadə insanla tanışlığım 1964-cü ildə başladı. On da məlum edim ki, o vaxta kimi bizim 1937-ci ildə Qərbi Azərbaycandan Qazaxıstana sürgün edilmiş ailəmiz xeyli müsibət çəkmişdi. Mən də 1947-ci ildə orada anadan olmuşam. 1959-cu ilə qədər sürgündə yaşamışıq. Sonra bəraət aldıq, oradan Bakıya qayıtdıq və məskunlaşdıq. Yeni şərait, yeni adamlar. Bizim ailə ilk dəfə akademik Həsən Əliyevin qayğısı ilə əhatə olundu. Rəhmətlik Zəkifə xanımın maddi və mənəvi dayağını heç vaxt unutmarıq. Bu nəcabətli qadının necə də böyük ürəyi vardı. İnsan bu qədər xeyirxah, əliaçıq olarmış!

Bir də bəxtim onda gətirdi ki, qəbul imtahanı zamanı Abuzər müəllimə rast gəldim. Sən demə, tərcümeyi-halımla tanış imiş. Nə yaxşı ki, o, qəbul komissiyasının məsul katibi idi. Yaxşı yadımdadır. Həyəcanlı idim. Bu vaxt Abuzər müəllim başımın üstünü kəsdirdi. Qulağıma pıçıldadı: «Qara qız, həyəcanlanıb ürəyini sıxma. Sən universitetdə oxuyacaqsan, vəssalam!». Bu təsəllidən yaranmış sevinc məni kövrəltdi. Özümü ələ aldım. Və universitetin tələbəsi oldum. O vaxtdan neçə illər keçib. Bu müddət ərzində Abuzər müəllimi həmişə özümə yaxın adam, həmdəm, etibarlı və qayğıkeş insan, doğma müəllim bilmişəm. Ən çətin vaxtlarda mənə mənəvi dayaq olub, köməyimə çatıb. Hazırda Abuzər müəllim ailəmizin ən yaxın adamıdır, ağsaqqalıdır.

Deyirlər, qəlbi təmiz və geniş olanlar çox yaşayır, həmişə nikbin ovqatda olurlar. Elə Abuzər müəllim kimi. Ona görə yaşı yetmişə çatsa da, gənclik həvəsilə çalışır, yazıb-yaradır. Hamının xeyir-şərinə yarayır. Axı bu və ya başqa məsələlərlə bağlı ona pənah gətirən, qapısını döyənlər çox olur. Abuzər müəllim isə heç birini naümid qaytarmır. Ən yaralı yeri Qarabağ məsələsi, Qərbi Azərbaycan problemi-

dir. Ona görə də tələbələrə öz tarixini dərindən öyrənməyi tövsiyə edir. Ancaq Abuzər müəllim nikbindir. Bildirir ki, artıq ermənilərin iç üzü açılıb, dünya onların məkrli simasını tanımağa başlayıb. Gec-tez Qarabağ azad olacaq, qədim Oğuz ellərinin əzəli sakinləri doğma yurdlarına qayıdacaqlar.

Təki belə olsun, Abuzər müəllim! Biz də sizin nikbinliyinizə şərik olub deyirik: növbəti ad gününüzü Şuşada keçirəsiniz, doğma Cil kəndinə dönə biləsiniz, doğmalarınızın məzari-şərifini ziyarət edə biləsiniz. Bir sözlə, yüz yaşayın, Abuzər müəllim!

*Elçin ƏHMƏDOV*
*Pedaqoji elmlər namizədi, müəllim*

# UCALIQ RƏMZİ

**"Başqaları üçün işıq verən şüa olub özünə də işıq saçmaq. Budur insanın nail olacağı ən yüksək xoşbəxtlik!"**
**Bəxtiyar Vahabzadə**

Abuzər müəllim Azərbaycanın elm, təhsil, mədəniyyət, ictimai siyasi həyatında sayılıb-seçilən, yüksək insani dəyərlərə malik olan bir ziyalıdır. Onun insani keyfiyyətləri bəşər övladı üçün ölçülüb-biçilən bütün xüsusiyyətlərlə üst-üstə düşür. Abuzər müəllim tələbəlikdən akademiklik zirvəsinədək böyük elmi yol keçmişdir. Bu yolda o, daim nailiyyətlər qazanmaqla yanaşı, insanlara xeyirxahlıq, cəmiyyətə isə fayda vermişdir. Abuzər müəllimin həyatının 50 ili universitetlə bağlı olmuşdur. Universitet həyatının müxtəlif sahələrində çalışmaqla yanaşı ali kitabxanaçılıq təhsilinin yaranmasında və təkmilləşməsində əhəmiyyətli rol oynamışdır.

Abuzər müəllimin hər bir insana qayğı ilə yanaşması, onun formalaşmasında düzgün yol göstərməsi, gənc müəllimlərlə müntəzəm işi onun əsl insan olmasından xəbər verir. Hər bir yaradıcı gənclə fərdi iş aparması, ona məsləhətlər verməsi, vaxtını onlara həsr etməsi, onun elmə, təhsilə, mədəniyyətə marağı ilə bərabər qədim xalqımızın gələcəyinə olan qayğıkeşliyin əsl nümunəsidir. Ulu xalqımızın milli, mənəvi dəyərlərini gənc nəslə həvəslə öyrətməsi, onlara doğru yol göstərməsi onun həyat amalıdır. Əsl alim, tədqiqatçı, müəllim şərəfini vəhdətdə yaşadan, onun qədir-qiymətini bilən, onu bütün ləkələrdən qorumağa çalışan akademik Abuzər Xələfov həyata nikbin nəzərlə baxır. Onun həyata baxışlarında müstəqil respublikamızın dünya

birliyində yeri, xalqımızın xoşbəxt gələcəyi, torpaqlarımızın azad olunması kimi prinsipial məsələlər öz əksini tapır. Abuzər müəllimin istər elmi-tədris, istərsə də ictimai-siyasi fəaliyyətində milli ideologiyamızın təşəkkülü və inkişafı önəmli yer tutur. Onun şəxsi keyfiyyətləri həmişə düzgün mövqedə olmasına şərait yaradır. O, nəticə çıxarılacaq hər bir məsələdə ədalətli olmaq, müəllimlərə, tələbələrə, aspirantlara, magistrlərə daim gərəkli olan davranış qaydalarını dərindən bildiyi kimi öyrətməyə çalışmaqla yüksək dəyərlərə malikdir. Abuzər müəllim həm elmdə, həm siyasətdə, həm də ictimai həyatda öz prinsipial mövqeyini nümayiş etdirir, həmsöhbətlərinin nöqsanlarını birbaşa üzə deyir, öz ideyalarını fakt və dəlillərlə sübut edir və bunları əsaslandırır.

Abuzər müəllim görüləcək işin müsbət həllinə çalışan və buna həmişə nail olan insandır. Mən onu şəxsən 18 ildir tanıyıram. Bu müddət ərzində şahid olmuşam ki, öz fəaliyyət sahəsində hansı məsələnin həllinə maraq göstəribsə, o məsələ tam həll olunub.

Professor Abuzər Xələfov doğulub boya-başa çatdığı ulu Göyçə mahalına qəlbən bağlı olan, indi yad əllərdə qalan torpaqlarımızın ağrı-acısını çəkən, Azərbaycanın gələcəyini düşünən ziyalıdır. O, əsl vətəndaş kimi müstəqil ölkəmizdə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, gənc nəslin həqiqi vətənpərvərlər kimi yetişməsi üçün xüsusi fəallıq göstərir.

Başqaları üçün daim xeyirxahlıq etmiş, sağlığında özünə mənəvi heykəl yaratmış bu şəxsiyyət hər cür hörmətə və ehtirama layiqdir. Qarşıdan gələn 70 illik yubileyi münasibətilə hörmətli akademikimizə cansağlığı diləyərək, bundan sonra da layiq olduğu daha yüksək zirvəni fəth etməyi arzulayıram!

*Murad ŞƏMSİZADƏ*
*Baş müəllim*

# 70 BAHAR

Mən Abuzər Xələfovu 1950-ci ildən tanıyıram. O vaxt BDU-nun (S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti) filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinin 3-cü kursunda təhsil alırdım.

A.Xələfov elə bu ildə 1-ci kursa qəbul edilmişdi.

Açıq danışmaq lazımdır: o zaman bu şöbəyə yuxarıdan-aşağı baxanlar az deyildi. Hətta bəzi «alim», «müəllim» kəslər də onlara tərəfdar idilər. Hələ 1-ci kurs tələbəsi olan A.Xələfov belə adınlara məhəl qoymayaraq, deyirdi: «Kim nə deyir, desin, bu şöbənin gələcəyi var. Kitabxanaçılıq təhsili, başqa təhsillərdən əskik deyil».

Xoşbəxtlikdən 1-ci kurs tələbəsinin dediyi, sözün həqiqi mənasında uzaqgörənliyi həqiqət oldu.

O dövrdən 51 il keçir. Bu müddətdə kitabxanaçılıq fakültəsi böyük inkişaf yolu keçmişdir. Cəsarətlə demək olar ki, 54 illik tarixə malik olan BDU-nun kitabxanaçılıq fakültəsi keçmiş Sovet məkanında olan Moskva Mədəniyyət İnstitutunun gördüyü iş səviyyəsinə bərabər fəaliyyət göstərmişdir. Bu fakültənin bütün fəaliyyəti haqlı olaraq 25 il dekan vəzifəsində (1962-1970; 1980-1993) işləmiş A.Xələfovun səmərəli-yaradıcı əməyi ilə bağlıdır.

Hazırda fakültədə çalışan kollektivin üzvləri istehsalatda, yəni müxtəlif kitabxanalarda, başqa mədəniyyət sahələrində müəyyən müddətdə işləmişlər. A.Xələfov bu sahədə istisna təşkil edir. O, 1955-ci ildən, yəni ali təhsili başa vurduqdan sonra kafedrada müəllim saxlandı. Sonra baş müəllim, elmlər namizədi, dosent, elmlər doktoru, professor, 1963-cü ildən indiyə qədər kafedra müdiridir.

Bəli! 38 il kafedra müdiri. Universitet tarixində nadir hadisə.

A.Xələfov fakültənin inkişafında çox böyük zəhmət sərf edib. Hələ fakültə yaranandan 3 il qabaq kitabxanaçılıq şöbəsi 4 il şərq fakültəsinin nəzdində idi (1958-1962). 1959-cu ilin mart ayında kitabxanaşünaslıq kafedrasının ilk müdiri (1947-1959) Ə.H.Qəhrəmanov vəfat etdi. Hamı gözləyirdi ki, yüksək enerjili kadr, təşəbbüskar, böyük ümidlər verən A.Xələfov kafedraya rəhbərlik edəcək. Lakin belə olmadı.

Şərq fakültəsinin dekanı Rəhim Sultanov fars dili müəllimi Həsən Əlizadəni zorla və təzyiqlə kafedra müdiri təyin etdirdi. O zaman kiçik kollektiv olan kafedra üzvləri (A.Xələfov, Z.Əliyev, M.Şəmsizadə) buna etiraz etsələr də, faydası olmadı. Rəhim Sultanov etiraz edənləri sakitləşdirmək üçün deyirdi: «H.Əlizadə kitabxana işini yaxşı bilir». A.Xələfov belə cavab verirdi: «Mən fars dilini nə qədər bilirəmsə, H.Əlizadə də kitabxana işini o qədər bilir».

Söhbətlərin birində R.Sultanov həddini aşaraq dedi: «Məgər kitabxanaşünaslıq elmdir?» A.Xələfovun cavabı sərt və ötkəm idi: «Əlbəttə, kitabxanaşünaslıq elm olsaydı, H.Əlizadə ona rəhbərlik etməzdi».

Böyük şərqşünas alim Mübariz deyirdi: «Rəhim kitabxanaşünaslıq kafedrasını H.Əlizadəyə peşkəş verib».

45 ildir A.Xələfovla bir yerdə işləyirəm. Onun keçirdiyi bütün tədbirlər: kafedra iclasları, diplom müdafiələri, elmi seminarlar əsl məktəbdir, örnəkdir.

O, hər yerdə ölçünü, mizanı gözləyir. Kafedra iclaslarının birində imtahanlara assistent təyin edilirdi. Abuzər müəllim dedi: «İmtahan götürən Aydın Xəlilov, assistent Qara Namazov. Biri tələbkar, biri liberal».

Bütün bu deyilənlərdən başqa Abuzər zəngin təşkilatçılıq təcrübəsinə malikdir. O, şərq fakültəsinin partiya təşkilatının katibi, BDU partiya təşkilatının katib müavini, 20 ilə yaxın BDU-nun partiya komitəsinin üzvü olmuşdur. O, həmişə nahaqdan incidilən, sıxışdırılan tələbələri müdafiəyə qalxmış, onları çətin vəziyyətlərdən xilas etmişdir. Bu haqda çoxlu misallar gətirmək olar. Lakin Abuzər müəllim yaxşılıqları üzə vuran deyil. Yaxşılıq etməyi özü üçün adət sayan A.Xələfov kimi adamlar haqqında böyük özbək şairi Əlişir Nəvai belə deyirdi: «Bu dünya dəryadır, keçmək istəsən, yaxşılıq gəmisinə gərək minəsən!»



A.Xələfovun elmi fəaliyyətində kitabxanaşünaslığın bütün sahələri öz parlaq ifadəsini tapmışdır: kitabxana tarixi, kitabxana fondları və kataloqlarının təşkili, ümumi kitabxanaşünaslıq, oxucularla fərdi iş... Lakin bu qədər yazıb-yaradan, zəhmətkeş alim yoruldum demir! Nəbi Xəzri demişkən:

Dünyada əbədi narahatlığım
Dünyada əbədi rahatlığımdır.

Abuzər müəllim ömrünün 70-ci baharında sevdiyi kollektivə yeni cildli, bahar cildli bir kitab bağışlamışdır.

Mübarək olsun!..

*Akif CƏFƏROV*
***Baş müəllim***

# HƏMİŞƏ ZİRVƏDƏ

1977-ci ilin fevralı idi. BDU-da kitabxanaçılıq kafedrasında baş laborant vəzifəsində işləyirdim. Bir gün Abuzər müəllim məni yanına çağırıb dedi: «Akif, sən böyük bir kollektivdə işləyirsən, buna görə də bütün işçilərin hörmətini qazanmalısan, tək mənə arxayın olmamalısan». Abuzər müəllimin bu ağsaqqal məsləhəti mənə həmişə həyatımda yol yoldaşı oldu. Elə o vaxtdan başlayaraq Abuzər müəllimin gözəl məsləhətləri istər elmi, istərsə də pedaqoji və ictimai fəaliyyətimdə mənə yardımçı oldu. Bunun nəticəsidir ki, sonrakı illərdə «Kitabxanaşünaslıq və biblioqrafiya» ixtisası üzrə BDU-nun aspiranturasının əyani şöbəsini uğurla başa vurdum və fakültədə pedaqoji fəaliyyətə başladım. Bu illər ərzində əziz müəllimimin zəngin elmi pedaqoji fəaliyyətindən bəhrələndim və ilk dəfə olaraq respublikamızda Abuzər müəllimin rəhbərliyi və köməkliyi sayəsində «Kənd təsərrüfatı kitabxanalarının tarixi» üzrə ixtisas kursunu və proqramını yaratdım. Abuzər müəllimin məsləhəti ilə uzun müddətdir ki, kitabxanaşünaslıq kafedrasının nəzdində «Kitabxanaşünaslıq» dərnəyinə rəhbərlik edirəm. Bu dövr ərzində Abuzər müəllimin yetişdirdiyi neçə-neçə tələbənin fakültə və respublika miqyaslı elmi konfranslarda yüksək səviyyəli, məzmunlu çıxışlarının şahidi olmuşam.

Qarşıdan yubiley gəlir. Bu il dekabr ayında BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, kitabxana işinin görkəmli tarixçisi və nəzəriyyəçisi, tarix elmləri doktoru, professor A.Xələfovun 70 yaşı tamam olur. Əziz və hörmətli müəllimimi bu münasibətlə təbrik edir, ona cansağlığı diləməklə Azərbaycan kitabxanaşünaslığının inkişafı naminə yeni-yeni yaradıcılıq zirvələri arzulayıram.

*Murtuz BAĞIROV*
*Baş müəllim*

# MÜDRİK İNSAN

Müəllimlərim haqqında düşünəndə Azərbaycanın ictimai və dövlət xadimi Nəriman Nərimanovun unudulması mümkün olmayan bir kəlamı yada düşür. O, xalqımızın işıqlı gələcəyini, ziyasını iki ziyalı nəslində görürdü. Bunlardan biri müəllim, digəri həkim idi. Həkim xalqın, nəslin sağlamlığının təminatçısı idisə, müəllim xalqın elmə, biliyə, maarifə, mədəniyyətə çatmasının aparıcısı, yol göstərəni, işıqlı ziyası idi. Bəli, bu ziya arxasınca gedənlər böyük-böyük adamlar olurlar, müdrikləşirlər, tarixi şəxsiyyətə çevrilirlər. Mənim müəllimlərimin arasında belə şəxsiyyətlər az deyildir.

Orta və ali təhsil ocaqlarında oxuyarkən sanballı, qibtə etdiyim, həyatımın, fəaliyyətimin qibləgahı saydığım müəllimlərim az olmayıbdır. Bütün müəllimlərimin qarşısında səcdə etməklə üç nəfər müəllimimin adını çəkməkdə iftixar, şərəf duyuram: birincisi, kəskin siyasi təqiblərdən qorxmayaraq elmi həqiqətləri ortaya çıxaran, gözəl kəlamı ilə qədim ədəbiyyat tarixinin sirlərini tələbələrinə çatdıran akademik Həmid Araslıdır; ikincisi, ağlasığmaz tələbkarlıq və ciddiyyətlə, təkrarolunmaz möcüzəliklə dərs dediyi fənnin qanunauyğunluqlarını tələbələrinə öyrətməkdən yorulmaq bilməyən psixologiya müəllimim dosent Məmmədəli Məhərrəmovdur ...

Üçüncü şəxsiyyət isə professor Abuzər Xələfovdur. Onu düz 44 ildir ki, çox yaxşı tanıyıram. Onun şəxsiyyətinə, elmi-pedaqoji və ictimai fəaliyyətinə dərin hörmətim olmaqla yanaşı, onu örnək hesab edirəm. O, Azərbaycan alimlərinin çoxundan tamamilə fərqlənən, təqdir edilməyə layiq olan bir şəxsiyyətdir. Abuzər müəllim ağır və yuxusuz gecələrin zəhmətilə yüksək elmi adlara layiq görülən, öyrə-

nilməmiş və tədqiq edilməmiş qaranlıq kitabxana tariximızın 1500 illik fəaliyyətinə ilk elmi işıq saçdıran, tapılmaz və əvəzedilməz tarixçi alim, aparıcı mütəxəssisdir.

Zəngin elmi irsə malik olan professor A.A.Xələfov özünəməxsus elmi məktəbin yaradıcısı, Azərbaycan kitabxanaşünaslıq elminin banisidir. Abuzər müəllimin elmi, pedaqoji və ictimai fəaliyyəti ilə bağlı keşməkeşli, bəzən təlatümlü, kontraslı məqamlar, səhifələr haqqında düşünəndə bütün sahələrdə onun qələbəsinə adamda iftixar və şərəf hissi baş qaldırır.

Qədim oğuz yurdunun, füsunkar gözəllikləri ilə insanı məftun edən Göyçə mahalının Cil kəndinin yetirməsi olan professor A.Xələfovun ölkəmizdə və onun hüdudlarından kənarda böyük hörmətə malik olmasının sirri görəsən nədədir? Düşünmədən bir məntiqi cavab tapmaq mümkün olur: nəslin təmizliyində və saflığında, özünün zəngin elmi biliyə malik olmasında, humanistliyində, ciddiliyində, prinsipiallığında, yenilməz iradəsində, təşkilatçılıq bacarığında, sadə vətəndaş olmasında, elinə-obasına, xalqına, torpağına, dövlətinə sədaqətində! 70 yaşına çatmasına baxmayaraq yenilik və axtarışlarla yaşamasında və fəaliyyət göstərməsində!

Abuzər müəllimlə birgə işləmək həm asandır, həm çətin. Asandır ona görə ki, onun fakültədə, kafedrada təmin etdiyi elmi, pedaqoji, psixoloji, ictimai və mədəni mühit hər birimizin inkişaf edib formalaşmağımıza imkan verir, şərait yaradır. Çətindir ona görə ki, Abuzər müəllim hədsiz dərəcədə tələbkardır, nöqsanların inkişaf etməsinə imkan verməyəndir, tanıdığı və ünsiyyət bağladığı hər bir adama ağsaqqalcasına, müdrikcəsinə yanaşmağı və ehtiram göstərməyi bacarandır. Abuzər müəllim hər bir məsələni dəfələrlə ölçüb-biçən, onun müsbət və mənfi cəhətlərini axtarıb tapan gözəl pedaqoq, təşkilatçı bir insandır. Abuzər müəllimlə birgə işləmək, onunla ünsiyyət bağlamaqla onu yaxşı tanımaq çox azdır. Onu yaxşı tanımaq üçün, onun



haqqında tutarlı söz demək üçün onun hər bir sadə, mürəkkəb, çətin və ağır məsələləri necə müdrikcəsinə həll etdiyini öyrənib təhlil etmək, onun təşkilati, hüquqi, mənəvi yollarını öyrənmək lazım gəlir. Abuzər müəllim hər bir işi görərkən özünün ideya-mənəvi aləmində vaxt ayırır, təhlil edir, sonra isə qəti sözünü deyir. Bu da ona həmişə başucalığı, şan-şöhrət gətirir. Bütün tələbələri kimi, mən də onu çox sevir, ehtiram göstərməyi özüm üçün borc bilirəm. Bu borc ümumi işimin ahəngini, fəaliyyətimin ideya-məzmununu təşkil edir. Abuzər müəllim kitabxana işimizin, kitabxanaşünaslıq elmimizin çinar ağacıdır. Bu çinar ağacının qol-budaqları 70 yaşı tamam olan alimə sədaqətli olmağı özlərinə əbədi borc bilməlidirlər

*Raifə VƏZİROVA*
*Baş müəllim*

# UNİVERSİTETDƏ İLK MÜƏLLİMİM

Quş qanadlı illər bizi XXI əsrə gətirib çıxartdı. Ancaq o qayğısız tələbəlik illərini yaxşı xatırlayıram. 1960-cı il mənim həyatımda ən sevincli və əlamətdar il idi: Azərbaycan Dövlət Universitetinə daxil olmuşdum. Sevinirdim ki, artıq biz universitet auditoriyalarında qocaman, ağsaçlı alimlərimizin elmi mühazirələrini dinləyəcəyik. Sentyabr ayının 1-i ilk zəng vuruldu. Sinif otağına tələbələrdən çox da seçilməyən bir gənc daxil oldu. Tələbələrin çaşqınlığını hiss edən müəllim çox quru bir tərzdə: - «Mən Sizə kitabxana tarixindən mühazirə oxuyacağam». - dedi.

İlk mühazirədən kitabxananın yaranması və cəmiyyətdə onun rolu haqqındakı söhbəti ilə tələbələrin çoxunun marağına səbəb oldu. Tənəffüs zamanı isə tələbələr arasında belə bir söhbət getdi.

«Vallah, bu bizi imtahanda kəsib doğrayacaq»; digəri: «Çox savadlı, məntiqli danışığı var»; bir başqası: «Zəhmli və zalım müəllimlərdəndir».

Aylar keçdi. Biz Abuzər müəllimin tələbələrin hər birinə necə qayğı ilə yanaşdığının, səmimi söhbətlərinin şahidi olduq. Bəzi tələbələr isə ilk fikirlərində yanıldıqlarını etiraf etməli oldular. Bizim qrup isə Abuzər müəllimin ən çox sevdiyi qrup idi. Çünki 25 nəfər tələbədən 17 nəfəri əlaçı idi. Sinifdə kimin nə çətinliyi olsaydı, Abuzər müəllimə müraciət edərdi. Bilirdik ki, o, tələbələrə çox diqqətlə qulaq asacaq və əlindən gələnköməkliyi edəcəkdir. Qrup nümayəndəsi kimi mən belə hadisələrin çox şahidi olmuşam.

Tale belə gətirdi ki, mən öz müəlimimlə bir fakültədə işlədim. Bu illər ərzində mən Abuzər müəllimi xeyirxah, gözəl alim, zəngin insanlıq keyfiyyətlərinə malik bir şəxsiyyət kimi tanıdım. Abuzər müəllim oxuduğu maraqlı mühazirələri, sakit danışığı, təmkini ilə təkcə öz tələbələri, dostları arasında deyil, böyük ali məclislərdə də hörmət qazanmışdır.

Prinsipiallığı, heç kimin könlünü incitmədən, xətrinə dəymədən, yaranmış şəraitə uyğun hərəkət etməyi bacaran uzaqgörən Abuzər müəllimin taleyinə çox gənc yaşlarından ağsaqqallıq kimi ağır və şərəfli bir yük düşmüşdür. Böyük bir fakültənin yaradıcısı olmaq, onu təkmilləşdirərək tanıtmaq üçün sözün əsl mənasında insanlığın və ziyalılığın zirvəsi olan Şəxsiyyət olmaq lazımdır. Tarixi də məhz belə şəxsiyyətlər yaradır. Dahi Atatürkün dediyi kimi: «Tarixi yazmaq, tarixi yaratmaq qədər mühümdür». Bu baxımdan Abuzər müəllim kitabxana işinin tarixini, həm də onun nəzəri əsaslarını yazmaqla Azərbaycan mədəniyyət tarixinin mühüm bir hissəsini yaratmış oldu.

Abuzər müəllim bu gün də tələbələrin qayğısı ilə yaşayır. Onların problemlərini vaxtında yüngülləşdirməyə və aradan qaldırmağa çalışır.

Respublikamız müstəqillik qazandıqdan sonra yeni əlifbaya keçməklə əlaqədar olaraq tələbələrin köhnə dərsliklərdən istifadəsi çətinləşdi. Bu problemi hiss edən Abuzər müəllim Azərbaycan dilində yeni, həm də latın qrafikasında orijinal dərslik yaratdı. Üç hissədən ibarət nəzərdə tutulan dərsliyin artıq iki hissəsi bir cilddə nəşr edilib tələbələrin ixtiyarına verilmişdir. «Kitabxanaşünaslığa giriş» adlı bu dərslik «Kitabxanaşünaslığın nəzəri əsasları» və «Kitabxana haqqında təlim» bölmələrindən ibarətdir. Dərsliyin dili çox sadə və oxunaqlıdır. Bütün məsələlər aydın, səlis və tələbələrin başa düşəcəyi tərzdə şərh edilmişdir. İndiki iqtisadi çətinlik dövründə bu dərslik bütün kitabxana ictimaiyyəti üçün böyük bir töhfədir.

Deyirlər ki, müəllimin evi kitabxanadır, dövləti şagirddir, sazı, nəğməsi şagirdlərinin sədası, qazancı isə millətin məhəbbət və ehtiramıdır. Bu sərvətlərlə zəngin olan Abuzər müəllim müdriklik dövrünü yaşayır və bu gün də fakültəmi-

zin mayakıdır. O çox böyük ürək açıqlığı ilə hamıya öz nurunu bəxş edir.

Bu xeyirxah işləriniz üçün Allah Sizi hifz etsin Abuzər müəllim!

Gələcək günləriniz ürəyinizcə və arzunuzca olsun!

*Qəmzə HACIYEVA*
***Baş müəllim***

# HÖRMƏTLİ MÜƏLLİM!

Hər sənətin şərəfi onun məqsədindədir. Gənc nəslin əqlinə bilik nuru səpən, onun qəlbində ən nəcib əxlaqi keyfiyyətlərin kök atıb böyüməsinə şərait yaradan müəllimlik sənəti ən şərəfli peşələrdəndir. Görkəmli mütəfəkkir N.Tusi demişdir ki, bu dünyadakı mövcudiyyatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədini güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır. Belə peşə sahiblərindən biri görkəmli alim, mahir pedaqoq, professor Abuzər Xələfovdur. Bu gün nəinki universitetdə, o cümlədən respublikamızda və onun hüdudlarından çox-çox kənarda tanınan bu ağsaqqal, müdrik insan ömrünü elm yolunda, gənc alimlərin, kitabxanaçı kadrların yetişməsində çıraq etmiş və bu çırağın nuruna yüzlərlə insan toplaşaraq ondan bəhrələnmişlər.

Müdriklər demişlər ki, elm sahibləri yalnız elmlərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və özlərinin xeyirxahlığı ilə də seçilməlidirlər.

Şəxsiyyətinə çox böyük hörmət və ehtiram bəslədiyim professor A.Xələfov həmişə fakültəmizin ağsaqqalı olub, istər müəllimlərə, istərsə də tələbələrə böyük atalıq qayğısı ilə yanaşır. Ona hər hansı bir məsələ ilə əlaqədar müraciət etdikdə diqqətlə dinləyib, əlindən gələn köməkliyi edir, dəyərli məsləhətlər verir.

Professor A.Xələfov rayondan gəlib şəhər mühitinə düşmüş yüzlərlə tələbənin burada yaşayıb təhsil alması üçün bir ata kimi şərait yaradıb, onların qayğılarına qalmışdır. Vaxtilə qızların yaşadığı yataqxanada ayrıca bir mərtəbənin bizim fakültənin qızlarına verilməsinə, orada istirahət guşəsi, kiçik kitabxana, mətbəx yaradılmasına nail olmuşdu.

Onun qayğı və diqqətini fakültədə çalışan hər bir orta və gənc nəsil daim hiss edib duyur. Təbii ki, biz də müəyyən yaş dövrü, təcrübə keçsək də əldə etdiyimiz nailiyyətlərə görə ilk növbədə hörmətli müəllimimizə minnətdarıq. Mənim müəllim vəzifəsinə seçilməyimdə ilk xeyir-duanı o vermişdir və sonrakı fəaliyyətimdə də mən onun müəllim, ustad kimi qayğı və diqqətini hiss edib, ona minnətdar olmuşam.

Bu qayğıkeşliklə yanaşı o, həm də ciddi və tələbkardır. Bu tələbkarlığın nəticəsidir ki, onun neçə-neçə aspirantı müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

Ətraflı biliyə, geniş məlumata, zəngin dünyagörüşünə malik professor A.Xələfov həmişə axtarışda olan, öyrənən və öyrədən alim-pedaqoqdur. Onun monoqrafiyaları, elmi əsərləri, dərslik və dərs vəsaitləri tədqiqatçıların və tələbələrin oxuyub öyrəndikləri mühüm mənbələrdəndir. Mühazirələrindəki dərin elmi məzmun, reallıqla bağlılıq, zəngin faktlar indiyə kimi mənim yaddaşımda dərin iz buraxmış və bir müəllim kimi formalaşmağımda böyük rol oynamışdır.

Məşhur fateh İsgəndərdən ən çox kimi - atasını, yoxsa müəllimini sevdiyini soruşduqda, o, cavab vermişdir ki, atam məni bu fani dünyaya gətirmiş, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir. Həyat yolu gənc nəslə bir örnək olan professor A.Xələfov tələbələrinə elmi biliklərə yiyələnməkdə köməklik göstərməklə yanaşı, onların bir insan kimi formalaşmalarında da böyük rol oynayır. O, tələbələrin həmişə hörmətini qazanmışdır. Onun tələbəsi olmağı, onun rəhbərliyi altında tədqiqat işi aparmağı hər bir tələbə özünə fəxr və şərəf bilir.

Hörmətli, əziz müəllimim! Sizin 70 illik yubileyinizi mən də səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, çətin, lakin şərəfli işinizdə uğurlar arzulayıram!

*Sənubər MUSTAFAYEVA*
***Baş müəllim***

# QAYĞIKEŞ ZİYALI

İnsan həyata bir dəfə gəlir və yaşayacağı acılı-şirinli günləri, edəcəyi əməlləri özü ilə gətirir. O, cəmiyyətdə yaşayır, insanlarla təmasda, ünsiyyətdə olur, həyatın enişli-yoxuşlu yollarından keçərək siyasətçi, həkim, sənətkar, incəsənət xadimi və s. kimi yetişir. Hər hansı sənətin sahibi olursansa ol, ürəyi nəcib və saf insan olmalısan. Çünki ən böyük elm insanlıqdır. Yer üzündəki sənətlərdən ən ucası isə müəllimlikdir. Çünki hər elmlərin də təməli müəllimliklə qoyulur.

Həyatda heç kim gərəkli şəxsiyyət kimi dünyaya gəlmir. Bu səviyyəyə qalxanlar böyük zəhmət, fədakarlıq, ardıcıl, məqsədyönlü fəaliyyət tələb edən uzun yol keçməli olurlar. Bu yol yaradıcı işlə məşğul olan, xüsusilə həyatını elmə, maarifə, tələbələrə həsr edən adamlar üçün nə qədər çətin və əziyyətli olsa da, bir o qədər də şərəflidir. Əsl müəllimin ürəyi səma qədər geniş olmalı, hər bir tələbəsini ürəklə duymalı, hiss etməli, ona bir valideyn qayğısı göstərməlidir. Əsl müəllim tələbəni bir baxışdan tanımalı, anlamalıdır. Deyirlər ki, dərinliklərdəki işığı görmək hər adamın hünəri deyil. Məncə bu hünər əsl müəllimə xasdır.

Belə şəxsiyyətlərdən biri də ürəkdolusu fərəhlə adını qeyd etmək istədiyim Azərbaycanın əməkdar mədəniyyət işçisi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, elm və təhsil sahəsindəki xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülmüş professor Abuzər Xələfovdur.

Abuzər müəllimin respublikada kitabxanaşünaslıq elmi sahəsində görkəmli alim olması sirr deyil. Onu hamı tanıyır! Ona görə də adama elə gəlir ki, Abuzər müəllim haqqında söz demək çox asandır. Amma abuzər müəllim haq-

qında söz demək nə qədər şərəfli olsa da, bir o qədər də məsuliyyətlidir. Çünki Abuzər müəllim haqqında deyilən hər bir sözü "yüz ölçüb bir biçmək" lazım gəlir. Bu da onun daxili zənginliyindən, hər sözə məsuliyyətlə yanaşmaq hissindən, tələbkarlığından irəli gəlir. Nə qədər məsuliyyətli olsa da Abuzər müəllim haqqında ürək sözlərimi demək mənim sadəcə vicdani borcumdur. Çünki bütün tələbələrinin üstündə Abuzər müəllimin böyük haqqı vardır.

Deyirlər ki, dahilik sadəlikdir. Abuzər müəllim çox sadə insandır. Onun xarici görkəmindəki zəhmdən çəkinsən də ilk söhbətdən, ilk sözdən nə qədər mehriban bir insan olduğuna əmin olursan.

Abuzər müəllim həmişə öz tələbələrinə deyir ki, "Hər işin öz vaxtı-vədəsi var. Pillələri asta-asta, bircə-bircə qalxmaq lazımdır". O, tələbələrlə ilk tanışlıq günlərindən elmin, biliyin nə qədər çətin, lakin şərəfli yol olduğu haqqında söhbət açır. Biliyin kökünün acı, meyvəsinin isə şirin olduğunu tələbələrə izah edir.

Bundan əlavə, Abuzər müəllim öz tələbələrinə ata qayğıkeşliyi ilə yanaşır. Qayğıkeşlik dedikdə öz tələbəlik illərimi xatırlayıram.

Hər birimizin yaddaşı xronoloji hadisələr toplusundan ibarətdir. Mənim də yaddaşımda parlaq bir səhifə vardır. Şəxsi taleyimdə misilsiz rol oynamış, ömür yolumu işıqlandırmış bir səhifə.

1964-cü ildə Bakı Kitabxanaçılıq Texnikumunu fərqlənmə diplomu ilə bitirib təhsilimi davam etdirmək üçün sənədlərimi Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə verdim. 1968-ci ildə artıq universitetin sonuncu kursunda oxuyurdum. Abuzər müəllimin tələbəsiydik deyə, qrupumuzda elmə, biliyə böyük həvəs var idi. Oxumaq, öyrənmək, biliyə nail olmaq hər birimizin arzusu idi. Mən də əlaçıydım. Abuzər müəllim dekanımız idi. Təhsilimin son aylarında o, məni yanına çağırıb bir ata mehribançılığı, ata



qayğıkeşliyi ilə sənədlərimi hazırlamağı tapşırdı. "Səni laborant vəzifəsində işləməyə götürürəm". Sonra o əlavə etdi: "Zirvələrin yolu təpəciklərdən başlanır... Təbii ki, səbrli olanlar üçün..." Onun dediyi bu sözlər indi də yadımdadır.

Mənim də müqqədəs, məsuliyyətli müəllimlik həyatımın ilk qədəmləri belə qoyuldu. Əlbəttə ki, qayğıkeş müəllimimin xeyir-duası ilə...

Bu Abuzər müəllimin ömür yolunda etdiyi yaxşılıqlardan ən kiçiyidir, - desəm, yanılmaram. Ümmanda bir damla kimi...

Abuzər müəllim indi də öz yetirmələrini, aspirantları, dissertantları yadından çıxarmır, əlindən gələn köməyi əsirgəmir. Onun böyüklüyü sadəliyində və paklığındadır! O, insanlara etdiyi köməklik üçün, yaxşılıq üçün onlardan heç bir əvəz, heç bir təmənna ummur! Odur ki, yetirmələri də bu gözəl alimin qayğısından bəhrələnərək yeri gəldikcə öz müəllimlərinin, ustadlarının etimadını doğrultmağa çalışırlar.

Abuzər müəllim haqlı olaraq deyir ki, tələbələrimin inkişaf etməsini gördükdə özümü xoşbəxt hesab edirəm. Əsl müəllim olan belə düşünər. Deməli, Abuzər müəllim doğrudan da xoşbəxtdir. Çünki o, əkdiyi ağacın bəhrəsini görən gözəl insan və əsl qayğıkeş müəllimdir. Biz də şöhrət qazanmış Abuzər müəllimlə fəxr edir, onu sevir, 70 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və elmin ucsuz-bucaqsız yollarında daha uca zirvələr arzulayırıq!

***Ramiz HƏMİDOV***
***Kitabşünaslıq və nəşriyyat işi kafedrasının baş müəllimi***

## İDEAL İNSAN

İnsan o zaman özünü xoşbəxt hiss edir ki, həyatda sözün həqiqi mənasında ideal insanlara rast gəlir. Mənim həyatımda belə ideal insan adı, sənəti, əməli ilə ətrafdakılardan həmişə fərqlənən professor Abuzər Xələfovdur.

Əvvəllər tələbəsi, son zamanlar isə əməkdaşı olduğum kitabxanaçılıq fakültəsinin qurucusu, rəhbəri, ağsaqqalı olan Abuzər Xələfov.

Özümü xoşbəxt sayıram ki, gənclik arzu və ehtirasları ilə, oxumaq, öyrənmək, ucalmaq eşqi ilə alışıb-yandığım bir dövrdə tələbələrin qayğısını öz qayğısı hesab edən Azərbaycanın görkəmli ziyalısı, hamının hörmət etdiyi Abuzər müəllimin tələbəsi olmuşam. Elmi fəaliyyətimdə, həyatda qazandığım bütün nailiyyətlərdə bu insandan öyrəndiklərimin böyük rolu olmuşdur.

Mən bir kitabşünas kimi professor A.Xələfovun Azərbaycanda kitabşünaslığın inkişafında göstərdiyi xidmətləri çox yüksək qiymətləndirirəm.

Onun təşəbbüsü və böyük səyi ilə kitabxanaçılıq fakültəsində 1972-ci ildə kitabşünaslıq ixtisasının əyani şöbəsi açılmışdır. Məhz Abuzər müəllimin təklifi ilə həmin ixtisası bitirən məzunlar Respublika Dövlət Nəşrkomuna və «Azərittifaq»a təyinat aldılar. Mən də bu yol ilə «Azərittifaq»a göndərildim və 20 ildən çox orada rəhbər vəzifələrdə çalışdım.

Bakı Dövlət Universiteti kitabşünaslıq və nəşriyyat işi kafedrasının da əsasını qoyan Abuzər müəllim olmuşdur. Nəşriyyatların kadrlara olan tələbatını nəzərə alaraq professor haqlı olaraq «Kitab ticarətinin təşkili» ixtisasının «Nəşriyyat işi və redaktəetmə» ixtisası ilə əvəz olunması



barədə məsələ qaldırmış və bu kafedranın daha da möhkəmlənməsi, inkişaf etməsi üçün səyini əsirgəməmişdir.

İdeal o şəxsi hesab edirlər ki, o, həyatın bütün sahələrində hamıya nümunə olsun. Abuzər müəllim belə insandır. O, nəinki banisi olduğu, uzun müddət rəhbərlik etdiyi kitabxanaçılıq fakültəsinin müəllim və tələbə heyətinə ağsaqqallıq edir, eləcə də bütün universitet kollektivinin sevimlisidir. Bakı Dövlət Universitetinin bütün kollektivi ona ideal bir insan kimi baxır, ondan öyrənir.

Həyatını Azərbaycan xalqının maariflənməsinə, təhsilinə həsr etmiş əsl insan, görkəmli və işıqlı ziyalı, professor A.A.Xələfovu 70 illik yubileyi münasibəti ilə təbrik edirəm! Ona cansağlığı, uzun ömür və həmişə başucalığı arzulayıram!

*Xudayar QULİYEV*
***Bakı Mədəni-Maarif Texnikumunun aparıcı ixtisas müəllimi, «İlin ən yaxşı müəllimi» müsabiqəsinin qalibi, ali kateqoriyalı müəllim***

# KİTABXANAÇILAR ORDUSUNUN SƏRKƏRDƏSİ

Müəllimlər müəllimi, 40 il bundan əvvəl mənim və minlərlə mənim kimilərin müəllimi olmuş tarix elmləri doktoru, professor, Azərbaycanın əməkdar mədəniyyət işçisi, BDU-nun kitabxanaçılıq fakültəsinin ilk dekanı, kitabxanaşünaslıq kafedrasının müdiri, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü Abuzər Alı oğlu Xələfov! Sizi neçə-neçə monoqrafiyanın, elmi məqalələrin, tədris-metodik materialların, tərcümə və redaktə etdiyiniz neçə-neçə əsərlərin, rəhbərlik və rəsmi opponentlik etdiyiniz doktorluq və namizədlik dissertasiyalarının müəllifini elmi-pedaqoji və ictimai fəaliyyətinizin ən müdrik dövründə, 70 illik yubileyiniz münasibətilə təbrik edirəm. Sizə Qafqaz uzun ömürlüyü, cansağlığı, ailə səadəti, nəvə-nəticə sevinci arzulayıram.

Hörmətli müəllimim, fəxr edirəm ki, Sizin tələbəniz çağrılır adım. Fəxrlə deyə bilərəm ki, Sizin öyrətdiklərinizi uzun illərdir orta ixtisaslı milli kitabxanaçı kadrlarımızın yetişdirilməsinə sərf edirəm. Arxayın ola bilərsiniz ki, estafet etibarlı əllərdədir. Öz həyatını BDU-nun kitabxanaçılıq fakültəsi ilə bağlayan alimlər arasında xüsusi yer kitabxana işinin görkəmli tarixçisi və nəzəriyyəçisi, respublikada ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biri olan Sizə məxsusdur. Azərbaycanda işləyən kitabxanaçı kadrların hamısının ürəyindən olar ki, Sizi kitabxana ocağının Prometeyi, kitabxanaçılar ordusunun sərkərdəsi adlandırım.

Mənim ən böyük arzum Sizi Milli Akademiyamızın akademiki görməkdir. İnşallah! Bir daha Sizi ürəkdən təbrik edirəm, 100 illik yubleyinizdə də belə gumrah, sağlam, təravətli və müdrik olasınız!

*Azər HÜSEYNOV*
***Nəsimi Rayon***
***Bələdiyyəsinin sədr müavini***

# QİBTƏ ETDİYİM DƏYƏRLİ İNSAN

Mənim həyatda yaxşı mənada qibtə etdiyim şəxsiyyətlər arasında mənəvi keyfiyyətləri qarşısında baş əyməyə hazır olduğum insanlar az deyildir. Belə şəxsiyyətlərdən biri də dərin hörmət bəslədiyim, sözün əsl mənasında böyük insan, görkəmli pedaqoq Abuzər Xələfovdur.

44 ildən artıq tanıdığım müəllimin A.Xələfov yaddaşıma prinsipial, büllur kimi pak, əməksevər pedaqoq, qayğıkeş insan kimi həkk olunmuşdur. Tarix elmləri doktoru, professor, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, respublikanın əməkdar mədəniyyət işçisi fəxri adlarını şərəflə, ləyaqətlə daşıyan A.Xələfov bu mötəbər titullara yalnız öz gərgin elmi axtarışları, bu elmi axtarışların bəhrəsi olan bir neçə dəyərli dərslik, monoqrafiya və yüzlərlə əsərləri ilə nail olmuşdur.

Kitabxanaşünaslıq elminin formalaşmasında böyük xidmətləri olan A.Xələfov həm də respublikamızda bu elmin inkişafına böyük təkan verən kitabxanaşünaslıq kafedrasının yaradıcısıdır. A.Xələfov 40 ildən artıqdır ki, bu kafedraya rəhbərlik edir.

Bu istedadlı alim Azərbaycanda kitabxanaçı kadrların hazırlanmasında, gənc nəslin yetişdirilməsində böyük əmək sərf etmişdir. Belə ki, 1962-ci ildə BDU-da kitabxanaçılıq fakültəsinin yaranmasında xüsusi əməyi olmuş A.Xələfov həmin sahə üzrə kadrlara olan böyük tələbatı nəzərə alaraq, fakültənin axşam və qiyabi şöbələrini təşkil etmişdir. Kitabxanaşünas alimlərin yetişməsində və formalaşmasında da böyük əmək sərf etmiş onlarla elmlər namizədi hazırlamışdır.

A.Xələfov müdafiə şurasının üzvü kimi də fəallıq göstərir. Bu mənada o, BDU-nun tarix ixtisası üzrə müdafiə şurasının və Rusiya Federasiyası Dövlət Kitabxanası müdafiə şurasının üzvüdür.

Təhsil Nazirliyində təşkil olunmuş kitabxanaşünaslıq və biblioqrafiya vahid elmi metodik şurada onun sədr kimi fəaliyyəti çox səmərəlidir. Bir çox tədris proqramları, tövsiyələr, kitabxanaşünaslıq və biblioqrafiyaya dair araşdırmalar məhz bu komissiyada öz həllini tapmışdır.

Professor A.Xələfovun uzun illər səmərəli elmi-pedaqoji fəaliyyəti nəzərə alınaraq o, müstəqil Azərbaycanın «Şöhrət» ordeninə layiq görülmüşdür.

Məmnunluq hissi keçirirəm ki, sevimli müəllimim, böyük insan Abuzər müəllimin 70 illik yubileyi qeyd edilir. Tələbəsi kimi mən ona möhkəm cansağlığı, ailə səadəti, elmi-pedaqoji işində uğurlar arzu edir və Ulu Tanrıdan diləyirəm ki, zəkası daha iti, qələmi işlək olsun!

*Dəmir BAYRAMOV*
*M.F.Axundov adına Azərbaycan*
*Dövlət Kitabxanası elmi-metodik*
*kitabxanaşünaslıq şöbəsinin müdiri*

# FİTRİ İSTEDAD SAHİBİ

Hörmətli Abuzər müəllim!

Bu gün tarix elmləri doktoru, professor (titullarınız çoxdur, saymaqla bitmir) adlarına layiq görülmüş Sizi mən 1955-ci ildən, yəni Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq şöbəsində mənə dərs dediyiniz vaxtdan tanıyıram.

Abuzər müəllim, fəxr edirəm ki, Siz hələ o dövrdə öz fitri istedadınız və qabiliyyətiniz sayəsində universitetin böyük müəllim kollektivi arasında sayılıb-seçilirdiniz.

Hörmətli professor, yaradıcı və təşkilatçı alim kimi Sizin qələminizdən çıxan xeyli sayda dərs vəsaiti, dərslik və monoqrafiyalarınız, eləcə də kitabxana işinin müxtəlif mövzularına və aktual məsələlərinə həsr olunmuş yazılarınız qəzet və jurnal səhifələrində çap olunaraq, müstəqil respublikamızın kitabxana işçilərinə çatdırılmış və onlar tərəfindən həmişə minnətdarlıqla qarşılanmışdır.

Abuzər müəllim, Siz geniş dünyagörüşünə malik olan bir alim kimi, respublikamızın mədəni və siyasi həyatında baş verən hadisələrə həmişə öz obyektiv münasibətinizi bildirmiş, problemlərin aradan qaldırılması üçün dəyərli tövsiyələrinizi vermişsiniz.

«Kitabxana işi haqqında» Azərbaycan Respublikası qanununun hazırlanmasında və onun təsdiq olunmasında Sizin xidmətləriniz respublikamızın kitabxana ordusu tərəfindən sevinclə qarşılanmaqdadır. Kitabxana işinə dair bu dəyərli qanun kitabxanaçıların stolüstü sənədinə çevrilmişdir.

Abuzər müəllim! Sizi 70 illik yubileyiniz münasibəti ilə səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları diləyirəm!

*Tahir SADIQOV*
*C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru*

# SİZİNLƏ FƏXR EDİRİK

Çox hörmətli Abuzər müəllim!

Mən, Sizi anadan olmağınızın 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, şərəfli həyat yolunuzda Sizə cansağlığı və uzun ömür arzulayıram!

Siz uzun illər respublikamızda kitabxanaçılıq fakültəsinə başçılıq etməklə öz məktəbinizi yaratmış alimlərdənsiniz. Bu məktəbi bitirmiş minlərlə gənclərimiz hazırda xalq təsərrüfatının müxtəlif sahələrində işləyir və professor Abuzər Xələfovun tələbələri olmaqla fəxr edirlər. Sizi respublikamızın bütün kitabxana ictimaiyyəti tanıyır və Sizə hörmət edir.

Cəsarətlə demək olar ki, Azərbaycanda kitabxanaçı kadrların hazırlanması məhz professor Abuzər Xələfovun adı ilə bağlıdır. Siz bu kadrlara təkcə müəllim yox, həm də mənəvi ata olmuş, onların tələbəlik illərində bütün problemlərinin həllində müstəsna rol oynamısınız. Bütün bunların nəticəsidir ki, respublika kitabxanalarında Sizin 70 yaşınız böyük məhəbbətlə qeyd edilir.

Sizin fəaliyyətiniz dövlət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Belə ki, 2000-ci ildə hörmətli prezidentimiz H.Əliyevin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif olunmağınız buna əyani sübutdur.

Hörmətli Abuzər müəllim! Siz hazırda müdriklik dövrünüzü yaşayırsınız. Biz inanırıq ki, Siz bundan sonra da respublikamızın mədəni həyatında mühüm işlər görəcək və respublikamızda kitabxanaçı kadrların hazırlanmasında ön sırada olacaqsınız. Bu xeyirxah işdə Sizə müvəffəqiyyətlər arzulayırıq!

*Seymur ŞEYDAYEV*
*Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı*

## 70 İLİN YAŞANTISI

Abuzər Xələfov! Bu ad nəinki Azərbaycanın, eləcə də keçmiş SSRİ məkanının elm, mədəniyyət aləmində çox hörmətlə çəkilən adlardan biridir. Azərbaycanda kitabxanaçılıq fakültəsinin və kitabxanaşünaslığın yaradıcısı olan Abuzər müəllim aspirantlıqdan elmlər doktorluğuna, adi müəllimlikdən kafedra müdiri və fakültə dekanlığına qədər çox şərəfli bir yol keçmişdir. Bu illər ərzində onlarla elmlər namizədi yetişdirən Abuzər Xələfov həmişə öz yeniyetmələrinə qarşı çox tələbkar olub. Onun yetirmələri tələbkarlıqla yanaşı bu böyük ürəkli insanın qayğıkeşliyini də həmişə hiss ediblər.

Azərbaycanın sabahını gənclərimizdə görən Abuzər müəlim öz dəyərli məsləhətləri və təəssübkeşliyi ilə onları bədniyyətli insanların məkrindən qoruyub. Bu gənclərdən biri də mən idim. 1982-ci ildə kitabxanaçılıq fakültəsinə qəbul olanda birinci bizi təbrik edən şəxs fakültənin dekanı, üz-gözündən ziyalılıq yağan professor Abuzər Xələfov oldu. Sonrakı təhsil dövründə mən bu insanın qayğıkeşliyinin çox şahidi oldum. Heç yadımdan çıxmaz, III kursda oxuyurdum, maddi durumum o qədər də yaxşı deyildi. Bir az çətinlik çəkirdim. Tələbə yoldaşlarımdan biri mənə gecə gözətçisi işləməyi təklif etdi. Çox sevindim və razılaşdım. Lakin işə girmək üçün mənə dekanlıqdan arayış lazım idi. Ona görə də həmin dövrdə fakültənin dekanı olan Abuzər müəllimə müraciət etdim. O məni dinləyəndən sonra, soruşdu ki, nə qədər əmək haqqı alacam və bu iş mənə təhsilimdə çətinlik yaratmayacaqmı? Çünki o vaxt mən həm əla oxuyurdum, həm də fakültə tələbə həmkarlar təşkilatının sədri idim. Mən cavab verərək bildirdim ki, çətinlik olsa da

işləməyim vacibdir. Abuzər müəllim bir qədər fikirləşəndən sonra katibəni çağırıb dedi ki, Seymurun adlı təqaüd alması üçün sənədlərini hazırla. Mən bir aydan sonra Elmi Şuranın təsis etdiyi adlı təqaüdü (90 rublu) almağa başladım və işləməyə ehtiyac qalmadı.

Abuzər müəllim işlədiyi dövrlərdə fakültənin şərəfini yüksək tutub və onun nüfuzuna xələl gətirən hallara qarşı həmişə mübarizə aparıb. O, ayda bir-iki dəfə tələbələrimizin yaşadığı yataqxanalara gedərək onların sosial-məişət məsələləri ilə maraqlanırdı. Belə gedişlərin birində müəyyən olundu ki, qızların yaşadıqları yataqxananın dörd mərtəbəsində istirahət guşələri yaradılıb, bizim qızların yaşadıqları beşinci mərtəbədə isə yaradılmayıb. Fakültəyə qarşı bu cür münasibət Abuzər müəllimə çox pis təsir etdi və həmin günün səhərisi mənim yanımda universitetin təsərrüfat işləri üzrə prorektoruna zəng vuraraq təcili olaraq bizim qızların yaşadıqları yataqxananın beşinci mərtəbəsində istirahət guşəsi yaradılmasını çox sərt şəkildə tələb etdi. Məhz Abuzər müəllimin səyi nəticəsində üç günün içində bizim qızlar üçün gözəl bir istirahət otağı yaradıldı.

Abuzər müəllim öz millətinə, dilinə, dininə və adət-ənənəsinə bağlı insandır. Bu gözəl insanı sevdirən əsas cəhətlərdən biri də yaranmış problemləri ədalətlə həll etməsidir. Bütün bu cəhətləri özündə birləşdirənlər Allahın ən sevimli bəndələri sayılır. Abuzər müəllim islam dinin müqəddəs yerlərini də ziyarət edərək hacı, kərbəlayi, məşədi adlarını da aldı.

Abuzər mülləm bu gün də öz dəyərli məsləhətləri ilə gəncləri düzgün yola istiqamətləndirir, onların istər elm və təhsil, istərsə də şəxsi həyatlarında problemlərin həll olunmasına yaxından kömək edir. Bu gün onun yetirmələri Azərbaycanın müxtəlif dövlət strukturlarında çalışaraq dövltəçiliyimizin və müstəqilliyimizin qorunmasında yaxından iştirak edirlər.



**70 yaş!** Bəşər övladının müdrüklük çağı, ağsaqqallıq dövrü, kövrək dörün yaşantısı. İnsan müdrükləşə-müdrikləşə ağsaqqallaşır və ağsaqqallaşdıqca kövrəkləşir. Bu müdrikliklə, ağsaqqallıqla kövrəkləşə-kövrəkləşə 70 yaşına xoş gəldin, əziz müəllimim!

*Afiqə CƏFƏROVA*
***Bakı Dövlət Universiteti nəşriyyatının əməkdaşı***

## MÜQƏDDƏSDİR ALİMLƏRİMİZ

*Müqəddəs insandır alim olanlar*
*Ən uca zirvəyə layiqdir onlar*
*Günəş tək dünyaya işıq salanlar,*
*Dahilərimizdir alimlərimiz.*

Professor Abuzər Alı oğlu Xələfov Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin ilk yaradıcı alimidir. Görkəmli alimin 70 illik yubileyinin qeyd edilməsiylə bağlı fakültədə hazırlanan jurnal materialının redaktəsi mənə həvalə edilib. Oradakı təəssüratları oxuduqca, qəlbim fərəhlə doldu. Axı, professor Abuzər Xələfov mənim də müəllimim olmuşdur. Onun kitabxanaşünaslığın sirlərini öyrətdiyi tələbələrindən biri də mən olmuşam.

Yuxarıda qələmə aldığım kiçik şer parçası da məhz müəllimə məhəbbətdən, sayğıdan irəli gəlmişdi. Fikirləşdim ki, 1972-1973-cü illərdə müəllimim olmuş bu yaxşı insan, böyük şəxsiyyət və görkəmli alim haqqında hər bir tələbəsi kimi, mən də öz ürək sözlərimi deməyə borcluyam. Çünki professor A.Xələfov buna layiq insandır. Onun üçün də alimin şəxsiyyətinə, böyüklüyünə olan hörmət və ehtiramımı mərhum türkoloq alim və şair Cəfər İsmayıl oğlu Cəfərovun xalq şairi Səməd Vurğunun «50 illik» yubileyinə həsr etdiyi «Səni» şerinin bir hissəsindən istifadə edib şerdə bəzi dəyişikliklər edərək onu təbrik edir, «doğum gününüz mübarək» deyir və uğurlar arzulayıram!

*Müəllim, salamlayır «70» yaşında,*
*Çiçəkli çəmənlər, al güllər Səni.*
*Sevir ürək kimi, sevir can kimi,*
*Dilinin əzbəri tələbələr Səni.*



*Demə ağartmışam qara saçları,*
*Şiş uclu dağların olmazmı qarı?!*
*Sən ey universitetin fəxri, vüqarı,*
*Cavan yaşadacaq könüllər Səni.*

*Söylə, qocalarmı əsl sənətkar,*
*Ruhunu, eşqini eldən alanlar?*
*Hələ çox baharın, çox bayramın var,*
*Qocaltmaz bu hünər, bu vüqar Səni.*

*Zöhrə CAMALOVA*
*Kitabxana işinin təşkili və idarə olunması laboratoriyasının müdiri*

## SƏDAQƏT MEYARI

Doğru deyirlər ki, əsl vətəndaş üçün iş yeri ikinci ailə, kollektivdə çalışanlar isə ailə üzvləri olmalıdır. Doğma Vətənini, doğma xalqını sevən hər bir kəs iş yerində özünü ailədəki kimi hiss etməli, iş yoldaşları ilə qaynayıb-qarışmalı, lazım gələndə onların köməyinə çatmağı bacarmalı, öz vəzifəsini can-başla yerinə yetirməlidir. Əlbəttə, çox vaxt sıravi əməkdaşlar, xüsusilə yenicə əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər çiyin-çiyinə çalışacaqları işçilərlə yanaşı, ilk növbədə kollektivə başçılıq edən vəzifəli şəxsdən nümunə götürürlər. Rəhbərə məxsus xüsusiyyətlər kollektiv üzvlərinə də sirayət edir. Bu baxımdan heç kəsə sirr deyil ki, Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsində işə düzələn kadrlar ənənəvi olaraq kollektivimiz üçün əsl ağsaqqal sayılan professor Abuzər Xələfovun tə'lim-tərbiyə, ədəb-ərkan, nizam-intizam məktəbindən də dərs almalı olurlar.

Mən 25 ildir ki, Abuzər müəllimin rəhbərlik və ağsaqqallıq etdiyi kollektivdə fəaliyyət göstərirəm. Şəxsiyyətinə bələd olduğum bu nurani insan ötən müddət ərzində mənim nəzərimdə insanlığın ən yüksək zirvəsinə qədər ucalmışdır. Onun mənəvi saflığı, əqidə təmizliyi, işgüzarlığı, obyektivliyi təkcə mənim üçün yox, digər iş yoldaşlarım üçün də pozulmaz meyar olmuşdur. Professor Abuzər Xələfov özünə, mənliyinə, şəxsiyyətinə hörmət etməyi və onunla ünsiyyətdə olan insanların şəxsiyyətini düzgün qiymətləndirməyi bacaran şəxsdir.

Etiraf etməliyəm ki, kitabxanaşünaslıq kafedrasında uzun illər ərzində can-başla işləməyin həqiqi səbəbkarı da məhz vicdanlı, mənəviyyatlı, qayğıkeş insan kimi dərin rəğbət bəslədiyim müəllimim Abuzər Xələfov olmuşdur. O,



təkcə başçılıq etdiyi kollektivin üzvlərinə deyil, həmçinin müxtəlif fakültə və kafedralardan məsləhət üçün yanına gələn şəxslərə də qayğı ilə yanaşmış, imkan daxilində kömək göstərmiş, təmənnasız yaxşılığını əsirgəməmişdir.

Abuzər müəllimin ən üstün keyfiyyətlərindən biri də kitabxanaşünaslıq və biblioqrafiya ixtisası ilə bağlı bütün yenilikləri yorulmadan təbliğ etməsi, müəllim-laborant heyətini müntəzəm olaraq təkmilləşməyə çağırması, kitabxanaşünaslıq fakültəsinin nüfuzunu həmişə və hər yerdə qoruyub saxlamasıdır. Onun zəngin biliyi, çoxillik təcrübəsi və tükənməz enerjisi daim kitabxanaşünaslıq elmini inkişaf etdirməyə imkan verir.

Birgə fəaliyyət göstərdiyimiz illərdə mən dəfələrlə şahidi olmuşam ki, Abuzər müəllim Azərbaycanda kitabxana işi tarixini dərindən araşdırılıb öyrənilməsi, kitabxanaçı kadrların yetişdirilməsi üçün necə ürəklə, necə həvəslə çalışır. Bəzən kiatbxanaşünaslıq sahəsində xor baxan üzdəniraq ziyalıları susdurmağı da görkəmli alim Abuzər Xələfov çox yaxşı bacarır. Cəmiyyətdə kitabın və kitabxananın rolunu bilməyən belə şəxslərin Abuzər müəllimin dəmir məntiqi qarşısında susub qaldığını və səhvini etiraf etdiyini görəndə həmişə dərin sevinc hissi keçirmişəm.

Ağsaqqalımız Abuzər Xələfovun 70 yaşı tamam olur. Bu illər ərzində o, nələr etməyib, hansı zirvələrə yüksəlməyib?! Bu gün kitabxanaçılıq sahəsindən söz açılanda dərhal ilk növbədə Abuzər müəllimin adı çəkilir. Bundan böyük xoşbəxtlik ola bilərmi?!

Səmimi insan, qayğıkeş rəhbər, məşhur alim Abuzər Xələfovu yubileyi münasibəti ilə səmim-qəlbdən təbrik edir, ona can sağlığı və uğurlar arzulayıram!

*Solmaz SADIQOVA*
*Biblioqrafiyaşünaslıq kafedrasının əməkdaşı*

# MƏNALI ÖMÜR

Abuzər müəllim! Sizin bütün şüurlu həyatınız və fəaliyyətiniz Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsi ilə bağlı olmuşdur. Siz fakültəmizin canlı tarixisiniz. Bunu mən bir daha Sizin həyat və fəaliyyətinizin tədqiqi zamanı təsdiq etdim. Mən çox şadam ki, Sizin kimi görkəmli mədəniyyət xadimi, Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, BMT yanında BİA-nın həqiqi üzvü, əməkdar mədəniyyət işçisi, kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor, sözün əsl mənasında ziyalı haqqında çap olunmuş biblioqrafik məlumat kitabının tərtibçilərindənəm.

V.M.Şukşin yazırdı ki, ziyalı adam - bu çox məsuliyyətli sözdür. Bu elə dərin mənalı və ciddidir ki, bu sözün əsl məsuliyyəti haqqında tez-tez fikirləşməyə dəyər. Ondan başlayaq ki, ziyalı adam nadir hadisədir. Bu - narahat vicdandır, ağıldır, bu, dünyada güclünün «qüdrəti bahasına» həmahəng olaraq, «dəm tutmaq» tələb olunanda susmaqdır, lənətə gəlmiş «həqiqət nədir?» sualına cavab axtaranda öz-özünlə apardığın daxili mübarizədir, vüqardır... və xalqın taleyinə yanıb kül olmaqdır, zəruririyyətdir, əzab və əziyyətdir. Əgər bütün bunlar bir adamda varsa, o ziyalıdır. Bütün bunların hamısı Sizdə cəmləşmişdir.

Abuzər müəllim! Siz ömrünüzün beşinci yaş dövrünü yaşayırsınız. Yəni piranilik dövrünü. Qarşıda nuranilik və uzunömürlülük dövrü gəlir.

Leonardo da Vinçi demişdir: «Mənalı yaşamış hər bir ömür - uzun ömürdür».

Sizə mənalı həyatınızda uzun ömür arzu edirəm!

**70 yaşınız mübarək!**

***Hicran İSMAYILOVA***
***Kitabxanaçılıq-informasiya***
***fakültəsinin magistri***

# FAKÜLTƏMİZİN CANLI TARİXİ

*2001-ci il Azərbaycan elm və mədəniyyətinin bayramı ildir. Bu ilin dekabr ayında ölkəmizin elm, mədəniyyət və xüsusən kitabxana ictimaiyyəti xalqımızın kitab və kitabxana mədəniyyətini, onun təşəkkülü və yüksəliş tarixini yaradan və beynəlxalq aləmdə təmsil edən böyük alim, pedaqoq, şəxsiyyət və vətəndaş Abuzər Alı oğlu Xələfovun anadan olmasının 70 illik yubileyini iftixar hissilə qeyd edirlər.*

Onun zəngin yaradıcılıq yolu elm, təhsil və mədəniyyət işçilərinin, tələbələri olmuş müasir kitabxanaçılar nəslinin keçdiyi şərəfli yoldur.

Azərbaycanda müasir kitabxana işinin bütün nailiyyətləri, XX əsrin ikinci yarısında kitabxanaşünaslıq elm və təhsilinin əlamətdar hadisələri bu alim və vətəndaşın adı ilə sıx bağlıdır.

Mən Abuzər müəllimi ilk dəfə 1993-cü ildə BDU-nun kitabxanaçılıq fakültəsinin birinci kursunda görmüşəm və ilk gündən onun insani və pedaqoji xüsusiyyətlərinə heyran olmuşam.

Açığını desəm, professor Abuzər Xələfovun mühazirələrinə qədər mən kitabxanaçılıq peşəsinə laqeyd münasibət bəsləyirdim.

Abuzər Xələfovun kitabxanaşünaslıq və kitabxana tarixinə dair mühazirələri, cəmiyyətin inkişafında kitab, mütaliə və kitabxanaların rolu haqqındakı fikirləri məndə bu ixtisasa dərin məhəbbət hissi oyatdı və bu peşəni ömürlük seçdim.

Kitabxanaçılıq fakültəsini bitirib diplom işini müvəffəqiyyətlə müdafiə etdikdən sonra bir daha Abuzər müəllimin mənə qarşı atalıq və müəllimlik qayğısının şahidi ol-

dum. Belə ki, onun xeyir-duası ilə 1997-ci ildə kitabxanaçılıq fakültəsinin magistraturasına daxil olub, 1999-cu ildə kitabxana işinin iqtisadi problemlərinə həsr olunmuş dissertasiya müdafiə edərək magistr dərəcəsini aldım. Magistraturanı bitirdikdən sonra Abuzər müəllimin rəhbərlik etdiyi kitabxanaşünaslıq kafedrasında qalıb işləməyimi həyatımın ən əlamətdar hadisələrindən biri sayıram.

Hazırda kitabxanaşünaslıq kafedrasının əməkdaşı kimi hər gün bu böyük şəxsiyyətlə ünsiyyətdə olmağımı, onun rəhbərliyi ilə apardığım işləri mənim bir şəxsiyyət və mütəxəssis kimi formalaşmağımda ən əhəmiyyətli mərhələ hesab edirəm. Onun hər bir sözü, göstərişi və məsləhəti mənim üçün örnək, mədəni-mənəvi həyat məktəbidir. Mən əminəm ki, bu həyat, elm və mədəniyyət məktəbi hələ uzun illər davam edəcəkdir.

Müəllimlər müəllimi olan Abuzər Xələfov haqqında söz demək asan olduğu qədər də çətin və məsuliyyətlidir. Asandır ona görə ki, böyük şəxsiyyətlər və söz mülkədarlarımızın əməllərindən süzüb gələn hikmətlər imkan verir ki, tələbə müəllim haqqında, övlad-valideyn haqqında, nəhayət ki, ərən-vətən haqqında xoş sözlər desin, layiqli kəlamlar işlətsin. Çətinliyi, məsuliyyətli olmağın dəyəri ondadır ki, deyiləcək söz və kəlamlar yerli-yerində, qədir-qiymətli olmaqla yanaşı uzun müddət öz qüdrətini qoruyub saxlaya bilsin.

Abuzər müəllim özünəməxsus orijinal ömür yaşayır və bu ömür yolunda mənalı yaşamağı, milli, mənəvi dəyərlərə sahib olmağın tutumunu, səbri, təmkini və zəhməti hesabına elmin ən yüksək pilləsinə qalxmanın sirlərini bizə öyrədir. Bu zirvədən işıq saçaraq öz aydınlığı ilə biz gənclərə güc verir. O, bu gücü çalışmaq və öyrənməyimizə sərf etməyi daim deyir. Bütün bunların təməlində insanlıq fəlsəfəsi və kökdən süzülüb gələn ucalıq qisməti durur. Çünki ucu şiş qayalardan yön alan ömür yolu ucalığa üz tutur və bu amalla yaşayıb-yaradır.

*Knyaz ASLAN*

# ÖMÜR PİLLƏLƏRİ

**Ustad Abuzər Xələfovun həyat və fəaliyyətinə həsr olunmuş xüsusi buraxılışa son söz əvəzi**

...Beləcə, bir şəxsiyyət ömrünün keşməkeşli, sevincli-fərəhli çağlarının vərəqlərə köçürülmüş məqamlarını sizinlə birlikdə xatırladıq, əziz oxucular! Abuzər Xələfovu yaxından tanıyanlar bu görkəmli ziyalını vətəndaş kimi, alim kimi, ağsaqqal kimi lazımınca səciyyələndiriblər. Amma nədənsə mənə elə gəlir ki, bəzi cəhətlərin bir qədər qüvvətləndirilməsinə zərurət var. Elə bu son söz əvəzi də həmin ehtiyacdan yarandı...

***

...XX yüzilliyin 80-cı illərinin sonunda – on minlərlə soydaşımız əsrlərcə yaşadıqları Qərbi Azərbaycandakı yurdlarından zor gücünə qovulanda, sazaqlı-şaxtalı qış günündə Bakı səkilərinin birində dərddən-qəmdən qıvrılıb için-için qovrulan bir Göyçə qocası görmüşdüm. Dözə bilməyib: *«Niyə qəmlisən baba?»- soruşmuşdum. Aldığım cavab* şerə çevrilmişdi və həmin şerdə bu misralar da vardı:

*Göyçənin göy çəmənindən*
*Keçəmmirəm, ağrın alım!*
*Çeşməsindən qan süzülür,*
*İçəmmirəm, ağrın alım!..*

*...Göy çəməndə yurd göyərir,*
*Yurd üstə namərd göyərir.*
*Hər addımda dərd göyərir,*
*Qaçammıram, ağrın alım!..*

Müəllimlərimizdən kimsə şerin dərc olunduğu qəzeti Abuzər müəllimə çatdırmışdı. Onda mən bu görkəmli alimin tövsiyəsi ilə BDU-nun kitabxanaşünaslıq kafedrasında laborant vəzifəsində işləyirdim. Abuzər müəllim məni yanına çağırdı, «Şerini oxudum, xalqımızın dərdini poetik dilə çevirməyi bacarıbsan...»- dedi və qəhərləndi. Həmişə zəhmli, ötkəm, ciddi insan təsiri bağışlayan Abuzər müəllimin ürəyinin nə qədər yumşaq olduğunu, unudulmaz el-obaya nə qədər qəlbdən bağlandığını, tülküsifət ermənilərin soydaşlarımızın başına gətirdiyi dəhşətli fəlakətə dözməyib necə kövrəldiyini mən ilk dəfə o zaman gördüm. O gün mən bir daha yəqin etdim ki, Abuzər Xələfov əsl insana xas olan bütün keyfiyyətləri özündə birləşdirən həqiqi şəxsiyyətdir!..

Sonrakı illərdə bu yəqinliyim xeyli möhkəmləndi. Dağlıq Qarabağda və digər bölgələrimizdə erməni silahlı birləşmələrinin törətdiyi vəhşiliklərə dözə bilməyən bu şəxsiyyət çıxışlarında, məruzələrində, müraciətlərində, məqalələrində öz əqidəsinə sadiq qalaraq azərbaycanlıları yekdil olmağa, azğın düşmənlərə qarşı birgə mübarizə aparmağa, yağılara aman verməməyə çağırırdı. İstər müəllimlərlə, istər tələbələrlə, istərsə də universitetə gələn dövlət adamları ilə söhbətlərində vətəndaşlıq mövqeyi hər şeydən ucada dururdu.

1993-cü ilin ortalarında – Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatanda isə Abuzər Xələfov vətənpərvər alimlərimizlə birgə heç nədən çəkinmədən Bakı yaxınlığında qarşı-qarşıya dayanmış silahlı dəstələrin üzvləri ilə görüşə getdi. Qardaş qırğınının baş verməməsinin, qan tökülməməsinin bir səbəbi də məhz Abuzər müəllim kimi ziyalılarımızın o hərc-mərclik dövründə əsl vətəndaş və əsl vətənpərvər kimi düzgün mövqe tutmalarında idi.

Abuzər Xələfov hələ yeniyetməlik dövründə – Böyük Vətən müharibəsi illərində kolxozda işləyəndə də, rəşadətli əməyinə görə medal alanda da, tələbə olanda da, alimlik mərtəbəsinə çatanda da, vəzifə pillələri ilə ucalanda da və bu gün – ağsaqqallıq məqamında da vətəndaşlıq məsuliyyətini çox yüksək tutub. Əlbəttə, o haqlıdır! Çünki yalnız əsl vətəndaş qabaqcıl fəhlə, əlaçı tələbə, bacarıqlı alim, ustad sənətkar ola bilər!

Böyük vətənpərvər Nəriman Nərimanov yazır: «Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün».

Elə bu səbəbdən mən də görkəmli alim haqqında yazımı vətənpərvərlik cizgiləri ilə başladım.

***

... Eşitdiklərim və oxuduqlarım belə bir qənaəti təsdiqləyir ki, Abuzər müəllim elə cavan vaxtlarından sözübütöv, prinsipial, obyektiv şəxs kimi tanınıb, haqqı nahaqqa qurban verməyib, mizan-tərəzini pozmayıb. Odur ki, halal ad-san qazanıb.

Bir kimsənin qarasınca danışmağı ləyaqətinə sığışdırmayıb, həmişə sözü üzə deyib. Və yenə də belədir!

Açıq mübarizədən heç vaxt çəkinməyib və meydana mərdi-mərdanə atılıb. Ürəyi, əməli və əqidəsi düz olduğundan həmişə qalib çıxıb!

Yalanı özünə ömürlük düşmən elan eləyib və elə buna görə də yalançını düz mənzilinəcən qovur. İşdir, bir kəs ona yalan danışsa, paxırını elə ustalıqla açır ki, yalançı tövbə eləmək məcburiyyətində qalır.

Bir də xəbərçilərin, çuğulçuların, aravuranların qənimidir Abuzər müəllim. Vay o adamın halına ki, kimdənsə ona xəbərçilik eləyə, qan qaraltmağa, ara qarışdırmağa çalışa. Onda həmin xəbərçiyə elə bir toy tutur ki, səsi qiyamətəcən qulaqlarından getmir. Çünki atalar demişkən: «Böhtançı şeytanın dostudur».

Ustad Qətran Təbrizinin «Min yalan bir doğruya dəyməz» kəlamını ucadan uca tutan Abuzər müəllim başqa bir klassikin bu sözlərini də həmişə təsdiqləyir: «Lal olmaq

yalan danışmaqdan, paltak olmaq söyüş söymakdan, yoxsulluğa dözmək oğurluqla mal toplamaqdan yaxşıdır».

Ömrü boyu yüksək insani keyfiyyətlərini qoruyub saxlayan və mənəvi saflığı, əqidə bütövlüyü, təmənnasız yaxşılığı ilə çoxlarına örnək olan Abuzər Xələfov dahi Nizami Gəncəvinin səkkiz əsr əvvəl peyğəmbərcəsinə söylədiyi:

*Yaxşılığı əzəldən adət etsən özünə,*
*Yaxşılığın hər yanda qapı açar üzünə,* -

fikrini yenidən sübuta yetirib. Bunanla da XX əsr Azərbaycan poeziyasının şəriksiz ustadı Səməd Vurğunun ilhamla tərənnüm etdiyi yaxşılıq sənətinə həmişə sadiq qaldığını göstərib:

*Qoyma ki, yerlərdə sürünsün bəşər,*
*Dünyada qalmasın nə pislik, nə şər.*
*Yaxşılıq insana bir sənət olsun,*
*Dünya başdan-başa qoy cənnət olsun.*

Abuzər müəllim indiyə qədər saysız-hesabsız yaxşılıqlar eləyib və çoxunu bəlkə də xatırlamır. Amma bu yaxşılıqlardan faydalanan adamlar üçün dünyada bir yaxşı insan da var — Abuzər müəllimdir o! Şəxsən mən şahidiyəm: bəzən bir nəfər 30-40 il əvvəl olmuş bir əhvalatı xatırladır və Abuzər Xələfovun adını xüsusi hörmətlə çəkir. Abuzər müəllim isə lap çoxdan unutduğu bu yaxşılıqların unudulmadığını duyanda duyğulanır, fərəhlənir, köksü sevincdən qabarır. Doğrudan da «balığı at dəryaya, balıq bilməz, xaliq bilər».

***

Mən bilərəkdən Abuzər müəllimin vətənpərvərliyini, insanpərvərliyini önə çəkdim. Ulu babalar çox doğru deyiblər ki, saç-saqqal ağartmaqla hörmət sahibi olmaq mümkün deyil. Yalnız elm və kamal sahibləri hörmətə layiqdirlər. Bu



baxımdan Abuzər Xələfov elmi və kamalı bir-birini tamamlayan hörmətli alimlərimizdən biri kimi çox yaxşı tanınır. Həm də təkcə Azərbaycanda yox, yaxın-uzaq xaricdə, o cümlədən Rusiyada, Baltikyanı dövlətlərdə, Qafqazda, İranda, Türkiyədə milli mədəniyyətimizin əsas sütunlarından olan kitabxana işindən söz düşərkən ilkin olaraq məhz onun adı çəkilir. O, bu şan-şöhrətə asanlıqla çatmayıb. Mübarizəli, qovğalı olaylardan keçib.

Azərbaycanda kitabxana işinin tarixini araşdırmağa girişəndə, günlərlə, aylarla arxivlərdə sənədlərlə baş-başa qalanda inanırdı ki, bu işi zəfərlə başa vura biləcək. Amma ona inanmayanlar da, ruhdan salmağa çalışanlar da vardı. O isə öz axtarışları ilə, araşdırmaları ilə sübuta yetirdi ki, qədim mədəniyyətə malik olan Azərbaycan xalqının dünyaya nümunə göstəriləcək zəngin kitabxana tarixi var!

Yazdı, yaratdı, inandırdı!

Bir-birinin ardınca nəşr etdirdiyi monoqrafiyalar elmi yeniliyi, sanballı ümumiləşdirmələri ilə nüfuzlu alimlərin diqqətini cəlb etməyə başladı.

Abuzər Xələfov fenomeni beləcə yaranmağa üz tutdu.

Azərbaycan kitabxanaşünaslığı məhz onun tədqiqatları ilə formalaşaraq dünya kitabxanaşünaslığında özünəməxsus yer tutdu.

Azərbaycan kitabxanaları onun yaratdığı kitabxanaçılıq fakültəsinin məzunlarının fəaliyyəti sayəsində öz işlərini günün tələbləri səviyyəsində qura bildilər.

Məhz Abuzər Xələfovun yetişdirmələri öz ustadlarının elmi məktəbini layiqincə davam və inkişaf etdirməyə çalışdılar və bu gün də onun dəyərli tövsiyələri, qiymətli məsləhətləri ilə kitabxanaşünaslıq elminə gənc nəslin istedadlı və bacarıqlı nümayəndələri gəlməkdədir.

Professor Abuzər Xələfov öz işgüzarlığı, fəallığı, yorulmazlığı, təşəbbüskarlığı ilə təkbaşına bir neçə alimin, bəlkə də bir neçə kollektivin görəcəyi işləri həyata keçirib. Bu, danılmaz faktdır!

Elə buna görə də Azərbaycan mədəniyyət tarixində Abuzər Xələfov zirvəsinin öz ucalığı, öz vüqarı var. Onun milli mədəniyyətşünaslığımıza verdiyi misilsiz töhfə neçə-neçə araşdırmaların mövzusu ola bilər.

Yeri gəlmişkən, bu görkəmli kitabxanaşünas alimin zəngin fəaliyyəti barədə bir sıra elmi məqalələr işıq üzü görsə də, hələlik sanballı monoqrafiya yazılmayıb. Məncə, bu məsələ tezliklə həllini tapmalı və ustadımız öz layiqli elmi qiymətini almalıdır. Buna onun tam mənəvi haqqı çatır!

Yenə də ulu Nizami demişkən:

*Hər uca rütbədən biliniz, fəqət,*
*Alimin rütbəsi ucadır əlbət.*

Alimliyin ən uca rütbəsinə ucalan və kitabxanaşünaslıq sahəsində ilk akademikimiz kimi şöhrətlənən Abuzər Xələfov bu gün ömrünün müdriklik çağlarını yaşayır. Atalarımız deyir ki, insan zehniyyətinin inkişafı onu müdrikliyə, müdriklik isə öz növbəsində iztirablardan xilas olmağa doğru aparır.

70 yaşın zirvəsində qanadlanan Abuzər müəllim bu müdrik vaxtında hansı iztirablardan xilas olmağa can atır? Mən qəti əminəm ki, bu iztirablar düşmən tapdağı altında inləyən müqəddəs torpaqlarımızın azad olunması, ulu Göyçə mahalının özümüzə qaytarılması, Azərbaycanımızın bütöv və azad dövlət kimi dünyada şöhrətlənməsi, xalqımızın xoşbəxt yaşaması və təbii ki, banisi olduğu kitabxanaşünaslıq elminin və qurucusu olduğu kitabxanaçılıq-informasiya fakültəsinin gələcək taleyi ilə bağlıdır.

Qoy bu iztirablar sevincə calansın, Abuzər müəllim!

Bir Şərq məsəlində deyilir: İnsanın bəzəyi müdriklik, müdrikliyin bəzəyi səbr, səbrin bəzəyi isə cəsarətdir.

Siz müdrik insansınız, səbriniz qədərincədir, cəsarətinizi isə hamı yaxşı bilir.



***

Gün o gün olsun ki, 80, 90, 100 illik yubileylərinizi də beləcə səmimiyyətlə, sizin iştirakınızla keçirək!

Möhtərəm ustadımız və ağsaqqalımız Abuzər müəllim haqqında qısaca ürək sözlərimi bununla bitirmək istəsəm də, mənə elə gəldi ki, məhz bu məqamda bu müdrik insanın şəxsiyyətini hərtərəfli açmaq üçün ondan 101 suala 101 cavab almasam, yazım da, elə bu xüsusi buraxılış da yarımçıq görünə bilər.

Buyurun, bu suallar, bu da cavablar.

## 101 SUAL, 101 CAVAB

| | |
|---|---|
| -Dünyaya göz açdığınız yer? | -Göyçə mahalının Cil kəndi |
| -Hansı bürcdə anadan olmusunuz? | -Oğlaq bürgündə |
| - Sevdiyiniz ölkə? | -Azərbaycan |
| - Sevdiyiniz şəhər? | -Bakı, Təbriz |
| - Sevdiyiniz rəqəm? | -7 |
| - Sevdiyiniz sənət? | -Kitabxanaçılıq |
| - Sevdiyiniz ixtisas? | -Kitabxanaşünaslıq |
| - Sevdiyiniz yazıçı? | -Süleyman Rəhimov |
| - Sevdiyiniz nəsr? | -M.S.Ordubadinin «Qılınc və qələm» romanı |
| - Sevdiyiniz şair? | -Səməd Vurğun, Şəhriyar. |
| - Sevdiyiniz şer? | -«Azərbaycan». |
| *- Sevdiyiniz xörək?* | *-Qurudlu xəngəl* |
| - Sevdiyiniz xanəndə? | -Xan Şuşinski |
| - Sevdiyiniz muğam? | -«Qarabağ şikəstəsi» |
| - Sevdiyiniz mahnı? | -«Şuşanın dağları», «Apardı sellər Saranı» |
| - Sevdiyiniz müğənni? | -Şövkət Ələkbərova |
| - Sevdiyiniz rəssam? | -Tahir Salahov |
| - Sevdiyiniz heykəltaraş? | -Ömər Eldarov |
| - Sevdiyiniz kitab? | -«Qurani-Kərim» |
| - Sevdiyiniz fəsil | -Bahar |
| - Sevdiyiniz ay? | -Oktyabr |
| - Sevdiyiniz gün? | -Bazar |
| - Sevdiyiniz il? | -1962 |
| - Sevdiyiniz kino? | -«Hər şey insanlara qalır» |
| - Sevdiyiniz tamaşa? | -İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən» dramı |

- Sevdiyiniz müəllim?
- Sevdiyiniz siyasətçi?
- Sevdiyiniz kitabxana?

- Sevdiyiniz kitabxanaçı?
- Sevdiyiniz meyvə?
- Sevdiyiniz ağac?
- Sevdiyiniz gül?
- Sevdiyiniz dağ?
- Sevdiyiniz göl?
- Sevdiyiniz dəniz?
- Sevdiyiniz çay?
- Sevdiyiniz küçə?
- Sevdiyiniz meydan?
- Sevdiyiniz musiqi aləti
- Sevdiyiniz aşıq?
- Sevdiyiniz saz havası?
- Sevdiyiniz aşıq mahnısı?
- Sevdiyiniz oyun havası?
- Sevdiyiniz məşğuliyyət?
- Sevdiyiniz filosof?
- Sevdiyiniz bəstəkar?
- Sevdiyiniz dastan?
- Sevdiyiniz bulaq?
- Sevdiyiniz aktyor?
- Sevdiyiniz oğlan adı?
- Sevdiyiniz qız adı?
- Sevdiyiniz dramaturq?

- Sevdiyiniz komediya?
- Sevdiyiniz içki?
- Sevdiyiniz mürəbbə?
- Sevdiyiniz idman növü?
- Sevdiyiniz idmançı?
- Sevdiyiniz himn?
- Sevdiyiniz bayraq?

- Sevdiyiniz söz?
- Sevdiyiniz hava?
- Spirtli içkiyə münasibətiniz?
- Siqaretə münasibətiniz?
- Sevdiyiniz avtomobil?

-Məmməd Arif, Mir Cəlal
-Heydər Əliyev
-M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
-Nigar xanım Vəlibəyova
-Alma
-Sərv ağacı
-Qızılgül
-Şahdağ
-Göyçə gölü
-Xəzər dənizi
-Kür çayı
-İstiqlal
-«Azadlıq»
-Saz
-Aşıq Ələsgər, Hüseyn Saraclı
-«Ruhani»
-«Duman salamat qal»
-«Vağzalı»
-Kitablarla həmsöhbət olmaq
-Sokrat
-Üzeyir Hacıbəyov
-«Abbas və Gülgəz»
-«Pəribulağı»
-Ələsgər Ələkbərov
-Azər
-Aytən
-Mirzə Fətəli Axundov, Cəfər Cabbarlı
-«Məşədi İbad»
-Çay
-Moruq mürəbbəsi
-Piyada gəzmək
-Namiq Abdullayev
-«Azərbaycan Dövlət himni»
-Üçrəngli müstəqillik bayrağımız
-Düz söz
-Günəşli
- İçmirəm.
- Mənfi.
- «Mersedes»



- Sevdiyiniz istirahət yeri?
- Sevdiyiniz kənd?
- Sevdiyiniz milli bayram?
- Sevdiyiniz dövlət bayramı?
- Xoşladığınız şirniyyat?
- Sevdiyiniz ədəbi qəhrəman?

-Xoşladığınız geyim?
- Xoşladığınız şirə?

-Xoşladığınız stolüstü oyun?
- Xoşladığınız uşaq oyunu?
- Sevdiyiniz nağıl?
- Sevdiyiniz xalça?

- Ziyarət etdiyiniz müqəddəs ocaqlar?
- Xoşladığınız çöl heyvanı?
- Xoşladığınız ev heyvanı?
Xoşladığınız çöl quşu?
- Sevdiyiniz ali məktəb?
- Sevdiyiniz müsbət xüsusiyyət?
- Sevmədiyiniz mənfi xüsusiyyət?
- Görmək istəmədiyiniz xüsusiyyət?
- Özünüzü borclu saydığınız şəxs?
- Sevdiyiniz opera?
- Sevdiyiniz muzey?
- Sevdiyiniz zinət əşyası?
- Unuda bilmədiyiniz xoş gün?
- Həyatınızı ən ağır gün?

- Daha çox baxdığınız televiziya kanalı?
- Sevdiyiniz televiziya verilişi?

- Sevdiyiniz radio verilişi?
- Sevdiyiniz ətir?
- Xoşladığınız ev quşu?
- Sevdiyiniz dağ çiçəyi?
- Hörmətlə xatırladığınız alim?
- Düşməniniz?

- Dəniz kənarı.
- Doğulduğum kənd.
- Novruz bayramı.
- 18 oktyabr- müstəqillik günü.
- Şəkərbura.
- Bəxtiyar Vahabzadənin «Sadə adamlar» poemasındakı kitabxanaçı Ülkər.
- Kostyum.
- Şaftalı şirəsi, limon şirəsi, alma şirəsi.
- Dama.
- «Gizlənpaç».
- «Məlikməmməd».
- Nənələrimizin toxuduğu Azərbaycan xalçaları.

- Məkkə, Kərbəla, Məşhəd.
- Ceyran.
- At.
- Kəklik.
- Bakı Dövlət Universiteti.
- Düzlük və doğruçuluq.
- Kobudluq və təkəbbürlülük.
- Biganəlik.
- Atam, anam.
- «Koroğlu».
- «Azərbaycan tarixi» muzeyi.
- Qızıl üzük.
- Evləndiyim gün.
- Xocalı faciəsinin törədildiyi gün.
- Az.TV, ANS.

- Azərbaycan tarixinə həsr olunmuş verilişlər.
- «Sarıtel».
- Fransız ətri.
- Hind toyuğu.
- Bənövşə.
- Zülfəli İbrahimov.
- Düşmən olmasa yaxşıdır.

- Ən çox oxuduğunuz qəzet? - «Azərbaycan».
- Yumora münasibətiniz? - Çox əla!
- Ən böyük arzunuz? - Tələbələrimin sevimlisi olmaq!

| | |
|---|---|
| Nəşriyyatın direktoru: | Balakişi Ağayev |
| Baş redaktor: | Məmməd Əlizadə |
| Mətbəə üzrə direktor müavini: | Ələs Qasımov |
| Redaksiya müdiri: | Ulduza Canıyeva |
| Nəşriyyat redaktoru: | Afiqə Cəfərova |
| Texniki redaktoru: | Nərgiz Quliyeva |
| Korrektoru: | Məlahət Cəlilova, Fiqumə Mirzəyeva |
| Kompüter tərtibçisi: | Azadə İmanova |

Yığılmağa verilmişdir: 04.10.2001
Çapa imzalanmışdır: 20.11.2001
Kağız formatı 60x84 1/16. Həcmi 9,5 ç.v.
Sifariş 146, Tirajı 400.

Bakı Universiteti nəşriyyatı,
Bakı - 370148, Z.Xəlilov küçəsi, 23.
BDU Nəşriyyatının mətbəəsi